# Naxçıvanın “yaşıl” enerji konsepsiyası hazırlanır

**Energetika nazirinin müavini Orxan Zeynalov “Dayanıqlı ətraf mühit: yaşıl enerjiyə keçid” mövzusunda keçirilən beynəlxalq elmi konfransda bildirib ki, Naxçıvan–Azərbaycan–Türkiyə “yaşıl” enerji dəhlizi üzrə texniki-iqtisadi əsaslandırmanın hazırlanmasına start verilib və Naxçıvandan Türkiyəyə elektrik enerjisi ixracı ilə bağlı modelin hazırlanmasına başlanılıb. Texniki-iqtisadi əsaslandırmada Cəbrayıl enerji qovşağının Naxçıvana və Türkiyəyə birləşdirilməsi nəzərdə tutulub.**

Nazir müavini əlavə edib ki, yeni enerji layihələrinin gerçəkləşdirilməsi ilə yanaşı, milli şəbəkənin gücləndirilməsi və sabitliyinin təmin edilməsi üçün ciddi addımlar atılır: “2027-ci ilə qədər 2 giqavat bərpa olunan enerji gücü milli elektrik şəbəkəsinə inteqrasiya ediləcək. 2030-cu ilə qədər isə əlavə 7 giqavat güc nəzərdə tutulur ki, bunun 5 giqavatı Avropaya ixrac olunacaq. Həmçinin 4 giqavat Xəzər–Qara Dəniz dəhlizi, 1 giqavat isə Naxçıvan–Azərbaycan–Türkiyə “yaşıl” enerji dəhlizi vasitəsilə ixrac ediləcək”.

***XQ***




# Xalq qəzeti

Xalqın qəzeti!

№ 271 (30675) 8 dekabr 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

**1919-cu ildən çıxır** **Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti**


# Erməni mifləri Azərbaycan həqiqətlərinə çırpılıb çiliklənir



**Tibb elmi o səviyyəyə çatıb ki, canlıların da klonlaşdırılması adi əməliyyat sayılır. İnsanın ciyərinə, ürəyinə stimulyatorların qoşulması, yaxud onların yenisi ilə əvəzlənməsi ilə artıq kimisə heyrətləndirmək mümkün deyil. Bircə qalıb beyinə müdaxilə üsuluna yiyələnmək. Doğrudur, bədənin qoz ləpəsinə oxşayan baş orqanının üzərində cərrahi əməliyyatlar aparılır, amma beynin sol yarımkürəsinin daxilinə nüfuz etməyin yolu hələ kəşf edilməyib. Onun da vaxtı gələcək...**

İndi biz də gözləyirik ki, erməni cəmiyyəti birmənalı şəkildə başa düşsün ki, sən qonşunun, ümumiyyətlə, başqasının malına-mülkünə tamah sala bilməzsən. Sənə aid olmayanı mənimsəməyə çalışmaq isə həm ərazi, həm mədəni-tarixi, həm də əxlaqi cəhətdən qəbuledilməzdir. Dünyanın çoxdan qəbul etdiyi bu sadə prinsipləri anlamaqda çətinlik çəkən coğrafi qonşularımız bu gün bilavasitə özlərini utopik-ideoloji, aqressiv-şovinist istəklərinin acı meyvələrini dadmağa məhkum ediblər. Üçüncü minilliyini xərcləyən müasir sivilizasiya çox dəyərlərə yenidən baxıb, zaman, sürət və təbiətlə uzlaşma düsturlarını təzələyib, amma erməni cəmiyyəti dəyişmir ki, dəyişmir. Haylar hələ də miflərin kölgəsində dayanıb inanclarını reallığa yox, xəyal aləminə kökləməklə məşğuldurlar. Sanki başlarını qaldırıb ətrafda cərəyan edən hadisələrin mahiyyətini dərk etmək və hamı kimi yaşamaq istəmirlər. Belə görünür ki, onlar neçə əsrin dolanbaclarında yollarını azdıqları mifologiyaların, “miatsum” sədalı “bayatıların” əsiri olaraq qalmaqda israrlıdırlar.

*(ardı 4-cü səhifədə)*

# Bank əməliyyatları və kibertəhlükəsizlik




**Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Respublikasının Mərkəzi Bankı və İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinin dəstəyi ilə 8-ci Beynəlxalq Bankçılıq Forumu keçirilib. Forumda bank-maliyyə texnologiyaları, rəqəmsallaşma, ödəniş ekosistemi və kibertəhlükəsizlik kimi strateji sahələrdə fikir və təcrübələrin mübadiləsi, bank sisteminin etibarlılıq, təhlükəsizlik və dayanıqlılıq prinsipləri üzərində qurulmasının zəruriliyi barədə ətraflı söhbət açılıb.**

*(ardı 7-ci səhifədə)*

# Paşinyanın “erməni hamiləliyi” ritorikası

*Baş nazirin parlamentdəki çıxışına sözardı*



**Ermənistan baş naziri Nikol Paşinyan son illər ona ünvanlanan suallara məxsusi şəkildə cavab verməsi ilə diqqət çəkməkdədir. Təbii ki, Nikolun əsas məqsədi bütün irad və tənqidləri kənarlaşdırıb özünü təmizə çıxarmaqdır və əsasən buna çalışır. Onun Qarabağla bağlı ölkə parlamentində üzləşdiyi suala münasibəti də belə deməyə əsas verir.**

*(ardı 4-cü səhifədə)*

## Keşiş Baqrat “qış yuxusu”ndan imtina etdi



**Səhifə ⇨ 5**

## Dəyişən dünya və sabahın çağırışları



**Səhifə ⇨ 6**

# Blinkenin danışıqlar təşəbbüsü, yoxsa pozuculuq?



**Yəqin, xəbəriniz var ki, ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinken ATƏT Xarici İşlər Şurasının Maltadakı iclasında Azərbaycan və Ermənistan xarici işlər nazirlərini bir araya gətirmək istəyib, amma görüş alınmayıb. APA-nın diplomatik mənbələrə istinadən yaydığı məlumata görə, Azərbaycan tərəfi Blinkenin təşəbbüsünə qarşı çıxıb. Ermənistan XİN isə bildirib ki, İrəvan Birləşmiş Ştatlar rəsmisinin təklifini qəbul edib. Buradan çıxan nəticə nədir? Ermənistan danışıqlar arzusundadır, konstruktivdir, Azərbaycan isə yox. Hər halda, birinci tərəfin tez-bazar məlumat hazırlayıb razılıq ifadə etməsi bunu söyləməyə əsas verir. Ancaq...**

*(ardı 3-cü səhifədə)*

## Bir pərdəlik vida tamaşası



**Səhifə ⇨ 5**

## AÇG və “Şahdəniz”dən 5,7 milyard dollar qazanc



**Səhifə ⇨ 7**

## Ət niyə bahalaşır?



**Səhifə ⇨ 9**

# Suriyada hadisələr günbəgün qəlizləşir

**Dünən Suriyada üsyançılarla Əsəd rejimi qüvvələri arasında ağır döyüşlər davam edib. Dünya bu ölkədəki hərbi əməliyyatların gedişatını diqqətlə izləyir. Səbəbi bəllidir: Suriyada baş verən olaylar bu ölkənin sərhədlərini böyük ölçüdə aşır.**

Bəzi təhlilçilər Suriyadakı hadisələri hətta “Kiçik dünya müharibəsi” adlandırırlar. Belə ki, burada birdən-birə 6 dövlətin – Suriya, İran, Rusiya, ABŞ, İsrail və Türkiyənin milli maraqları toqquşur. Kimin üstün gələcəyini indidən demək çətindir.

Xatırladaq ki, bu il noyabrın 27-dən etibarən Suriya Qurtuluş Hökumətinin rəhbərliyindəki müxalif qüvvələr Bəşəd Əsəd rejiminə qarşı hücuma başlayıblar. Üsyançılar 3 gün ərzində ölkənin 2-ci böyük şəhəri Hələbi və sonrakı günlər ərzində isə strateji əhəmiyyətə malik Həma şəhərini ələ keçiriblər.

*(ardı 11-ci səhifədə)*



Beynəlxalq konfrans

# “Parlamentarizm: Ənənələr və perspektivlər”

**Dekabrın 7-də Milli Məclisdə “Parlamentarizm: Ənənələr və perspektivlər” mövzusunda Beynəlxalq Parlament Konfransı keçirilib. Konfransda 13 ölkənin parlamentindən və beynəlxalq təşkilatlardan 100-ə yaxın nümayəndə iştirak edib.**



Tədbiri giriş nitqi ilə açan Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, konfransın mövzusu olduqca aktualdır. O qeyd edib ki, ölkələrimizin siyasi həyatında parlamentlərin oynadığı rol danılmazdır. Belə ki, onlar qanunvericilik hakimiyyəti funksiyasını yerinə yetirməklə, dövlətin idarə olunmasında fəal iştirak edirlər.

Parlamentin sədri bu konfrans çərçivəsində aparılacaq müzakirələrin faydalı olacağına inamını ifadə edib. Azərbaycanda mövcud olan parlamentarizm ənənələrindən danışan Sahibə Qafarova 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin fəaliyyətini xüsusi qeyd edib. Bildirib ki, Azərbaycan parlamentinin ilk iclası 106 il əvvəl məhz dekabrın 7-də keçirilib. Qeyd edilib ki, müsəlman Şərqində o dövrün ən mütərəqqi, demokratik prinsipləri əsasında formalaşdırılmış ilk qanunverici orqan olan Azərbaycan Parlamenti öz fəaliyyəti dövründə milli dövlətçiliyin və müstəqilliyin möhkəmləndirilməsi, siyasi, iqtisadi, mədəni, elmi və digər sahələrdə hüquqi bazasının yaradılması istiqamətində mühüm addımlar atmışdı. Həmin parlament cəmi on yeddi ay fəaliyyət göstərsə də, həmin dövr ərzində 145 iclas keçirib, 270-dən çox qanun layihəsini müzakirəyə çıxarıb, 230-a yaxın qanun qəbul edib.

Azərbaycanın 1991-ci ildə müstəqilliyini bərpa etməsinin parlamentimizin tarixində yeni dövrün başlanması ilə yadda qaldığını deyən S.Qafarova ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışının ölkəmizdə sabitliyin qorunub saxlanması və inkişaf etdirilməsi, eyni zamanda, yeni parlament institutunun formalaşdırılması baxımından həyati əhəmiyyət daşıdığını bildirib. Diqqətə çatdırılıb ki, bu gün Milli Məclis Prezident İlham Əliyevin ölkəmizə böyük uğurlar və qələbələr qazandıran milli inkişaf strategiyasının həyata keçirilməsi prosesinə öz qanunvericilik fəaliyyəti ilə töhfə verir.

Sonra konfransda Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay çıxış edərək, Azərbaycan parlamentinin 106-cı ildönümü münasibətilə təbriklərini və xoş arzularını çatdırıb. O, Azərbaycan parlamentinin öz fəaliyyətini demokratik prinsiplər əsasında qurduğunu qeyd edib. Eyni dilə, dinə, mədəniyyətə mənsub Türkiyə ilə Azərbaycan arasında möhkəm dostluq və qardaşlıq əlaqələrinin olduğunu, iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın dinamik inkişaf etdiyini bildirib. Türkiyənin hər zaman, o cümlədən, 44 günlük Vətən müharibəsində Azərbaycanı dəstəklədiyini, ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə dair imzalanmış Şuşa Bəyannaməsinin vacibliyini vurğulayıb. Fuat Oktay dövlətlərimiz, parlamentlərimiz və xalqlarımız arasında qardaşlıq münasibətlərinin daim mövcud olacağına əminliyini söyləyib.

TBMM-in Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım çıxışında Azərbaycan parlamentinin tarixi günü ilə bağlı xoş arzularını söyləyib, müsəlman Şərqinin ilk demokratik respublikasının parlamentinin mühüm işlər gördüyünü deyib. O, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu qeyd edərək, ölkəmizin Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini məmnunluqla vurğulayıb.

TBMM-in Azərbaycanla dostluq qrupunun rəhbəri Qərbi Azərbaycana qayıdış məsələsinə toxunaraq bildirib ki, vaxtilə öz yurdlarından didərgin düşmüş azərbaycanlılar beynəlxalq hüquq normalarına uyğun olaraq öz evlərinə qayıtmalıdırlar.

Parlamentlərimiz arasında münasibətlərin gücləndiyini deyən Şamil Ayrım Azərbaycan parlamentarizminin inkişafında ümummilli lider Heydər Əliyevin müstəsna rolunu vurğulayıb.

Tədbirdə çıxış edən bəzi deputatlar müsəlman Şərqində ilk demokratik, hüquqi və dünyəvi dövlətin Azərbaycanda elan edilməsi ilə həm də ölkə tarixində parlamentarizmin əsasının qoyulduğunu diqqətə çatdırıblar. Vurğulanıb ki, Xalq Cümhuriyyəti dövründə ilk dəfə qadınlara səsvermə hüququ verilib. Bu baxımdan Azərbaycan parlamentinin öz yeri, rolu və ənənələri var.

Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyevin Milli Məclisə rəhbərliyi dövründə onun ölkəmizdə parlamentarizm ənənələrinin formalaşmasında və parlament mədəniyyətinin təkmilləşdirilməsində misilsiz xidmətləri olub. Azərbaycanın dövlət müstəqilliyinin və təhlükəsizliyinin qorunub saxlanılması, onun dayanıqlı inkişafının təmin edilməsi, ərazi bütövlüyümüzün bərpa edilməsi sahəsində qanunların hazırlanıb və qəbul edilməsi də məhz Heydər Əliyevin adı ilə bağlıdır. Deputatlar bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyatın bütün sahələrində təqdirəlayiq uğurların əldə edildiyini, sabitliyə, tərəqqiyə nail olunduğunu, ölkəmizin beynəlxalq miqyasda söz sahibi olduğunu vurğulayıblar.

Beynəlxalq konfransda Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının Elm, təhsil və mədəniyyət komitəsi sədrinin birinci müavini İlyas Umaxanov, Qazaxıstan parlamenti Senatının Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin katibi Darxan Kıdırali, Özbəkistan Ali Məclisi Senatının Gənclər, mədəniyyət və idman komitəsinin sədri Orzigül Kozixonova, Tacikistan Ali Məclisi Milli Məclisinin Sosial məsələlər, səhiyyə, elm, təhsil, mədəniyyət, gənclər və qadın siyasəti komitəsinin sədri Məhmədşoh Gülzoda, TBMM-in Cümhuriyyət Xalq Partiyası Qrupunun sədr müavini Murat Emir, İraq Nümayəndələr Şurasının İnsan hüquqları komitəsinin sədri Ərşad Əl-Salihi, Belarus Milli Assambleyası Respublika Şurasının Qanunvericilik və dövlət quruculuğu məsələləri üzrə daimi komitəsinin sədr müavini Aleksey Vasilyev, Gürcüstan parlamentinin İnsan hüquqları və vətəndaş inteqrasiyası komitəsinin sədr müavini Savalan Mirzəyev, TBMM-in Milliyyətçi Hərəkat Partiyası Qrupunun sədr müavini Filiz Kılıç, Malayziya Nümayəndələr Palatasının Beynəlxalq əlaqələr və ticarət komitəsinin sədri Vonq Çen, TBMM-in Ədliyyə komissiyasının sədri Cüneyt Yüksel, Qırğızıstan Joqorku Keneşinin Azərbaycanla əməkdaşlıq üzrə dostluq qrupunun rəhbəri Səidbek Zulpuyev, TBMM-in Rəqəmsal Media Komissiyasının sözçüsü Zeynep Yıldız, TBMM-in üzvü Süreyya Öneş Derici, Pakistan Milli Assambleyasının üzvü Sərdar Əmmar Əhməd Xan Leqhari, TBMM-in üzvü Kürşad Zorlu, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er çıxış edərək fikirlərini bölüşüblər.

Qonaqlar Azərbaycan parlamentinin fəaliyyətini, parlamentlərarası əlaqələrin inkişafına verdiyi töhfəni yüksək dəyərləndiriblər.

*XQ*

# “İlham Əliyev. İnkişaf – məqsədimizdir” çoxcildliyinin 140-cı kitabı




***“Bir nömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, həm də eyni zamanda, Ermənistanda revanşizm meylləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə – nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik. Hesab edirəm ki, müstəqil Azərbaycanın tarixi, o cümlədən, 30 illik işğal bunu əyani şəkildə göstərir. Bizim hərbi imkanımız, gücümüz olmasaydı, heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. İndi dünyada nəinki siyasətlə məşğul olanlar, hesab edirəm ki, bütün insanlar görürlər ki, beynəlxalq hüquq anlayışı tamamilə sarsılıb. İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası artıq mövcud deyil, “Kim güclüdür, o da haqlıdır” prinsipi üstünlük təşkil edir və bəzi böyük dövlətlər bunu heç gizlətmirlər”.***

“İlham Əliyev. İnkişaf – məqsədimizdir” çoxcildliyinin çapdan yeni çıxmış 140-cı kitabında yer alan bu fikirləri dövlətimizin başçısı sentyabrın 23-də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqində söyləyib. Oxucu Azərbaycan Prezidentinin nitqinin tam mətni ilə bu kitabda tanış ola bilər.

Çoxcildliyin 140-cı kitabında toplanmış materiallar 2024-cü ilin sentyabr–oktyabr aylarını əhatə edir.

Yeni kitaba Prezident İlham Əliyevin Bakı Ekspo Mərkəzində keçirilmiş ADEX-2024 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və “Securex Caspian” 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisində iştirakına dair informasiya daxil edilib. Oxucu bu kitabda dövlətimizin başçısının İqtisadi məsələlərə həsr olunmuş müşavirədə, habelə, Aşıq Ələsgərin abidəsinin açılış mərasimində çıxışlarının mətnləri ilə də tanış ola bilər.

Prezident İlham Əliyev sentyabr ayında Ağdam rayonuna, Xankəndi və Şuşaya səfər edib, aparılan bərpa-quruculuq işləri ilə tanış olub, bir sıra müəssisələrin açılışında iştirak edib, eyni zamanda, yeni müəssisələrin təməlini qoyub. Dövlətimizin başçısı Xankəndi şəhərində Qarabağ Universitetinin tələbə yataqxanasının və bu universitetin təmirdən sonra açılış mərasimində iştirak edib, müəllim və tələbə heyəti ilə görüşüb. Şuşada isə dahi bəstəkar Üzeyir Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılışında, Şuşada Bayraq meydanının açılış mərasimində iştirak edib. Prezident oktyabr ayında isə Zəngilana və Cəbrayıla səfər edib. Dövlətimizin başçısı Cəbrayılda yaşayış kompleksinin açılış mərasimində olub və yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim edib. Bütün bunlar haqqında informasiyalar yeni kitabda verilib.

Çoxcildliyin 140-cı kitabında Prezident İlham Əliyevin Moskvada MDB Dövlət Başçıları Şurasının iclasında iştirakına və çıxışına, “Rossiya-1” televiziya kanalına müsahibəsinə, habelə XVI BRICS Sammitinin “Outreach” / “BRICS+” formatında iştirak etmək üçün Rusiya Federasiyasının Tatarıstan Respublikasına səfərinə və plenar iclasda çıxışına dair materiallar da toplanıb.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçılarına, “İqlim dəyişikliyi və insan hüquqları: ombudsmanların və milli insan hüquqları təşkilatlarının rolu” mövzusunda Beynəlxalq Bakı Forumunun, Pre-COP29 tədbirinin və Azərbaycanda keçirilən digər beynəlxalq tədbirlərin iştirakçılarına müraciətlərinin mətnləri ilə də tanış ola bilər.

“Azərnəşr” tərəfindən buraxılan 140-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

Dəyirmi masa

# Azərbaycan və Türkiyə parlamentlərinin ictimai diplomatiya nümunəsi





**Dekabrın 7-də ADA Universitetində “İctimai diplomatiyada parlamentlərin rolu: Azərbaycan və Türkiyə nümunəsi” mövzusunda beynəlxalq dəyirmi masa keçirilib.**

Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov müstəqilliyimizin bərpasının xalqımız üçün tarixi bir nemət olduğu kimi, Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi baxımından da mühüm əhəmiyyət daşıdığını söyləyib.

Onun sözlərinə görə, artıq dünya beynəlxalq münasibətlər sisteminin, beynəlxalq hüququn yeni reallıqlara uyğunlaşdırılmasına məhkumdur. “Təəssüflə qeyd etmək lazımdır ki, İkinci Dünya müharibəsindən sonra hüququn ali olmasını təmin etmək məqsədilə yaradılmış beynəlxalq münasibətlər sistemi də, beynəlxalq hüquq sistemi də çöküb və bunun alternativi olaraq güc amili meydana gəlir. İndi güc beynəlxalq hüququn çox ciddi alternativinə çevrilir”, - deyə parlament sədrinin birinci müavini əlavə edib.

Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay ölkələrimiz arasında münasibətlərin xüsusi əhəmiyyətə malik olduğunu deyib. F.Oktay diqqətə çatdırıb ki, bu il Azərbaycan parlamentinin 106-cı ildönümü ilə yanaşı, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ilk dəfə seçkilərin keçirilməsi ilə əlamətdardır.

Azərbaycan ilə Türkiyə arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsinin əhəmiyyətinə toxunan TBMM-in komitə sədri vurğulayıb ki, regionda sülhün və sabitliyin möhkəmləndirilməsi istiqamətində birgə səylərin davam etdirilməsi vacib məsələdir. Bu cür beynəlxalq tədbirlər iki qardaş ölkə arasındakı əməkdaşlığın dərinləşməsinə mühüm töhfələr verir.

Daha sonra konfransda “Parlamentlərin ictimai diplomatiyada rolu” mövzusunda müzakirələr aparılıb.

Müzakirələrdə Milli Məclis sədrinin müavinləri Ziyafət Əsgərov, Rafael Hüseynov, Musa Qasımlı, Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin müavini Orhan Erdem, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, TBMM-in üzvü Nurhayat Altaca Kayışoğlu, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Nigar Arpadarai, TBMM-in Türkiyə-Avropa İttifaqı Birgə Parlament Komitəsi həmsədrinin müavini Konur Alp Koçak çıxış ediblər.

Tədbirdə Azərbaycan və Türkiyə parlamentlərinin ictimai diplomatiya sahəsindəki rolu, ortaq layihələrin həyata keçirilməsi, regional və qlobal çağırışlara birgə cavab vermək məqsədilə əməkdaşlıq imkanlarının genişləndirilməsi, eləcə də əməkdaşlığın dərinləşdirilməsi və ictimai diplomatiyanın səmərəliliyinin artırılması istiqamətində məsələlər müzakirə olunub.

*XQ*

# Ulu öndərin xatirəsinə həsr olunmuş intellektual yarış



**Dekabrın 7-də “Yüksəliş” müsabiqəsi tərəfindən ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş intellektual yarış keçirilib. Yarış müsabiqənin qalibləri, finalçıları və yarımfinalçıları arasında təşkil edilib.**

“Yüksəliş” kvizinin qış mövsümündə 43 komanda tərkibində, ümumilikdə, 252 iştirakçı mübarizə aparıb. Gərgin və maraqlı mübarizə nəticəsində birinci yerə “White Walkers” komandası layiq görülüb. İkinci yerin qalibi “NeveRest”, üçüncü yerin sahibi isə “Se7en” komandaları olub.

“Yüksəliş” müsabiqəsi dördüncü dəfədir ki, qaliblər, finalçılar və yarımfinalçılar arasında intellektual yarış keçirir.

Xatırladaq ki, “Yüksəliş” müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli Sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21–51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir. “Yüksəliş” müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən – böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

*XQ*

# Blinkenin danışıqlar təşəbbüsü, yoxsa pozuculuq?

(əvvəli 1-ci səhifədə)

Rəsmi İrəvanın kiçik manevrlərlə böyük xal qazanmaq istəyi indinin söhbəti deyil. Ermənistan ötən dörd ildə dəfələrlə belə mənasız gedişlər edib, guya, diplomatik səriştə göstərib. Halbuki, yanaşmanın yanlışlığı gün kimi aydındır. Çünki hər hərəkətdə bir prinsip olmalıdır. Prinsip Azərbaycanı gözdən salmaqdırsa və erməni tərəfi ötən müddətdə bunun qeyri-mümkünlüyünü anlamayıbsa, deməli, ölkənin siyasi sistemi dərin böhrandadır. Əslində, bunu sübuta yetirmək üçün çoxsaylı digər məqamlar da var. Bu, öz yerində.

Blinkenin Azərbaycan və Ermənistan XİN rəhbərlərini eyni masa ətrafında əyləşdirmək istəyi bir neçə cəhətdən doğru deyil. Axı ABŞ Dövlət katibinin indiyədək belə təşəbbüsləri az olmayıb və onların heç biri fayda verməyib. Ona görə fayda verməyib ki, birincisi, Birləşmiş Ştatlar sırf görüntüyə güc verib. Çalışıb ki, Azərbaycan və Ermənistan XİN rəhbərlərini bir araya gətirməsi ictimai rəydə Vaşinqtonun Cənubi Qafqaz müstəvisində aktivləşməsi kimi qəbul olunsun. Bu aktivləşmənin anti-Rusiya ritorikasına söykəndiyi aydındır.

İkincisi, ABŞ-nin danışıqlar təşəbbüsü kollektiv Qərbin vasitəçiliyi kontekstində olub. Sadəcə, Ağ Ev bir qədər fərqli metod seçib. Özünü Qərbin digər seqmentlərindən, məsələn, Avropa İttifaqından daha üstün tutmaq istəyib. Yəni, burada da müəyyən rəqabət elementləri hiss olunub. Üçüncüsü isə Birləşmiş Ştatlar birbaşa Ermənistanın tərəfində dayanıb. Blinken Azərbaycan və Ermənistan XİN rəhbərlərini bir araya gətirməklə, rəsmi Bakıya nəyisə, yaxud nələrisə qəbul etdirmək məramı güdüb. Dövlət katibinin hər səmərəsiz vasitəçilik missiyasından sonra Amerikada güclənən anti-Azərbaycan kampaniyası bunu söyləməyə əsas verir. Deməli, ABŞ Bakı ilə təzyiq dili ilə danışmaq istəyib.

Bəli, Bayden Administrasiyası Azərbaycana qarşı ədalətsiz, qərəzli siyasət yürüdüb və mövcud tendensiya özünü ən ağlasığmaz şəkildə göstərib. Bu baxımdan A.Blinkenin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın dediklərini yada salaq. Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək istəməməsi səbəbindən ölkəmizin Naxçıvana yolun İrandan keçməsi təşəbbüsündən söz açan C.O'Brayn, az qala, hədə-qorxu gəlmişdi. O, sözügedən yolun Ermənistandan deyil, İran İslam respublikasından keçəcəyi təqdirdə, Vaşinqtonun Bakı ilə əlaqələrə yenidən baxacağını bildirmiş, elə təsəvvür formalaşdırmışdı ki, sanki, heç nə əvvəlki kimi olmayacaq. Habelə, Blinkenin köməkçisinin ifasında Azərbaycanın öz mövqeyini qətiləşdirməli olduğuna, guya, Birləşmiş Ştatların ölkəmizə vaxt verdiyinə dair "kovboysayağı" musiqinin sədalarını eşitmişdik.

Eyni zamanda, onu da bildirməliyik ki, hər dəfə Blinken Azərbaycan və Ermənistan XİN rəhbərlərinin heç bir nəticəsi olmayan görüşünü təşkil edəndən sonra ABŞ-nin ermənipərəst konqresmenlərinin və senatorlarının "düymələrinin basıldığını" görmüşük. Bu şəxslərin bütün etik dəyər və prinsipləri aşdıqlarını da həmçinin.

Məsələn, Bayden Administrasiyası dövründə, konkret olaraq, 2024-cü ilin fevralında ermənipərəst senatorlar Ed Marki və Bill Kessidi Konqresə Xarici Yardım Aktının 502B(c)-ci bəndinə əsasən, Azərbaycanda insan hüquqlarının vəziyyəti ilə bağlı hesabat tələb edən qətnamə layihəsi çıxarmışdılar. Ümumən, bu layihə Birləşmiş Ştatlara istənilən ölkədə insan hüquqlarının vəziyyəti ilə bağlı məlumat tələb etmək, həmin ölkəyə təhlükəsizlik sahəsində yardımı azaltmaq və ya tamamilə dayandırmaq imkanı verir. Məsələnin imperialist mahiyyəti isə budur: Alınan məlumatlar əsasında ABŞ-nin hesabatı aparılan ölkəyə təhlükəsizlik yardımı dayandırılır, sanki İlahinin lütfi həmin ölkəni tərk edir. Belə çıxır ki, ərazi bütövlüyü və suverenlik məsələsi ikinci plana keçir, hətta əhəmiyyətsizləşir. Yəni, ABŞ təhlükəsizlik dəstəyini dayandırırsa, ölkə, bir növ, havada qalır. Ona kim istəsə, hücum edə bilər. Ən başlıcası isə məsələ Vaşinqton tərəfindən leqal qiymətləndiriləcək.

Burada haşiyə çıxaq ki, Xarici Dəstək Aktının 502B(c) bəndi ABŞ hökumətini bey-nəlxalq səviyyədə tanınmış insan haqlarını kobud şəkildə pozan hansısa ölkəyə Birləşmiş Ştatların təhlükəsizlik dəstəyini qadağan edən, lakin təcrübədə istifadə olunmayan qanundur. ABŞ-də heç bir məna daşımayan qanunlar külliyyəti istənilən qədərdir. Həmin sənədlər sırf mühafizəkar yanaşma məntiqi ilə qanunvericilikdən çıxarılmır. Bilavasitə Xarici Dəstək Aktının 502B(c)-ci bəndinə gəlincə, sənəd 1976-cı ildən bəri tətbiq edilmir. Həyasızlığa baxın ki, onu Azərbaycanın üzərində dövriyyəyə gətirmək planları qurulub.

***

ABŞ-nin anti-Azərbaycan ritorikası ilə bağlı daha bir məqama keçid alaq. Prezident İlham Əliyev bu il okytabrın 4-də Cəbrayıl sakinləri ilə görüşündə demişdi: "Bu gün səhər mənə məlumat verildi. Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir? Bizə qarşı olan düşmənçilik siyasəti dayanmır. O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində yazılır. Yəni, özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün. Axı, biz nə etmişik? Biz öz doğma torpaqlarımızı azad etmişik. Burada erməni yaşayıb? Yox, siz – Cəbrayılın sakinləri".



Bəli, dövlətimizin başçısı bu fikirləri əbəs yerə dilə gətirməyib. Qarabağdakı separatçı rejimin təmsilçilərinin ABŞ Konqresinə dəvət edilmələrini, qurumda "Dağlıq Qarabağın süqutu"na həsr olunmuş tədbirin düzənlənməsini, Birləşmiş Ştatların hökumət, parlament və vətəndaş cəmiyyəti institutlarının Qarabağdan köç etmiş ermənilərə dəstək xarakterli çoxsaylı təşəbbüslərini görmüşük. Üstəlik, ABŞ Beynəlxalq İnkişafa Yardım Agentliyinin – USAID-in rəhbəri Samanta Pauerin "ermənilərin Qarabağdan kütləvi köçü"nə dair bəyanatı və ümumən agentliyin Ermənistan təəssübü var. Sıraya ABŞ-nin aparıcı piar şirkətlərinin Azərbaycana qarşı beynəlxalq media kampaniyasına cəlb olunmasını da əlavə etmək mümkündür.

Konqresmen Adam Şiff və həmkarları tərəfindən irəli sürülmüş 2024-cü il üçün "Artsax gəlirlərinin bərpası aktı" isə ayrıca vurğulanmalı mövzudur. Sözügedən qanunvericilik təşəbbüsü ABŞ-dəki Azərbaycan aktivlərinin müsadirəsini və həmin vəsait hesabına Qarabağın erməni əhalisinə yardım göstərilməsini nəzərdə tuturdu. Aydındır ki, söhbət sadə ermənilərə köməkdən getmirdi. Məsələ Vaşinqtonun Bakıya təxminən belə bir şantajı üzərində idi: Sizin pulunuzla Ermənistanı silahlandırıb üstünüzə salarıq.

***

ABŞ-nin Azərbaycana qarşı ədalətsizliyinin tarixi "örnəyi" də var. "Azadlığa dəstək aktı"na məlum 907-ci düzəlişini nəzərdə tuturuq. Düşünün ki, Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədir, Şuşanın, Laçının işğalını həyata keçirir, ABŞ İrəvana deyil, Bakıya sanksiya tətbiq edir və uzun müddət bu sanksiyanı qüvvədə saxlayır. Nəticədə Azərbaycan Vaşinqtonun birbaşa yardımından məhrum olur. BMT-nin torpaqlarımızın işğalı ilə bağlı dörd qətnaməsi də Ağ evi tutduğu ermənipərəst mövqeyindən daşındırmır. Bu yerdə mövcud məqama Prezident İlham Əliyevin ətraflı izahını diqqətə çatdıraq: "Amerika 1992-ci ildə bizə qarşı sanksiya tətbiq etmişdir, o vaxt ki, torpaqlarımız əldən gedirdi. Sonra sanksiyalar 2001-ci ildə aradan qaldırıldı. Nə üçün? Çünki onların Əfqanıstandakı işğalçılıq fəaliyyəti başlamışdı, işğalçılıq müharibəsi başlamışdı və bizə ehtiyacları var idi. Nə qədər ki, onlar Əfqanıstanda qalmışdılar, hər il bu sanksiya Amerika Prezidenti tərəfindən qaldırılırdı. Onlar ki, Əfqanıstandan qaçdılar, – özü də bütün dünyanın gözü qarşısında, – bu sanksiyalar yenidən bizə qarşı tətbiq edildi. Bu nankorluğun dərəcəsi var, yoxsa yox?! Yəni, biz sizə lazım olanda sən bu sanksiyaları aradan qaldırırsan, biz sizə lazım olmayanda yenidən bərpa edirsən, nə üçün? Bax buna görə, bu binaya görə. Bunun kimi bütün bölgələrdə inşa etdiyimiz, bərpa etdiyimiz keçmiş köçkünlərimizin yaşayış yerlərinə görə. Bax, onların gözü bunu götürmür, bu günü götürmür. Bugünkü gün anti-Azərbaycan qüvvələr üçün yas günüdür, matəm günüdür".

***

Bəli, tam əminliklə demək mümkündür ki, ABŞ, konkret desək, Bayden Administrasiyası bütün bunlara görə Azərbaycan və Ermənistan arasında hansısa şəkildə vasitəçilik etmək şansını tamamilə itirib. Bir məqam da var ki, ümumən, Bakı–İrəvan münasibətlərinin nizamlanmasında vasitəçilik institutu tarixin arxivindədir. Hazırda ikitərəfli danışıqlar prioritet təşkil etməkdədir. Azərbaycan bunu əsas götürür, Ermənistan isə sülh gündəmi ilə manipulyasiyanı. Ölkənin XİN-nin Blinkenin görüş təklifinə müsbət yanaşan açıqlaması da məhz manipulyativ yanaşmadan qaynaqlanır.

Sonda bir məqamı da vurğulayaq ki, Bayden Administrasiyasının ömrünə az qalıb. Birləşmiş Ştatlarda ötən ay keçirilmiş prezident seçkilərində Donald Tramp qalib gəlib və o, gələn ilin yanvarın 20-dən səlahiyyətlərinin icrasına başlayacaq. Belə görünür, hazırda hakimiyyətdə olan Bayden Administrasiyasının bütün işi-gücü Trampın prezidentliyi üçün problemlər miras qoymaqdır. Yəni, ortada şizofren yanaşma var. Rusiya–Ukrayna müharibəsinin daha fərqli, tam gərgin fazaya daxil olması, Yaxın Şərqdə yaşananlar fikrimizin təsdiqidir. Həm bunu, həm də vurğuladığımız ayrı-ayrı məqamları ümumiləşdirərək, belə qənaətə gəlmək mümkündür ki, Blinken Azərbaycan və Ermənistan arasında danışıqların keçirməsinə nail olmaqla, dağıdıcı ritorikanı Cənubi Qafqaz müstəvisinə çıxarmaq yolunda addım atmaq istəyib. Deməli, bu istəyinə çata bilməyib.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Müstəmləkəçilik sivil dünyaya ləkədir

## *Fransa bu həqiqəti qəbul etmək istəmir*

**Afrika qitəsinin tarixi yerli xalqların həyatını kökündən dəyişdirən və gələcək inkişaf kursunu əvvəlcədən müəyyən edən kataklizmlər və dönüş nöqtələri ilə doludur. Afrikaya soxulan avropalılar "qara qitə"nin gününü qaraya döndərdilər, materikin sakinlərinə misilsiz fəlakətlər gətirdilər. Əvvəlcə qullar Avropaya aparıldı, 16-cı əsrdən etibarən isə okeanın o tayına daşımağa başladılar. Afrika sakinlərinin əsarət altına alınması və onlarla ticarət edilməsi dörd əsrdən çox davam etdi və dördəsrlik utancın ağırlığını Fransa kimi ölkələr hələ də çiyinlərində daşıyırlar. Paris keçmişilə hesablaşmaq əvəzinə ədalətli dünya uğrunda savaşan Azərbaycana qarşı əsassız ittihamlar irəli sürür. Amma əlahəzrət fakt Fransanın doğru yolda olmadağını göstərir.**




Fransada "Viginum" adlanan Xarici rəqəmsal müdaxilədən müdafiə agentliyi var. Bu agentliyə istinadən bəzi yerli mətbuat orqanları yazırlar ki, guya, Azərbaycan sosial şəbəkələrdə Fransanın müstəmləkələrindəki əhali arasında imicini korlamağa çalışır. Bütün bu ittihamlar, əlbəttə ki, əsassızdır. Fransanın onsuz da müstəmləkə ölkələrində nüfuzu aşağıdır. Axı dörd əsr müstəmləkə ölkələrinə qarşı amansız siyasət yürüdən məhz Parisdir. Beşinci Respublikanın qaradərililəri və ərəbəsilli insanları işgəncələrə məruz qoyduğu qaranlıq keçmişi var. Sanki 17-ci əsrin ortalarında istər Afrikada, istərsə də yeni kəşf edilən Amerika qitəsində sürətlə əraziləri ələ keçirən və işğal etdikləri yerlərin təbii sərvətlərini amansız istismar edən Fransa olmayıb. Trans-Atlantik və Trans-Hind Okeanı qul ticarətində iştirak, Şimali Amerika koloniyalarının pambıq plantasiyalarında və Karib dənizi adalarındakı şəkər qamışı plantasiyalarında afrikalı qulların istismarından əldə edilən gəlir başda Fransa olmaqla "qoca qitə"də kapitalın ilkin toplanmasına şərait yaratdı. Məhz qul əməyindən istifadə Avropada manufakturaları genişləndirməyə və onları iri sənaye müəssisələrinə - zavod və fabriklərə çevirməyə imkan verdi.

Faktlar təsdiqləyir ki, Avropa ölkələrinin Afrikanı dörd əsrdən çox amansız istismar etmələri nəinki böyük əzablara və milyonlarla afrikalının ölümünə səbəb oldu, həm də "qara qitə"nin digər qitələrlə müqayisədə geridə qalmasına və kütləvi yoxsulluğun cənginə düşməsinə gətirib çıxardı. Xüsusilə qeyd etmək lazımdır ki, Qərbin müstəmləkəçilik siyasəti Avropa təhsil mühitində formalaşan müvafiq ideoloji əsaslandırma tələb edirdi. Demək lazımdır ki, Böyük Fransa İnqilabının "Azadlıq, bərabərlik, qardaşlıq" şüarı sırf Qərb sivilizasiyası ərazisi ilə məhdudlaşdı. Ona görə də, Avropada maarifçilikdən sonrakı əsr müstəmləkə əsrinə çevrildi. Təsadüfi deyil ki, Avropa gücləri Afrikadakı müstəmləkəçiliyi afrikalıları "sivilləşdirmək" və "xristianlaşdırmaq" öhdəliyi ilə əsaslandırırdılar. Afrikalıların Avropa xalqları ilə müqayisədə "zehni geriliyi" ilə bağlı absurd fikirlər irəli sürülürdü və hətta bu biabırçı mülahizələri elmi cəhətdən əsaslandırmağa çalışırdılar. Bununla belə, həm "sivilizasiya missiyası"nın özü, həm də Fransanın Afrikadakı siyasəti tamamilə irqçi idi və müstəmləkəçilik dövlət tərəfindən təsdiqlənmiş zorakılıq aktı idi. Buna görə də, təəccüblü deyil ki, fransızlar ərəbləri və afrikalıları "barbar" hesab etməklə yanaşı, demokratiya ilə müstəmləkəçiliyin uyğunluğunu da məqbul sayırdılar.

Qərbin müstəmləkə ekspansiyası təkcə insan ticarətini çiçəkləndirmədi, o həm də mədəni sərvətlərin talan edilməsi ilə müşayiət olundu. Bu utancverici prosesdə ən çox əziyyət çəkən də Afrika oldu: Ən qiymətli eksponatların çoxu və ya Afrika sənətinin təxminən 80-90 faizi oğurlandı və qitədən kənara aparıldı. Təsadüfi deyil ki, Afrikanın 30 ölkəsinin tarixi-mədəni irsinə aid obyektlər Fransa muzeylərini bəzəyir. İndi bu ölkələr oğurlanmış mədəni irslərini geri qaytarmağa çalışsalar da, uğur qazana bilmirlər. Uğursuzluğun əsas səbəbi də budur ki, Fransa kimi Avropanın digər ölkələrinin səyləri sayəsində mədəni dəyərlərin statusunu tənzimləyən müasir beynəlxalq hüquqi baza bunun üçün qanunvericilik şəraiti yaratmır. Bu reallığı şərh edən beynəlxalq ekspertlər bildirirlər ki, mədəni dəyərlərin dövriyyəsini tənzimləyən beynəlxalq hüquq normaları qərblilərin təbliğ etdiyi "qaydalara əsaslanan nizam"ın açıq neokolonial xarakter daşıdığının əyani sübutudur. Məsələn, Luvr və Fransanın digər muzeylərinin bütün eksponatları İrs Kodeksinin normalarına uyğun olaraq, artefaktların ayrılmazlığı prinsiplərinə tabedir və bu qərara əsasən də Paris Afrika ölkələrinə mədəni dəyərlərini qaytarmaqdan imtina edir.

Fransanın müstəmləkə siyasətinin acı nəticələri bunlarla yekunlaşmır. 1848-ci ildə Fransanın xaricdəki müstəmləkələrində köləliyin ləğvi ilə 200 mindən çox qul vətəndaşa çevrildi. Ancaq onların yalnız nömrələri və ləqəbləri var idi. Azadlıq əldə etsələr də, soyadlarını seçmək hüququna malik deyildilər. Onlara adı və soyadı dövlət verirdi. Tezliklə bəzi soyadların alçaldıcı və absurd olduğu ortaya çıxdı. Yalnız 2001-ci idə Fransa parlamenti "qulların övladlarına" müstəqil şəkildə ad və soyad seçmək hüququnu tanıyan qanun layihəsini qəbul etdi. Maraqlıdır ki, bu təşəbbüsün müəllifi də Fransız Qvianasından olan deputat Kristian Tubira idi.

Fransa hökuməti utancverici keçmişinə müsbət çalarlar əlavə edəcək addımlar da atmır. İncitdiyi, alçaltdığı, keçmişlərini, gələcəklərini, tarixlərini oğurladığı müstəmləkə xalqlarının acısını azaltmağa, bugünkü bərabərsizlik və ayrı-seçkilik təcrübələrindən qaynaqlanan davamlı kollektiv travmanı sağaltmağa və qulların nəsillərində qurban kompleksini ortadan qaldırmağa tələsmir. Qulların nəsillərinin hüquqları uğrunda mübarizə aparan "23 may 1998-ci il Komitəsi" Assosiasiyasının fəalları Fransa hakimiyyətindən Tuilri bağında köləlik qurbanları üçün xatirə abidəsi ucaltmağı tələb etsələr də, Paris ancaq vəd verməklə kifayətlənir. 2018-ci ilin aprelində Fransa prezidenti Emmanuel Makron köləlik qurbanlarının xatirəsinə Milli Memorialın açılacağını vəd etsə də, layihə həyata keçirilmədi. Bu iş təxirə salınır, gələn ildə də layihənin baş tutacağına inam azdır. Çünki Fransada güclənən ksenafobiya, irqçilik belə düşünməyə əsas verir.

Bütün bunların fonunda Fransa keçmiş və indiki günahları ilə hesablaşmaq əvəzinə kənarda günahkarlar axtarır. Amma tarixi ədalət hər zaman qalib gəlir. Fransanın zorla nəzarətində saxlamağa çalışdığı ərazilərdə azadlıq məşəlinin alovlanacağı gün də uzaqda deyil. Çünki müasir dünyada müstəmləkəçiliyə yer yoxdur və Paris bu həqiqəti qəbul etməlidir.

***S.ELAY***
***XQ***

# Gəncədə Ulu öndər yad edilib

**Bitki Mühafizə və Texniki Bitkilər ETİ-də Ümummilli lider, müasir dövlətimizin qurucusu Heydər Əliyevin anım günü ilə bağlı mərasim keçirilib.**

Çıxış edən natiqlər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi birinci dövrü və möhtəşəm qayıdışdan sonrakı illərə nəzər salıblar, Ulu öndərin tarixi xidmətlərini yad ediblər. Qeyd olunub ki, Heydər Əliyev dünya şöhrətli dahi şəxsiyyətdir, ölkəmizin müasir tarixinin 55 ili onun adı və əməlləri ilə bağlıdır. O, ölkəsi üçün ağır anlarda xalqının yanında olub. Ümummilli lider 1990- cı ildə ermənipərəst sovet rəhbərliyinin törətdiyi 20 Yanvar faciəsi zamanı Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib və xalqımızın başına gətirilən fəlakətlər barədə dünyaya səs salıb. Ulu öndər bu qırğının səbəbkarı kimi M. Qorbaçovu, sovet rəhbərliyini qınayıb. Xocalı faciəsi zamanı da dünya Ulu öndərin gur səsini eşidib.

1993- cü ildə ölkə vətəndaş müharibəsi ərəfəsində olanda xalqının hayına yenə də Heydər Əliyev çatıb. Məsuliyyətsiz siyasətçilər vəzifələrini donduranda Heydər Əliyev xalqın böyük dəstəyi ilə yaranmış ağır vəziyyətdən çıxış yolları axtarıb. Xalq – Heydər Əliyev birliyi ptoblemlərin çözülməsi, "Əsrin müqaviləsi"nin bağlanması, ölkənin ayaqüstə durması ilə nəticələnib.



Anım mərasiminin sonunda bildirilib ki, artıq Ulu öndərin ruhu şaddır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ata vəsiyyətinə əməl edərək, 30 ildən çox erməni işğalında qalan torpaqlarımızı düşməndən azad edib, Azərbaycanın suverenliyi tam təmin edilib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
**Gəncə**

# Erməni mifləri Azərbaycan həqiqətlərinə çırpılıb çiliklənir

**(əvvəli 1-ci səhifədə)**

Ərz etdiyimiz hay reallığının təsdiqi kimi, bir neçə gün bundan əvvəl keçmiş deputatın, indi isə siyasi analitikə çevrilən Armen Abovyanın açıqlamasını göstərmək olar. O, ilk növbədə, Ermənistanda iqtidarda olan "neoliberal qrup"un reytinqinin sürətlə aşağı düşməsini qeyd edib. Üç il bundan əvvəl efirdə baş nazirləri dəli adlandıran Abovyanın fikrincə Nikol Paşinyan vaxtilə Hayastanı "ən güclü siyasi dövlətlərin zirvəsinə çıxaracağına, onun təhlükəsizlik arxitekturasını və sosial bərabərliyini dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə qaldıracağına" söz vermişdi. Bunun ardınca, o, "Artsaxın müvəqqəti işğalı və demarkasiya və delimitasiyası adı altında Ermənistanın strateji bölgələrinin düşmənə təslim olunduğunu, Türkiyə və Azərbaycan tərəfindən gündəlik müharibə təhlükəsinin mövcudluğunu" elan edib.



Şübhəsiz ki, bu və ya digər formatda deyə bilərik ki, təkcə Abovyanın deyil, digər separatçı-daşnakların səsləndirdiyi belə ritorik fikirlər Ermənistan ictimaiyyətinə deyil, xarici auditoriyaya hesablanıb. Hay ekspertlərin belə siyasi "analizləri" dayanacağı çoxdan arxada qoymuş qatarın dalınca vay-şivən qoparmaqdan başqa bir şey deyil. Bu məqamda, sadəcə olaraq, onların diqqətinə Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il noyabrın 10-da bütün dünyaya yayılan Azərbaycan xalqına müraciətində dediklərindən bir sitat gətirəcəyik: "Paşinyanı dəfələrlə odla oynamamağa, xalqımızın səbri ilə oynamamağa çağırdıq. Ona aid olmayan torpaqları tərk etməyə, haqq yolunu tutmağa dəvət etdik. Qonşularımız isə bunları dinləməyərək, beynəlxalq hüququn bütün normalarını pozaraq, Azərbaycan ərazilərində qanunsuz məskunlaşma həyata keçirərək, bizi daha çox incitmək üçün xaricdən Şuşaya erməniləri gətirdilər. Amma biz işğalçıları torpaqlarımızdan qovduq, it kimi qovduq. Hamı bizim gücümüzü gördü, Dəmir yumruğ"umuzun gücünü anladı".

Prezident, Ali Baş komandan İlham Əliyevin dörd ildən bir qədər əvvəl dediklərini bir daha diqqətlə dinləməsinin Ermənistan cəmiyyətinin müxtəlif təbəqələri üçün faydalı olacağına əminik. Bu sözləri Abovyanın "analitik sayıqlamalarına" əlavə olaraq, onun təlimatlarını rəhbər tutduğu xarici dairələrin də eşitməsi vacibdir. Azərbaycan rəhbərinin xalqına müraciətində lakonik şəkildə söylədiklərində Cənubi Qafqazda kimin nəyi işğal etdiyi və bunun bədəlini necə ödədiyi aydın və konkret şəkildə sıralanıb. "Siyasi ekspert" Armen Abovyanın yuxarıda diqqətinizə verdiyimiz mülahizələrində növbəti "kəşfinə" gəlincə, burada da tarixin acı dərslərindən ibrət götürmək istəməyənlər üçün şüuraltı maarifləndirmə seanslarının aparılmasının vacibliyini xatırlatmağın yeri var.

* * *

İndi isə Azərbaycan Prezidentinin 2024-cü ilin əvvəllərində dedikərinə istinad edək: "Biz həm 2021-ci ilin mayında, həm də 2022-ci ilin sentyabrında öz mövqelərimizdən bir addım da uzaqlaşmadıq. Çünki bir sərhəd yaradılmalı idi. İndi Ermənistanın mübahisə etdiyi dislokasiya yerimiz heç bir yaşayış məntəqəsinin əhatə etmir".

Bəli, biz sərhədlərimizin təhlükəsizliyinə zəmanət verən yüksəklikləri tərk etməyəcəyik. Bu, heç kəsdə sual və ya şübhə doğura bilməz. Çünki, öz torpağımızdayıq. Qərbin bəzi ermənipərəst dairələrinin "Türkiyə–Azərbaycan tandemi fonunda müharibə təhdidləri və Ermənistan ərazilərinin işğalı" barədə avantürist çıxışları yalnız auditoriyaya hesablanmış dezinformasiyadır. İkinci Qarabağ müharibəsinin gedişində, 2020-ci ilin oktyabrında Prezident İlham Əliyev açıq mətnlə bildirmişdi: "İyul ayında biz asanlıqla Ermənistan ərazisinə keçərək, oradakı torpaqları zəbt edə bilərdik. Heç kim bizə müqavimət göstərə bilməzdi. Amma biz bunu etmədik. Çünki mən icazə vermədim. Biz Ermənistanın beynəlxalq səviyyədə tanınmış ərazisinə girməyəcəyik".

Bakı dəfələrlə bəyan edib ki, biz müharibə yox, sülh istəyirik. Amma ədalətli sülh! Zəfər çaldığımız 44 günlük müharibədən sonra Azərbaycanın irəli sürdüyü şərtlər mövcud reallığa söykənir, beynəlxalq hüquqa əsaslanır. İki ölkə arasında sülh müqaviləsi məz bu şərtlər əsasında imzalanmalıdır. Sülhə və əməkdaşlığa dəvət etdiyimiz Ermənistan isə min cür siyasi hoqqabazlığa əl ataraq, bundan boyun qaçırmağa çalışır.

Hesab edirik ki, Abovyan və onun kimilərinin, sadəcə olaraq, sakit, ayıq başla dövlət başçımızın onlara və dünyaya ünvanladığı mesajları diqqətlə öyrənmələri məqsədəuyğun olardı. Müxtəlif beynəlxalq forumlarda, ən yüksək tribunalardan səsləndirilən həmin xəbərdarlıq mesajlarını ermənilərin Azərbaycana qarşı yeni təxribatlara sövq etməyə çalışan xarici qüvvələrin başbilənlərinin eşitmələri vacibdir. Çünki, dünyanın bir çox nüfuzlu siyasətçilərinin də etiraf etdikləri kimi, İlham Əliyevin sözü və əməli həmişə düz mütənasib olur.

* * *

Yazımızın sonunda bir məqamı da oxucuların diqqətinə çatdırmaq istərdik. Hazırda Ermənistan hakimiyyəti daxili siyasi böhranla çarpışmaqdadır. Qərb və Rusiya arasında ikiüzlü manevrlər limiti tükənmiş Nikol Paşinyanın artıq xarici tərəfdaşlarından əvvəlki dəstəyi ala bilməməsi göz qabağındadır. Daxildə "birləşmiş müxalifətin", kilsənin və "beşinci kolon"un məqsədi hakimiyyətlə xalq arasında uçurumu daha da dərinləşdirməkdir. Bu zaman baş nazirin istefaya məcbur etdiyi sabiqlərdən bəziləri səslərini ucaltmağa başlayıblar.

Erməni mediasında, eləcə də sosial şəbəkələrdə yayılan məlumatlara görə, Nikol Paşinyan "birləşmiş müxalifət" düşərgəsində yeni həbsləri həyata keçirməyə hazırlaşır. Xəbərlərdə rəsmi İrəvanın gözlənilən kütləvi etiraz aksiyaların qarşısını qətiyyətlə almaqdan ötrü məxfi plan hazırladığı da qeyd olunur. Bu "operativ əməliyyat planı"na müxalifətin radikal fəallarına qarşı müxtəlif xarakterli təzyiqlərdən tutmuş, bəzi liderlərin aksiya keçiriləcək meydan və küçələrə çatmadan həbsinə qədər hərəkətlər daxildir. Artıq güc strukturlarının ələhiddə qüvvələrinin, hakimiyyətin nəzarətində olan xüsusi polis dəstələrinin "təlimlərə" başladıları barədə xəbərlər yayılmaqdadır. Müxalifət isə qarşıdakı mitinqlərə daha çox kütlə cəlb etmək üçün Abovyan kimi ekspertlərin xidmətlərindən yararlanır.



Beləliklə, Armen Abovyan və erməni siyasi ekspertlər icmasının digər nümayəndələri həmvətənlərinin beynini zərərli ideoloji trafaretlərlə dumanlandırmaqdansa, onlara yaxın tarixin dərslərini xatırlatsınlar, hakimiyyətdən ölkə konstitusiyasına dəyişikliyi tələb etməyə çağırsınlar.

Hələ ki, beyinə cərrahi müdaxilə ilə "aorta koronar şuntlama" əməliyyatı aparmağın yolunu icad eləyən olmayıb. Ölmüş hüceyrələri "diriləcək", yaddaşı bərpa edəcək, gözü, qulağı gücləndirməklə beynin dərketmə və anlama funksiyalarını sağlamlaşdıracaq o gələcəkdə həyata keçiriləcək əməliyyatın hayları çoxəsrlik mərəzdən xilas edəcəyini, dalandan hamar yola çıxaracağını indidən deməyə çətinlik çəkirik. Çünki onlar "ali irq" kimi burada da istisnalıq təşkil edə bilərlər...

***İmran BƏDİRXANLI***
***XQ***

**Replika**

# Paşinyanın "erməni hamiləliyi" ritorikası

**(əvvəli 1-ci səhifədə)**

Paşinyan "Dağlıq Qarabağ respublikası" adlı "dövlətin" olmadığını bir daha təkrarlayıb. Deyib ki, bu "respublika" özünü müstəqil adlandırsa da, onu heç kəs tanımadı: "Bizə dost və dost olmayan ölkələr də bu haqda danışırlar. Lakin heç biri tanımayıb. Üstəlik, (bizi – red.) satqınlıqda ittiham edirlər. Mən deputat olanda dedim ki, Qarabağ müstəqil dövlət deyil, Qarabağ Azərbaycandır. Dedilər xeyr, Qarabağ Azərbaycan deyil. Dedim ki, Qarabağ Ermənistandır, dedilər xeyr, Ermənistan da deyil. Yaxşı, Qarabağ Azərbaycan deyil, Ermənistan deyil, müstəqil deyil, bəs onda nədir? Hər kəs 9 ay hamilə qala bilər. Amma 9 aydan sonra nəsə baş verməlidir: ya uşaq doğulmalıdır, ya da doğulmasa, daşıyıcının ölümünə səbəb olacaq, yaxud qeysəriyyə ilə doğulacaq. Yəni, nəsə olmalıdır. Hamiləliyi daha 9 ay uzatmaq absurd yanaşmadır", – deyən Nikol əlavə edib ki, rəhbəri olduğu hakim komanda Qarabağ məsələsini daha 9 ay uzatmaq məntiqi ilə hərəkət etsəydi, yanlışlığa yol verərdi: "Mən bizim siyasətimizin doğru, yaxud yanlış olduğunu demirəm. Onu deyirəm ki, yeganə variant bu idi və bu, bizə dövlətimizi qorumaq şansı verir".

Göründüyü kimi, Qarabağ erməni milli identikliyi adlandırılan xəstəliyin mühüm pataloji xüsusiyyəti olmaqdan çıxmır. Ancaq demək olmaz ki, Paşinyan buna qarşı mübarizə aparır. Əvvəldə də bildirdiyimiz kimi, onun işi-gücü yalnız özünü təmizə çıxarmaqdır və hazırda səsləndirdikləri ötən müddətdə dəfələrlə dilə gətirib, konkret olaraq, sabiq hakimiyyətin əsas fiqurları sayılan Serj Sarkisyana və Robert Koçaryana ittihamlar yağdırıb. Nikolun dediklərindən belə çıxıb ki, Qarabağın itirilməsinin baiskarları bu iki şəxsdir. Çünki onlar nəinki Ermənistanın dövlət büdcəsini talayıblar, eyni zamanda, həmin büdcədən bölgəyə ayrılmış maliyyə vəsaitinin də arxasına keçiblər. Bəzən isə Paşinyanın dediklərindən belə çıxır ki, əgər onun rəhbərlik etdiyi komanda illər əvvəl hakimiyyətdə olsaydı, Qarabağ əldən getməzdi.

Paşinyanın, belə demək mümkünsə, hamiləlik ritorikasına diqqət yetirəndə düşünmək olar ki, o, "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verərkən, "uşağı doğuzdurmaq" niyyəti güdmüşdü. Əlbəttə, erməni avantürizminin bətnindəki "uşağın" ölü olduğunun fərqinə varmaq istəməmişdi. Ən əsası isə o, obrazlı desək, "ölü uşağın valədüznalığını" qəbul etməmişdi. Halbuki, vaxtilə Qarabağı Ermənistanın üzərindən asılmış ağır daş kimi təsvir edən və bu daşın atılmasının vacibliyindən söz açan Nikolun özü olmuşdu. Bu mənada erməni baş nazirin haqlı saymaq mümkündür. Çünki, o, hələ deputat olarkən, Qarabağın Ermənistana deyil, Azərbaycana məxsusluğunu açıq şəkildə bildirmişdi...

Yaxşı, tutaq ki, "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı Paşinyanın səhvi idi. Bəs, 2020-ci ilin 44 günlük müharibəsindən sonrakı müddəti kimin ayağına yazaq? Məgər Ermənistan hakimiyyəti deyildimi Qarabağdakı separatçı rejimin mövcudluğunu qoruyan? Bəlkə Nikol 2020–2023-cü illərdə bölgəyə silah-sursatın Ermənistan ərazisindən daşındığını danacaq? Ondan hər şey çıxar, ancaq ələhəzrət fakt var. Bəlkə Qarabağın erməni əhalisi üçün beynəlxalq təminat məsələsini qondarıb onu xaricdəki ermənipərəstlər üçün başlıca təzisə çevirən rəsmi İrəvan deyildi? Əlbəttə, bunu edən Paşinyan və komandasının üzvləri idilər. Görəsən, nə üçün Nikol və tərəfdarları rəsmi Bakının Qarabağın erməni əhalisinin Azərbaycana inteqrasiyası məntiqindən uzaq dayandılar? Olmazdımı ki, həmin əhali bölgəni tərk etməsin?

Yəqin ki, olmazmış. Çünki rəsmi İrəvan Qarabağ erməniləri ilə bağlı məsələni beynəlxalq müstəviyə çıxarmaqla, onu anti-Azərbaycan təbliğatın başlıca elementinə çevirdi. Əgər Qarabağ adlı hər şeydən imtina Paşinyan üçün prioritet əhəmiyyət daşıyırdısa, deməli, bölgə ilə bağlı saxta sentimentallığa getməyə ehtiyac duyulmurdu. Ancaq Nikol və komandası əməli ilə Qarabağ nisgilini formalaşdırdı. İndi onun nə deməsindən asılı olmayaraq, bu



nisgil üzərindən illər keçdikdən sonra erməni avantürizmi üçün qığılcım mahiyyəti daşımaqdadır.

Bu gün də erməni iqtidarı Qarabağ avantürasından daşınmır. Baxın, rəsmi İrəvan beynəlxalq tribunalara Qarabağın "erməni mədəni mirası" cəfəngiyyatını çıxarmaqdadır. Nikol deyir ki, Ermənistan "Məzlum erməni" düsturundan yaxasını qurtarmalıdır, ancaq görürük ki, ölkənin Xarici İşlər Naziriyi "Qarabağda etnik təmizləmə" şousu düzəldir, çalışır ki, bu məsələ ilə bağlı dünyada Azərbaycan əleyhinə antipatiya formalaşdırsın, ölkəmizi təcavüzkar kimi qiymətləndirsin. Tam aydındır ki, bu qiymətləndirmənin "Azərbaycan Qarabağı işğal edib" kimi sərsəm qavrayış formaları var. Yəni, Paşinyan bunu bilmir? Bilmirmi ki, etdikləri beynəlxalq ictimai rəyi çaşdırmaq, haqqında ağızdolusu danışdığı beynəlxalq hüquqla manipulyasiya cəhdidir? Hər şeyi çox gözəl anlayır. Sadəcə, erməni varlığı üçün beynəlxalq hüquq anlayışı haqq və ədalət üçün vasitə yox, avantürizm alətidir.

Bəli, Ermənistan bu gün imperialist dairələrin onun bətninə yeritdiyi bicliyi aradan qaldırmağı bacarmayacaq şəkildə pozğun durumdadır. Paşinyan, özündən əvvəlkilərdən fərqli olaraq, pozğunluğunu Qərbin maraq və mənafelərinin təminatı üçün yeridir. Mövcud labirintdə Azərbaycanla ədavət məsələsi var. Nikol əyan etmək istəyir ki, sanki Qarabağ bu ədavətin predmeti deyil. Ancaq, o, məsələyə kompleks yanaşmır. Əgər kompleks yanaşsaydı və barəsində durmadan danışdığı "Real Ermənistan"la bağlı düşünmək istəsəydi, Azərbaycanın irəli sürdüyü tələbləri yerinə yetirər, referendum keçirib ölkə konstitusiyasını İstiqlaliyyət bəyannaməsi adlanan cəfəng mahiyyətli sənədin siyasi və ideoloji inhisarından qurtarardı. Ümumən, Azərbaycana və qonşu ölkələrə hansısa formada ərazi iddiası üzərinə köklənmiş kağız parçalarını söküb atardı.

Habelə, indiki məqamda Paşinyanın Azərbaycanla sülh məsələsinə son dərəcə həssas və səmimi münasibət sərgiləməsi də şərtdir. Amma görürük ki, məsələ prioritetlik amplitudasından çıxır. Nikol, necə deyərlər "sağ əli ilə sol qulağını qaşımağa" başlayır. Ermənistanın Avropa İttifaqına qoşulması ilə bağlı təşəbbüs qaldırır, bu məqsədlə referendum keçirilməsi məsələsini aktuallaşdırır. Görəsən, Avropada Ermənistanın yolunu gözləyən varmı? Ac-yalavac ermənilərin qitəyə doluşması kimə lazımdır? Əslə lazım deyil. Çünki erməni varlığı hələ lazımlılıq dərəcəsini müəyyənləşdirə bilməyib. Paşinyan, ilk növbədə, həmin varlığa özünə hörmət qoymağı aşılamalıdır. Nə vaxtadək bir toplum xarici qüvvələrin ətəyindən yapışan durumda olmalıdır? Onun öz mənliyi və şüuru yoxdurmu?

***Ə.RÜSTƏMOV***
***XQ***

# Keşiş Baqrat "qış yuxusu"ndan imtina etdi

## *O, yenidən pozuculuq fəaliyyətinə başladı*




**Son ay yarım ərzində Ermənistanda baş verən bir sıra hadisələr, o cümlədən, parlamentdə istintaq komitəsinin rəhbəri Argişti Karamyanla hakim "Mülki müqavilə" partiyasını təmsil edən deputat Ovik Aqazaryan və Narek Zeynalyan arasında yaşanan qarşıdurma, onların az qala əlbəyaxa dava etməsi Hayastanda daxili siyasi gündəmin əsas məsələləri olaraq qalmaqdadır.**

Yada salaq ki, baş nazir N.Paşinyan yaranmış böhrandan çıxış yolunu onların hər ikisi ilə yollarını ayırmaqda gördü. Karamyan bəzi vəzifəli şəxslərlə birlikdə noyabrın 18-də istefa verdi. N.Zeynalyan da baş nazirin hakim fraksiyanı tərk etməklə bağlı tapşırığını dərhal yerinə yetirdi. "Üsyankar deputat" O.Aqazaryan isə baş nazirin istefaya getmək "xahişini" rədd etdi. O, son günlərə qədər müqavimət göstərməyə davam edirdi. Nəhayət, dekabrın 4-də hakim partiyanın idarə heyəti yığışaraq O.Aqazaryanı sıralarından xaric etdi. Bununla bağlı yayılan məlumatda bildirildi ki, O.Aqazaryan idarə heyətinin qərarı ilə dövlət və partiya əhəmiyyətli məxfi məlumatları sızdırdığına, habelə etik normaları kobud şəkildə pozduğuna görə "Mülki müqavilə"dən çıxarılıb.

Yaşanan bütün bu qalmaqallar iqtidarın nüfuzuna ciddi zərbə vurdu. Nəzərə almaq lazımdır ki, Ermənistanda 2026-cı ildə növbəti parlament seçkiləri keçiriləcək. Əgər seçkilərin keçirilmə vaxtına hər hansı dəyişiklik edilməzsə, o zaman 2026-cı il iyunun 20-də növbəti parlament seçkiləri baş tutmalıdır. Beləliklə, aydın olur ki, növbəti seçkilərə, təxminən, il yarım vaxt qalıb. Belə bir vəziyyətdə hakim komanda daxilində qalmaqalın yaşanması, iqtidarı təmsil edən şəxslərin qanunverici orqanda az qala əlbəyaxa olması heç bir iqtidar, o cümlədən, daxili və xarici siyasətdə yol verdiyi səhvlər üzündən uğursuzluğa düçar olan Paşinyan hakimiyyəti üçün arzuolunmazdır. İnsident, eyni zamanda, iqtidara müxalif olan qüvvələrin daha da aktivləşməsində mühüm rol oynadı. Müxalifət nümayəndələri son günlərdə verdikləri müsahibələrdə, sosial şəbəkə hesablarında etdikləri paylaşımlarda bu məsələyə münasibət bildirirlər.

Məsələn, siyasətçi və ictimai xadim Narek Malyan deyir ki, O.Aqazaryanın "Mülki müqavilə" fraksiyasını tərk etməsinə rəğmən, deputat mandatını qoruyub saxlaması hörmətə layiqdir: "Mənim ona münasibətimin necə olmasından asılı olmayaraq, cənab Aqazaryan əməli təkrar olunmağa layiq fenomenə çevrilib. "Mülki müqavilə" fraksiyasını tərk edən hər bir deputatın hərəkəti, xüsusilə indiki mühüm mərhələdə müxalifətin verdiyi yüzlərlə müsahibədən daha vacibdir. Bu fikir pafosdan uzaqdır və istənilən real müxalifətçi üçün rasional yanaşmadır".

Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasına qarşı çıxan, bu ilin aprelində Qazax rayonunun işğal altındakı kəndlərindən dördünün ölkəmizə təhvil verilməsindən sonra "Vətən naminə Tavuş" adlı qondarma hərəkat yaradan, daha sonra onun adını "Müqəddəs mübarizə"yə dəyişən, sərhədyanı bölgədən piyada İrəvana yollanan erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan da sanki himə bənd imiş. O, bu günlərdə xüsusi canfəşanlıq edir. Etdiyi çıxışda bildirib ki, "Müqəddəs mübarizə" qalib sonluğa qədər davam edəcək. Baqrat N.Paşinyan iqtidarını "qeyri-qanuni idarəçilik" adlandırıb. Erməni xalqının bu gün "öz dövlətinə birbaşa təhlükə yaradan, xalqa yalan danışan bir hökumətə malik olduğunu" deyib: "İndi hər zamankından da aydındır ki, bu iqtidar bütün istiqamətlərdə – istər daxili, istərsə də xarici siyasət sahəsində Ermənistan dövlətçiliyinin məhv edilməsi istiqamətində məqsədyönlü siyasət aparır. Biz məhz belə bir dövrdə yaşayırıq. Bununla belə bu gün yaşayan və fəaliyyət göstərən biz mövcud reallığı və tarixin axarını dəyişmək gücünə malikik".

Arxiyepiskop hərəkatın tezliklə aktiv fəaliyyətə keçəcəyini və mübarizənin həlledici mərhələsinin başlayacağını bildirib. Qalstanyan, həmçinin Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi Edvard Asryana müraciət edərək onu açıq görüşə dəvət edib. Deyib ki, görüş zamanı Asryana sərhəddə baş verənlərlə bağlı ətraflı məlumat verəcək. O, vurğulayıb ki, baş qərargah rəisinin çağırışa cavab verməməsi, onu sadəcə olaraq, yalnız vəzifə və pulun maraqlandırdığı anlamına gələcək: "Biz inanırıq ki, zabit şərəfi anlayışı hələ tam ölməyib, reaksiya gözləyirik".

Özünü din xadimi adlandıran bu şəxs dekabrın 6-da isə İrəvandakı "Respublika" meydanında "İradə" təşəbbüsünün oturaq aksiyasında iştirak edib. Qeyd edək ki, bu təşəbbüs Qarabağdakı keçmiş separatçı rejimin həbs olunmuş və hazırda barələrində ədalət mühakiməsinin çıxaracağı hökmü gözləyən "qlavarları"nın qaytarılmasına nail olmaq (?) məqsədilə yaradılıb. Aksiyada çıxış edən keşiş Azərbaycanı düşmən adlandırıb. Deyib ki, "soydaşlarımızın hələ də düşmən həbsxanalarında olması sadəcə olaraq qəbuledilməzdir".

Bununla belə, N.Paşinyanın başçılıq etdiyi ölkədə yaşayanların hər birinin həbsdə olduğunu sözlərinə əlavə edib: "Bu gün hər birimiz cəzaçəkmə müəssisəsindəyik, həbsdəyik və bunun ən yaxşı təsdiqi telefon söhbətidir (Deputat O.Aqazaryanın telefonunun müsadirə olunmasını nəzərdə tutur–S.H.). Bu o deməkdir ki, həbsdə yaşayırıq. Buna görə də həbsxanadan çıxıb azadlığımıza qovuşmalıyıq. Məndən tez-tez soruşurlar ki, bütün bunlar necə və nə vaxt bitəcək? Sizi inandırıram ki, bu, bizim çox vaxtımızı aparmayacaq. Biz bu yolla gedirik və bu yolda məqsəd qələbəmiz olmalıdır. Paşinyan iqtidarının yenilməz olmasına dair əfsanəni unudun".

Ancaq B.Qalstanyanı ittiham edənlərin də sayı az deyil. Onlardan biri politoloq və ictimai xadim Stepan Danielyandır. O, Kanada vətəndaşlığı ilə bağlı "srbazan"a qarşı iddialar qaldırıb. Danielyan media mənsublarını və blogerləri "köməyə çağırıb" və arxiyepiskopa ictimai sual verib: "Hörmətli jurnalistlər, blogerlər, mən ictimaiyyəti həqiqətən də narahat edən bir sıra problemləri səsləndirməyə başlayıram. Beləliklə, Baqrat "srbazan"dan aşağıdakı sadə suala ilk aydın cavab alan jurnalist və ya bloger ictimaiyyət adından 50 min dram mükafat alacaq. Məbləğ az görünə bilər, çünki hazırda ictimaiyyətin imkanları buna çatır. Cənab Qalstanyan, mübarizənizin nəticəsinə inanırsınızsa, nə üçün Böyük Britaniya hakimiyyəti altında olan Kanada vətəndaşlığınızdan imtina etmirsiniz? Bu suala ona verəcək hər kəsə təşəkkür edirəm".

Göründüyü kimi, Qalstanyan özünü erməni xalqının "xilaskarı" kimi təqdim etməyə çalışsa da, əslində, siyasi oyunbazlıqla məşğuldur. Bu siyasi oyunbazlıq son nəticədə Ermənistanın 20 il hakimiyyətdə olmuş Qarabağ klanının yenidən iqtidara qaytarılmasına yönəlib. Heç də təsadüfi deyil ki, arxiyepiskop bir müddət öncə klanın iki əsas nümayəndəsi – sabiq prezidentlər Robert Koçaryan və Serj Sarkisyanla görüşmüşdür. Bu barədə məlumat yayan erməni teleqram kanalları keşişin sabiqlərlə hansı məsələləri müzakirə etdiyini açıqlamamışlar. Erməni mənbələri onu da yazırlar ki, Baqratın ölkənin birinci prezidenti Levon Ter-Petrosyanla görüşü həlelik alınmayıb. Bu faktın özü bir daha göstərir ki, keşişin siyasi oyunlarından Ter-Petosyan da xəbərdardır və ona "stavka" etmək niyyətində deyil. Eləcə də onun sabiqlərlə görüşlərinin üzərindən sirr pərdəsinin qalxmaması bir sıra şübhəli məqamların carçısıdır. Son parlament seçkilərində erməni xalqından birbaşa dəstək ala bilməyən Qarabağ klanının cildini dəyişərək, başqa ad altında hakimiyyətdə zühur etməsinə isə haylar çətin ki, imkan versinlər.

**Səxavət HƏMİD**
**XQ**

Replika

**Çağırılmamış üzlü qonaqdan can qurtarmaq ev yiyəsi üçün həmişə müşkülə çevrilir. Axı, qapısını döydüyü, hörmət-izzətlə qulluğunda durduğu, amma "qalma müddəti xeyli uzanmış" birisini urvatla yola salmaq, onunla mədəni şəkildə "sağollaşmaq" elə də asan məsələ deyil. Bəzən səbri tükənmiş ev sahibi vəziyyətdən çıxış yolu kimi qonağın yola salınması şərəfinə xüsusi mərasim təşkil edir.**

Amma qonaq rəsmi statusa, diplomatik ranqa malik olanda burada məsələ bir qədər qəlizləşir. Necə ki, Birləşmiş Ştatların Müdafiə naziri Lloyd Ostin erməni həmkarı Suren Papikyanın onunla israrlı görüşmək istəyini təntənəli vida mərasimi formatında yerinə yetirdi. Cari ildə Vaşinqtona etdiyi iki səfərində Papikyanı Pentaqonun şefi deyil, müavini qəbul etmişdi. Amma bu dəfə supergücün naziri amerikasayağı nəzakət və iltifat xatirinə, həm də digər səbəbdən ona bu şərəfi yaşatmaq qərarına gəldi. Bu zaman hay nazirin əlini sıxaraq, "sizin səfəriniz tarixi səfərdir. Ermənistan ABŞ-ya əl uzatdı və mən bu gün sizi burada qəbul etməkdən qürur duyuram" deməyi də unutmadı.

Gələk digər səbəbin üstünə. Pentaqonun qaradərili rəhbəri Lloyd nəzakətli insandır. Çox güman ki, təxminən, bir aydan sonra postunu tərk edəcəyinə görə, həm də diplomatik etiket naminə Papikyanı qəbul edib və onun səfərini "tarixi" epiteti ilə şərəfləndirib. Bu zaman qonaqpərvər ev sahibi kimi çıxış edən cənab Ostin ABŞ-nin Ermənistanın müstəqilliyini, suverenliyini və rifahını dəstəklədiyini vurğulamağı unutmayıb. Üstəlik, iki ölkə arasında əməkdaşlığın genişlənməkdə davam etməsindən məmnunluğunu da dilə gətirib.

İndi isə Ermənistan müdafiə nazirinin Vaşinqtona intensivləşən səfərlərinin arxasında gizlənən siyasi motivlərə toxunaq. Son iki ildə İrəvan–Vaşinqton hərbi-texniki əməkdaşlığının genişlənməsinə dəlalət edən bəzi fəaliyyətlər müşahidə olundu. Keçən il keçirilən birgə taktiki təlimlər bunun bariz nümunəsi sayıla bilər. Bu müddətdə ABŞ Ermənistana zirehli təcili yardım maşınları, kibertəhlükəsizlik əməliyyatları mərkəzi və milli təlim mərkəzi üçün istifadə olunan avadanlıq yardımı göstərib. ABŞ-nin Zəngəzur dəhlizi ərazisinə lokal hərbi kontingent və hərbi texnika yerləşdirməsi isə ikitərəfli hərbi-texniki əməkdaşlığın yeni fazaya adladığına dəlalət edir.

Kanzas Milli Qvardiyasının Ermənistana müdafiə islahatı gündəliyini hazırlamaqda yardımçı olacağını deyən general Ostin ABŞ-nin Cənubi Qafqaz regionunda sülh və sabitliyə dəstəyini "güclü təməl üzərində qurduğunu" vurğuladı. Buna cavab olaraq Papikyan Ermənistanın da bölgədə möhkəm və uzunmüddətli sülhə nail olmağa çalışdığını dedi. Amma bu zaman, o, təəssüf ki, regiona sülhün gəlməsi üçün Ermənistanın ən qısa müddətdə konstitusiyasına müvafiq düzəliş etməsinin zəruriliyini deməyi "unutdu". Deyəsən, İrəvanın Pentaqonla gələcək planlarının Rusiya və İran tərəfindən necə qarşılanacağı məsələsi də hay nazirin vecinə deyildi.

Ermənistana dumanlı perspektiv vəd edən vəziyyəti təsəvvürümüzə gətirməyə

# Bir pərdəlik vida tamaşası



çalışaq. Misal üçün, geosiyasi oriyentasiyanı kəskin dəyişməsinə görə Moskvanın İrəvana ilkin cəzası nə ola bilər? Birinci cəza erməni mühacirlərin, "sezonşiklərin" Rusiyadan qovulması. Ardınca Rusiyada fəaliyyət göstərən və ermənilərə məxsus şirkətlərin vergi yoxlamalarına cəlb olunması, Krasnodar və Stavropol diyarlarında onlara torpaq sahələrinə mülkiyyət hüququ verən sənədlərin təftiş edilməsi. Hətta bunlardan daha betər cəza növləri də döviyyəyə buraxıla bilər. Yəni, Rusiya ermənilərinin də həyatlarının "şən və maraqlı" məcraya yönəldilməsi istisna edilmir. Axı, Birləşmiş Ştatları idarə edənlər müdafiə nazirinin göründüyü kimi sadəlövh və ürəyiyumşaq deyil. Onlar praqmatikdirlər, sözə yox, əmələ inanırlar. Əgər Ağ ev İrəvandan "hərbi-texniki əməkdaşlığı daha da dərinləşdirməkdən" ötrü ərazisindəki Rusiyanın 102-ci hərbi bazanı çıxarmaq tələbini səsləndirsə nə baş verəcək? Bax o zaman "geri çəkilməyə yeri, enməyə ehtiyat aerodromu olmayan" Ermənistana Moskvanın cavabı çox sərt və gözlənilməz ola bilər.

Papikyanın Ostinlə bir pərdəlik vida mərasiminin doğurduğu assosiasiyaların ən maraqlısı isə heç də Moskva və Tehranın bu əməkdaşlığa reaksiyaları deyil. Paşinyan hakimiyyəti Donald Trampın andiçmə mərasiminə qədər ABŞ ilə hansısa razılaşma əldə etməyə can atır. Yəni, Ağ Evin yeni administrasiya ilə əllərində "danışmağa mövzuları" olsun. Bununla İrəvan "bulanıq sularda balıq tutmaq" təcrübəsini yeni sınaqdan keçirir və bu zaman səhv etməməyə çalışır.

Bəs, əgər Tramp Administrasiyası Cənubi Qafqaz regionunun hazırkı mərhələdə ABŞ-nin prioritetləri siyahısında olmadığını elan edərsə, onda Ermənistanın arzu və istəkləri necə olacaq? Hər halda, vəziyyət Trampın prezidentliyinin ilk aylarında aydınlaşacaq. O, iş adamıdır, sövdələşməyi yaxşı bacarır...

**İ.HƏSƏNQALA**
**XQ**

# Qərbi Azərbaycanda məhv edilmiş tarixi-mədəni irsimiz

**Azərbaycan Dillər Universitetində "Qərbi Azərbaycan: soyqırımına məruz qalan tarixi-mədəni irsimiz" mövzusunda müzakirə keçirilib.**



Xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Aynur Sabitova Qərbi Azərbaycanın xalqımızın tarixi yaddaşında və mədəniyyətində oynadığı əhəmiyyətli rolundansöz açaraq deyib: "Bu torpaqlar yalnız tarixi abidələrlə deyil, həm də xalqımızın mədəni kimliyi ilə bağlıdır. Ermənilər tərəfindən həyata keçirilən vandalizm aktları təkcə bu abidələrin məhv edilməsi deyil, həm də milli kimliyimizə qarşı yönəlmiş məqsədyönlü siyasətdir".

Bildirilib ki, Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq səviyyədə böyük nüfuz qazanıb və bu, Qərbi Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqda mühüm rol oynayır. Hər birimiz dövlətimizin həyata keçirdiyi siyasətə öz fəaliyyətimizlə dəstək verməliyik. Bu baxımdan QHT-lərin milli irsimizin qorunması istiqamətində fəaliyyəti çox əhəmiyyətlidir. QHT Agentliyinin dəstəyi ilə yaradılan elektron baza və "Danışır tarix" filmi, milli irsimizin təbliği və qorunmasına xidmət edir. Film "Səlim karvansarası", "Təpəbaşı məscidi" və "Əmir Səəd məqbərəsi" kimi abidələrdən bəhs edir.

**XQ**

# İğdır–Naxçıvan qaz kəməri hazırdır

**Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya muxtar respublikada Dünya Türk Qəhvəsi Günü münasibətilə keçirilən tədbirdə jurnalistlərə açıqlamasında İğdır–Naxçıvan Qaz Boru Xəttinin tikintisinin cədvələ uyğun olaraq vaxtında tamamlandığını və yaxın zamanda rəsmi açılışının planlaşdırıldığını deyib.**



O xatırladıb ki, 2023-cü il sentyabrın 25-də Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə İğdır–Naxçıvan Qaz Boru Xəttinin təməli qoyulub: "Bu ilin sentyabr–oktyabr aylarına qədər qaz kəmərinin tikintisinin tamamlanması nəzərdə tutulurdu və işlər gözlənildiyi vaxtda yekunlaşdı. Beləliklə, artıq Naxçıvana təbii qaz Türkiyə ərazisindən gələcək. Bu, muxtar respublikanın enerji təhlükəsizliyində böyük rol oynayacaq".

Baş konsul qeyd edib ki, yaxın vaxtlarda Türkiyənin önəmli banklarından biri olan "Ziraat Bankı" da Naxçıvanda fəaliyyətə başlayacaq. Artıq bank filialının lövhəsi yerləşdirilib. Gələn ilin yanvar ayında təmir işləri yekunlaşdıqdan sonra fəaliyyətə başlayacaq. Bu da qədim diyarda iqtisadi və ticari inkişaf baxımından önəmli addım olacaq.

Qeyd edək ki, İğdır–Naxçıvan Qaz Boru Xəttinin inşasına qərar 2020-ci il dekabrın 25-də Ankarada imzalanmış anlaşma memorandumu ilə verilib. İllik ötürmə gücü 730 milyon kubmetr olan bu boru kəməri Naxçıvanın qaz tələbatını tam ödəyəcək. Layihənin Azərbaycan hissəsinin tikintisini Azərbaycan Dövlət Neft Şirkəti, Türkiyə hissəsini isə BOTAŞ şirkəti həyata keçirirdilər.

İğdırdan Sədərək rayonuna qədər boru kəmərinin uzunluğu təxminən 100 kilometr təşkil edir. Azərbaycan hissəsinin uzunluğu 17 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdən çoxdur. Kəmərin Azərbaycan hissəsinin tikintisinə 2023-cü ilin iyul ayında başlanılıb.

Sədərək qazpaylayıcı stansiyası "Revers" tipində qurulub, yəni "mavi yanacağ"ı həm qəbul, həm də ixrac edə bilər. Burada da tamamlanma işləri yekunlaşmaq üzrədir və ilin sonuna qədər işlərin başa çatdırılması planlaşdırılır.

**XQ**

VI MƏQALƏ

**Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

# Liderin quruculuq kursu



## Böyük millət

"Millət" anlayışının fəlsəfədə və politologiyada müxtəlif tərifləri var. Burada onlara baş vurmağa ehtiyac görmürük. Lakin bu məqalədə millət XVIII əsrin ikinci yarısında meydana gələn "siyasi-vətəndaş milləti" anlayışı kontekstində götürülür. "Siyasi-vətəndaş milləti" özünün suveren dövlətində yaşayan və ümumi dil, mənşə, tarix, mədəniyyət ortaqlığına malik insanların birgəyaşayış formasını ifadə edir. Burada ortaq mədəniyyət, dil, dövlətçilik və tarix faktorunun ön sıraya çıxdığı aydın görünür. Müasir anlamda millət müstəqil və suveren dövlətə malik olmaqla sıx bağlı dərk edilir.

Deməli, müasir mərhələdə millət özünün müstəqil və suveren dövləti olan və müəyyən ortaq dəyərlərə malik çox sayda insanın birgəyaşam formasıdır. Bu, obrazlı desək, "norma"dır, millət olmağın adi səviyyəsidir. Onda "böyük millət" kimdir? Məntiqi olaraq, "böyük" termininin millətə tətbiqi kollektiv halda yaşayan insanların elə ortaq sosial, siyasi, mədəni, psixoloji, dünyaduyumu və s. dəyərlər yaratmasıdır ki, onların anlamı və funksiyası "adi normanı aşsın". Yəni böyük millət möhtəşəm uğurlar əldə edən toplumdur.

Böyük millət, millət normalarından yüksək birləşdirici və təsiredici gücə malik olmaqdır. Burada sosial, siyasi, dövlət, dil, mədəni, din faktorları etnik mənsubluqdan irəli çıxır. Vurğulanan faktorlar aparıcı olur. Bu, müasir dövrün tələbidir. Millət toplum miqyasında aparıcı, qurucu, birləşdirici və yaradıcı olan faktorların vəhdətində böyük və möhtəşəm olur. Yəni millətin böyüklüyü özünün etnik mənsubluğunu qabardıb, başqalarına qarşı yuxarıdan aşağı baxmaqla deyil, öz mövcudluğunu dəyərlərə əsaslanaraq fəzilətli, xeyirxah, başəriyyətə fayda verən fəaliyyət vasitəsilə təsdiq etməkdir. Təbii ki, bunun üçün ilk şərtlərdən biri millətin yaradıcı (kreativ) yüksək intellektə fəzilətliliyin əlaməti kimi sahib olmasıdır.

Eyni zamanda, millətin böyüklüyü bununla məhdudlaşmır. Çünki böyüklük yalnız təfəkkür hadisəsi deyildir – onun feili, praktiki, tətbiqi (ümumi anlamda ekzistensialist) tərəfi prinsipial əhəmiyyət daşıyır. Millətin real həyatda böyük olması isə özünün şüurundan başlayır. Yəni millət böyüklüyünü fəzilətlilikdə, quruculuqda, başəri faydalı olmaqda görməyi bacara bilməlidir. Böyüklüyü daxilində yaradıb yaşatmalı və onu real mövcudluğunda (yəni real zamanda) əyaniləşdirməyi bacarmalıdır.

Bu kimi ümumi fəlsəfi düşüncələrdən konkret Azərbaycanda böyük millət məsələsinin təhlilinə keçə bilərik. Öncə vurğulayım ki, Azərbaycanda Prezident İlham Əliyevin böyük millət quruculuğu ilə bağlı fikirlərini anladığım qədər ifadə etməyə çalışacağam. Prezidentin daha geniş, zəngin və əsaslı mövqedə olduğuna tam əminəm.

## Azərbaycanda millət anlamı

Azərbaycanda böyük millət anlamı iki miqyasda dərk edilə bilər. Birinci miqyas müasir Azərbaycan Respublikasının siyasi-coğrafi hüdudları daxilində var olan cəmiyyətin böyüklüyü ilə bağlıdır. İkinci, ümumiyyətlə, dünyanın hər yerində yaşayan azərbaycanlıların qlobal miqyasda millət olaraq böyük ola bilmə imkanları ilə əlaqəlidir. Bu iki miqyasın təməlində birinci – Azərbaycan Respublikasının vətəndaşlarının yaratdıqları cəmiyyətin böyüklüyü dayanır. Eyni zamanda, qlobal səviyyədə böyük millət olmanın fəlsəfi, siyasi və mədəni parametrlərini müəyyən etməyə şans yaranır.

Azərbaycanda "millət" anlayışının etnik aspektdə yenidən müəyyən edilməsinə qətiyyən ehtiyac yoxdur. Çünki bu cəmiyyət həmin mərhələni çoxdan keçmişdir. Belə ki, mədəni, rəsmi və siyasi səviyyədə tam qəbul edilmişdir ki, Azərbaycan türk dövlətidir. Cəmiyyət siyasi anlamda türk toplumudur. Etnik baxımdan cəmiyyətin mütləq əksəriyyətini türklər təşkil edirlər. Ancaq başqa etnik mənsubları türklər üçün özləri qədər doğma, yaxın və ortaq dəyərlərə malik insanlar (vətəndaşlar) kimi qəbul edilir.

Bu mənada Azərbaycan cəmiyyətini azərbaycanlılıq birləşdirir. Azərbaycanlılığın kökündə burada tarixən yaşayan hər bir etnik mənsubun eyni dərəcədə Vətənə, mədəniyyətə, cəmiyyətə və dövlətə sahib olması hüququna malik olması dayanır. Bu baxımdan Azərbaycanın hər bir etnik mənsubu özü, ailəsi, xalqı, cəmiyyəti və dövləti qarşısında məsuliyyət daşıyır.

Kimliyindən asılı olmayaraq, hər bir Azərbaycan insanının Vətəni sevməklə yanaşı, onun məsuliyyətini də daşıması vazkeçilməz şərtdir. Buna görə də Vətən müharibəsində istənilən Azərbaycan vətəndaşının iştirakı təbii şərt, ictimai borc və birgəyaşamın özəlliyi baxımından ortaq məsuliyyətdir. Azərbaycan vətəndaşı hansısa etnik mənsub üçün deyil, vətəndaşı və sahibi olduğu ölkənin, cəmiyyətin və dövlətin təhlükəsizliyi üçün savaşmışdır!

Vətəndə imtiyazlı olmağı deyil, məsuliyyəti və mənəvi borcu dərk edən vətəndaş böyük millətin təmsilçisi ola bilər! Burada fərdi miqyasdan kollektiv mövcudluq səviyyəsinə fəlsəfi və məntiqi keçid etmək olar.

Kollektivin özşüuru və özünüdərki böyük millət olmaqda çox vacib məsələdir. Faktiki olaraq kollektiv səviyyədə böyüklüyün fəzilətli dərki mövcud deyildirsə, real zamanda böyük olmaq qeyri-mümkündür. Deməli, istənilən kollektiv davranışın millət kontekstində qiymətləndirilməsi cəmiyyətin özünə münasibətindən başlayır.

Cəmiyyət özünü böyük görməyi bacarmalıdır! Bu isə kifayət qədər mürəkkəb, tarixi-siyasi çalarlı, sosial-psixoloji mahiyyətli dinamik fenomendir. Həmin proses öz-özünə, avtomatik şəkildə formalaşmır və reallaşmır. Bunun üçün çoxtərəfli və davamlı fəaliyyət lazımdır. Həmin prosesdə müasir şərtlərin göstərdiyi kimi, liderin rolu aparıcıdır. XX əsrin sonu və XXI əsrin bu günə qədər olan təcrübəsi lidersiz hansısa cəmiyyətin özşüurunu, özünüdərkini millət quruculuğunda uğur qazanması nümunəsini göstərməmişdir. Bir neçə nümunədə buna əmin ola bilərik.

Henri Kissincer ömrünün sonlarına yaxın yazdığı əsərlərinin birində XX əsrdə dünyanın 6 uğurlu liderlik nümunəsindən bəhs edir. Onun təsnifatı birbaşa yeni milli ideya, yeni milli strategiya, yeni hədəfi olan toplum formalaşdırmaqla bağlıdır. XX əsrin ikinci yarısında K.Adenaruerin faktiki olaraq yeni alman cəmiyyəti və böyük millətini yaratdığını H.Kissincer vurğulayır. O, alman cəmiyyəti üçün "barış strategiyası" kontekstində yeni milli identikliyin əsas faktorlarını müəyyən etdi. Bütün çətinliklərə baxmayaraq, K. Adenauer yenidən böyük alman millətinin yaranmasına nail oldu. Eyni xidməti, R. Nikson Amerika, Şarl de Qoll Fransa, Li Kuan Yu Sinqapur toplumu üçün göstərdi. Onların həyata keçirdikləri strategiyalar məzmunca fərqli olsalar da, strateji hədəf baxımından ortaq dəyərləri vardı: lideri olduqları cəmiyyətin milli identikliyini dövrün tələblərinə uyğun elə yeniləşdirmək ki, dövlət həm milli miqyasda, həm də qlobal miqyasda uğurlu olsun və dünya nizamının formalaşmasına layiqli yer tutsun. Bunu bacaran toplumun böyük milləti vardır.

Belə görünür ki, H.Kissincer bir qədər böyük millətin klassik anlamından kənara çıxmışdır. Konkret olaraq, millətin böyüklüyünü klassik anlamda ərazi böyüklüyü və əhali sayının çoxluğu ilə əlaqələndirirdilər. Bu, müəyyən mənada ortaq bir mövqeyə çevrilmişdi. Lakin XX-XXI əsrin təcrübələri göstərdi ki, bu cür asılılıq heç də həmişə reallığa düz mütənasib deyildir. Burada ulu öndər Heydər Əliyevin iki fikrini xatırlamaq yerinə düşər.

Ümummilli lider demişdir: "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar" və "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir"!

Deməli, müasir təsəvvürlərə görə, böyük millət ərazi və say çoxluğu ilə deyil, cəmiyyətin özünüdərki, özşüuru ilə praktiki fəaliyyətinin vəhdətində formalaşır. Millət həmin hüdudlar daxilində böyük ola bilir. Buradan Azərbaycanda böyük millət yaratmanın kriteriyaları önə çıxır.

## Milli kriteriyalar

Yuxarıdakı fikirlərdən aydın olur ki, Azərbaycanın milləti inkişaf etdirmənin öz meyarları olmalıdır. Həmin meyarlar (kriteriyalar) cəmiyyətin tarixi, ənənəsi, mədəni özəlliyi ilə müasirliyin vəhdətində müstəqil dövlətçilik kontekstində müəyyən edilə bilər. Burada liderin aparıcı rol oynadığı tezisi də müasir təsəvvürlərə görə, şəksiz qəbul edilməlidir. Həmin anlamda Azərbaycanda cəmiyyətin fundamental yeniləşməsində liderin mövqeyini təhlil etməyin çox aktual olduğu aydınlaşır. Prezident İlham Əliyev lider kimi hansı kriteriyalara üstünlük verir?

## Müasir tariximizin dövrləşdirilməsi

Bu, sözün həqiqi mənasında, milli kontekstdə bir inqilabi yanaşmadır. Müasir tariximizin nəzəri-elmi əsasda dövrləşdirilməsi cəmiyyətin özşüuru, özünüdərki, identiklik axtarışları və feili davranışlarının yeni anlamı üçün "açar" faktordur. Çünki toplum və millət olaraq öz tarixinə yeni mövqedən baxmasan, həqiqi mənada yeniləşmən qalıcı ola bilməz. Tarixinə yeni, daha nikbin və realist mövqedən yanaşmaq bütün addımların təməli və strateji istiqamətverici faktorudur. Bu, həm də böyük millət quruculuğunun təməl siyasi, ideoloji, mənəvi və azərbaycançı şərtidir!

Müasir Azərbaycan tarixinin siyasi və müstəqil dövlətçiliyin təkamülü dövrləşdirilməsinə Prezident İlham Əliyev milli ideyanın müəyyən olunması, reallaşması və yeniləşməsi kontekstində yanaşır. İlk mərhələ olaraq milli ideyanın "ərazi bütövlüyünün bərpası" kimi müəyyən edilərək reallaşma mərhələsinə qədər olan dinamikanın məzmunu və məqsədi seçilir.

İlham Əliyev bu əsasda Vətən müharibəsi ilə müasir müstəqil Azərbaycanın tarixinin siyasi və dövləti aspektlərdə bir mərhələsinin başa çatdığı tezisini irəli sürür. Bu mərhələnin başlıca əlamətləri olaraq tarixi ədalətin bərpasını, milli ləyaqətin yenidən dirçəlməsini və hüququn təmin edilməsini görür. Bu ümumi nəticə "çətiri" altında müstəqil dövlətçiliyin şərtlərinin tam oturuşması, vətəndaş cəmiyyətinin formalaşması və dövlətin geosiyasi statusunun dəqiqləşməsi xüsusi əhəmiyyət kəsb edir.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Zaman və biz**

# Dəyişən dünya və sabahın çağırışları

**Texnoloji inkişafın müsbət və mənfi tərəflərini balanslaşdırmaq cəmiyyətin davamlı inkişafı üçün çox vacibdir. Biz yalnız bu yolla baş verən və baş verəcək proseslərdə riskləri düzgün idarə edərək, bu günün və gələcəyin texnologiyalarından qaynaqlanan zərərləri azalda, faydanı isə artıra bilərik.**

İstəsək də, istəməsək də, dünya sürətlə dəyişir. Dünyanı dəyişən isə insanlardır. Texnoloji, ekoloji, iqtisadi və sosial sahələrdə dəyişikliklər baş verdikcə isə insanların mədəni münasibətlərdən qaynaqlanan dəyərləri, etik davranış və normaları da dəyişir. Bu, xüsusilə texnologiya sahəsinə aiddir. Texnoloji inkişaf həm fərdi olaraq, həm də biznes mühitinin daha rəqabətədavamlı, uğurlu fəaliyyəti ilə inkişafına imkan yaratmaqdadır.

Texnologiyaların tətbiqi ilə bir çox proseslərin avtomatlaşdırılması sürətli və səmərəli şəkildə baş verməklə, əsas amil olan məhsulun keyfiyyəti və təhlükəsiz istehsalı təmin edilmiş olur. Texnoloji inkişafla hər bir müəssisə və qurum üçün önəmli olan geniş məlumat analizinin aparılması strateji qərarların qəbul edilməsində böyük əhəmiyyət daşıyır. O cümlədən, rəqəmsal və mobil cihazların vasitəsi ilə müxtəlif məkanlarda olan işçilər arasında səmərəli əlaqələrin qurulması ilə əməliyyatların daha məhsuldar şəkildə icrası təmin edilir.

Bu kimi fəaliyyətlərin həyata keçirilməsində əsas və ən dəyərli resurs olan əməkdaşların onlayn səriştəsini artırmaq imkanı da vacib amillərdəndir. Nəticə etibarı ilə, texnologiyanın inkişafı bütün kateqoriyadan olan insan fəaliyyətinin daha asan, səmərəli və məhsuldar olması ilə tələblərə daha çevik cavab vermək imkanı verir.

Onu da vurgulayaq ki, texnologiyanın inkişafı insanların yalnız iş həyatında deyil, həm də təhsil sistemində tələbələrin zaman və məkandan asılı olmayaraq dərslərə daxil olması, alış-veriş etməsi və digər xidmətlərdən istifadəsi üçün də şərait yaradır. Son pandemiya dönəmində işçilər texnoloji imkanlardan yararlanıb onlayn platformalar vasitəsilə məsafədən çalışmaq və əməkdaşlıq etmək, tələbə və şagirdlər isə təhsillərini davam etdirmək imkanı əldə etdilər. Hətta rəqəmsal imza xidmətləri vasitəsilə zəruri sənədlərin imzalanması ilə proseslər sürətlə həyata keçirildi ki, bu da çətin dönəmdə məhsuldarlığı və səmərəliliyi qoruyub saxlamağa kömək etdi.

Burada müasir texnologiyaların tətbiqinin başəri problem olan terrorizm və cinayətkarlığa qarşı mübarizədəki rolunu xüsusilə qeyd etmək istərdim ki, bu da önləyici tədbirlərin görülməsi ilə bir çox faciələrin qarşısının alınması imkanlarının mümkünlüyüdür.

Bütün deyilən müsbət hallarla yanaşı, burada mənfi tərəflərin də olması qaçılmazdır. Belə ki, texnoloji inkişaf nəticəsində sənaye, kənd təsərrüfatı, nəqliyyat və logistika, xidmət sektoru daxil olmaqla, demək olar ki, bütün sahələrdə işsizliyin artması ilə cəmiyyətdə sosial fərqlərin yaranması labüdləşir. Bu kateqoriyadan olan insanların maddi vəziyyətlə bağlı, digər çalışanların isə texnoloji avadanlıq və məhsullardan qaynaqlanan həyat tərzi nəticəsində sağlamlıq problemləri ilə qarşılaşma riskləri mövcuddur. Eyni zamanda, kibercinayətkarların müdaxiləsi ilə insanların şəxsi məlumatlarının və müəssisələrin kommersiya maraqlarının qorunub saxlanılmasında da risklərin olması mümkündür. Sürətlə gedən texnoloji inkişaf prosesi milli-mədəni dəyərlərin dəyişməsi, bəzi hallarda itirilməsi ilə də nəticələnə bilər.

Beləliklə, texnoloji inkişafın insanlar üçün fiziki və digər sağlamlıq problemləri, məxfilik və təhlükəsizlik riskləri, sosial izolyasiya və işsizlik kimi mənfi təsirləri ilə yanaşı, ətraf mühitə analoji təsirləri də



özünü göstərməkdədir. Belə ki, elektron avadanlıq və cihazların, enerji resurslarının izafi istifadəsi ilə təbiətə atılan təhlükəli tullantılar ətraf mühitin çirklənməsinə və nəticədə iqlim dəyişikliyinə səbəb olmaqdadır. Yeri gəlmişkən, iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün ötən ay Azərbaycanda keçirilən və dünya ölkələrinin bir araya gəldiyi platforma – BMT İqlim Dəyişikliyi Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində COP29 illik beynəlxalq sammiti iqlim maliyyəsi, karbon bazarları və emissiyaların azaldılması istiqamətində fəaliyyətlərlə yanaşı, dayanıqlı rəqəmsal təcrübələrə, enerji istifadəsinin sülh və təhlükəsizliklə əlaqələndirilməsi, eləcə də yaşıl innovasiyalara sərmayələrin artırılması ilə inkişaf etməkdə olan ölkələrə dəstək verilməsi kimi məsələləri ehtiva edirdi.

Daha əvvəl qeyd etdiyimiz kimi, texnologiyanın inkişafı ilə baş verən və gələcəkdə baş verəcək proseslərdə riskləri düzgün idarə edərək, müsbət təsirlərdən maksimum faydalanmaq, mənfi təsirlərindən isə minimum ziyan görmək yenə də insana bağlı olan amillərdir. Bunun üçün doğru qanunvericilik, təhsil və uyğun insan resursları əsas şərtdir. Hazırkı və gələcək istifadəçilərin texnologiyalardan doğru istifadəsi və rəftarı ilə bağlı maarifləndirici iş də zəruridir. Bütün sferalarda insanların hüquqlarını qorumaq üçün müvafiq strategiyaların hazırlanması, qanunvericilikdə məlumatların mühafizəsini təmin edən normativ aktların kibertəhlükəsizlik və məxfilik məsələlərini tənzimləyən müvafiq standartların müəyyən edilməsi prioritet məsələlərdəndir.

Sürətli inkişaf müxtəlif sahələrdə liderlik və idarəetmə bacarıqlarının vacibliyini artırmaqla, müasir texnologiyalara uyğun səriştələrə malik olan işçi qüvvəsinə tələbatı daha da aktuallaşdırır. Vacib səriştəliliklər sayəsində informasiya texnologiyaları və proqramlaşdırma, verilənləri toplayıb, əlaqələndirmək bacarığı, məlumatların qorunması, kibertəhlükəsizlik və müdafiə strategiyalarını tətbiq etmək vərdişi, kreativ yanaşmalar, komanda işi, etik prinsiplərə uyğun qərar vermək, gələcək trendləri analiz edib müvafiq strateji planlar hazırlamaq, insan resurslarını effektiv idarə etmək kimi kompetensiyalara malik olmaq mümkündür. Düşünürəm ki, istənilən zaman kəsiyində digər resursları idarə edən, ən dəyərli resurs olan insanların özlərinin



də doğru idarə edilməsi liderlərin, yuxarıda qeyd etdiyimiz, funksional səriştəlilikləri ilə yanaşı, onların davranış etikası və dəyərlərinə riayət etməsindən daha çox asılıdır. Bu, onların həm öz komandalarına, həm də cəmiyyətə qarşı məsuliyyətlərini əks etdirir. Liderlər öz vətəndaşlıq borclarını və vətənə olan məhəbbətlərini əməli fəaliyyətlərində göstərməklə, milli maraqların qorunması və cəmiyyətin rifahı üçün çalışmaqla milli resursları və insan potensialını ən yaxşı şəkildə istifadə etməklə yerinə yetirməli, ədalətli, dürüst və insanlara qarşı qayğıkeş olmaqla bu missiyanı şərəflə icra etməlidirlər. Sözdə deyil, əməldə dövlət siyasətini, təşkilatın dəyərlərini və missiyasını mənəvi prinsiplərə uyğun olaraq həyata keçirməklə digər işçilər üçün də nümunəvi davranışlar nümayiş etdirməklə etik mədəniyyəti təşviq etmək mümkündür.

Bütün bunlar insanlıq missiyamızın icrası ilə yanaşı, həm də işçilərin motivasiyasını və məmnuniyyətini artırmaqla, daha ədalətli və səmərəli bir iş mühitinin yaradılmasını təmin etmiş olar.

*Asif BƏKİRLİ,*
*Əməkdar mühəndis*

# Bank əməliyyatları və kibertəhlükəsizlik







**(əvvəli 1-ci səhifədə)**

İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlı forumda çıxış edib:

– Bu gün biz ənənəvi bankçılıq xidmətlərinin artıq kifayət etmədiyi bir dövrdə yaşayırıq. Rəqəmsallaşmanın sürətlə inkişaf etdiyi bir zamanda istehlakçıların etibarını qazanmaq üçün təkcə maliyyə sabitliyinin təmin olunması kifayət etmir. Bu proses üçün şəffaflığın, istehlakçı maraqlarının qorunması və yüksək etik standartların tətbiqi də vacibdir. Bu məqsədlə 2023-cü ilin oktyabr ayından Mərkəzi Bank "Bank xidmətlərindən istifadə üzrə şikayət indeksi" tətbiq edir. İndeks Mərkəzi Banka daxil olan şikayətlərin, göstərilən maliyyə xidmətlərinin həcmi, eləcə də əhatə dairəsi nəzərə alınaraq proporsionallıq prinsipi əsasında hesablanır və "yuxarı", "orta" və "aşağı" şikayət indeksi üzrə qruplaşdırılır.

Hesablamaya əsasən, 2024-cü ilin yanvar-oktyabr aylarında müştərilərin bank xidmətlərindən istifadəsi üzrə şikayət indeksinin orta aylıq maksimum əmsalı 4,45, minimum əmsalı isə 0,18 təşkil edir. Bu indeks istehlakçıların bank xidmətləri ilə bağlı yaşadığı problemləri və bu problemlərin intensivliyini ölçməklə, banklarda xidmət keyfiyyətinin yüksəldilməsinə zəmin yaradır. Bunu aşağıdakı qrafikdən də müşahidə etmək mümkündür:

Qrafik 1.

Qeyd edim ki, bu gün bank əməliyyatlarının kibertəhlükəsizlik standartlarına uyğunlaşdırılması və rəqəmsal ödəniş sistemlərində risklərin idarə edilməsi də vacib məsələlərdəndir. Xüsusilə, elektron bankçılığın və nağdsız ödənişlərin inkişafı məqsədilə təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi prioritet təşkil edir. Bu addım nağdsız ödənişlərin dövlət tərəfindən dəstəklənməsinin bariz nümunəsidir.

Belə bir məqamda xatırladım ki, 2023-cü ildə ölkədə elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı 2,2 dəfə, həcmi isə 2,1 dəfə artıb. Həmçinin ödəniş kartları ilə aparılan nağdsız ödənişlərin xüsusi çəkisi 12,4 faizə, internet bankçılıq xidmətləri vasitəsilə həyata keçirilən əməliyyatların həcmi 12 faizə, mobil bankçılıq əməliyyatlarının həcmi isə 2 dəfəyə çatıb. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin müvafiq fərmanı ilə 2016-cı ildə "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi", 2018-ci ildə "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" təsdiq edilib. Bundan başqa, ölkədə elektron bankçılıq xidmətlərinin təqdim edilməsi və istifadəsi üzrə tələblər Mərkəzi Bankın "Elektron bankçılıq xidmətlərinin təmin edilməsi və təhlükəsizliyi üzrə metodoloji rəhbərliy"ə əsaslanaraq tənzimlənməyə başlanılıb.

Yeri gəlmişkən, 2023-cü ildə bank sektorunun maliyyə dayanıqlığı baxımından məcmu kapitalında artım və kredit fəallığı müşahidə edilib. Bank sektorunun məcmu kapitalı 8 faiz (417 milyon manat) artaraq 5,6 milyard manata yüksəlib. Bankların kredit portfeli isə il ərzində 18,3 faiz (3,6 milyard manat) artaraq 23,2 milyard manat olub. Bankların istehlak portfeli 20,6 faizə, ipoteka portfeli 21,6 faizə, biznes portfeli 16,2 faizə yüksəlib.

Bankçılıq sektoru ölkə iqtisadiyyatının əsas sütunlarından biri olduğundan dayanıqlı bankçılıq ESİ (ekoloji, sosial və idarəetmə) baxımdan inkişafı dəstəkləyən strategiyalar hazırlamağı tələb edir. Banklar "yaşıl" maliyyələşdirmə və davamlı layihələrin təşviqi ilə cəmiyyətin gələcəyini qorumağa töhfə verə bilərlər.

Bu yaxınlarda Mərkəzi Bankın təsdiqlədiyi "Yaşıl Taksonomiya" sənədini də maliyyə sektorunda dayanıqlı inkişaf və "yaşıl" keçid üzrə strateji hədəflərin realizasiyası baxımından vaxtında atılmış addım hesab etmək olar. Bu sənəd iqtisadi sektorlar üzrə "yaşıl" fəaliyyət növlərinin, alt-növlərinin və onların texniki təsnifat meyarlarının müəyyənləşdirilməsi üzrə təsnifat sistemini özündə əks etdirir. Taksonomiya 10 sektor ilə əhatə olunur. Həmin sektorlara daxildir:

– bərpaolunan enerji;
– enerji səmərəliliyi;
– su resurslarının dayanıqlı idarə edilməsi;
– çirklənmənin qarşısının alınması və çirklənməyə nəzarət;
– "yaşıl" nəqliyyat;
– dayanıqlı kənd təsərrüfatı, heyvandarlıq və akvakultura;
– biomüxtəlifliyin mühafizəsi;
– dairəvi iqtisadiyyat və tullantıların idarə olunması;
– yaşıl binalar və dayanıqlı tikinti;
– yaşıl xidmətlər.

Beynəlxalq səviyyədə "yaşıl" taksonomiyalar, maliyyə sistemini daha "yaşıl" etmək və maliyyə vəsaitlərini dayanıqlı iqtisadi fəaliyyətlərə yönləndirmək üçün vacib bir vasitə sayılır. Bu baxımdan bu sənəd dayanıqlı maliyyəyə ardıcıl yanaşmanın təşviq edilməsi, habelə ekoloji və dayanıqlılıq məqsədlərinə müsbət töhfə verən investisiyaların təşviqi üçün xüsusi əhəmiyyətə malikdir.

Nəzərə almalıyıq ki, ölkəmiz də ətraf mühitin mühafizəsinə və iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması məsələlərinə xüsusi önəm verir və bu istiqamətdə mühüm işlər görür. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" 5 milli prioritetdən biri olması, Prezident İlham Əliyevin sərəncamına əsasən, Azərbaycan Respublikasının 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması, həmçinin yaxın günlərdə dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri hesab edilən COP29 ölkəmizdə yüksək səviyyədə keçirilməsi qlobal səviyyədə iqlim dəyişikliklərinin yaratdığı zərərlərə qarşı mübarizəyə hədəflənib. Dövlətin ətraf mühitin mühafizəsinə və iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılmasına xüsusi önəm verməsinin bariz nümunəsi dövlətimizin başçısının COP29 tədbirinin açılış mərasimində söylədiyi "biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik" mesajıdır.

## AÇG və "Şahdəniz"dən 5,7 milyard dollar qazanc

**Dövlət Neft Fondu "Azəri–Çıraq–Günəşli" (AÇG) və "Şahdəniz" layihələri üzrə gəlirləri açıqlayıb. Bildirilib ki, fond bu ilin yanvar-noyabr aylarında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri–Çıraq–Günəşli" yataqlar blokunun işlənməsindən 5 milyard 725,4 milyon ABŞ dolları məbləğində gəlir əldə edib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 628,4 milyon ABŞ dolları və yaxud 9,9 faiz azdır. Xatırladaq ki, əvvəlki ilin yanvar–noyabr aylarında Dövlət Neft Fondu yataqlar blokunun işlənməsindən 6 milyard 353,8 milyon ABŞ dolları məbləğində gəlir əldə edib.**



Yeri gəlmişkən, AÇG Azərbaycanın ən böyük neft yatağı blokudur. Yataqlar blokunun işlənməsi üzrə hasilat bölgüsünə dair ilk müqavilə 1994-cü il sentyabrın 20-də imzalanıb. 2017-ci il sentyabrın 14-də isə həmin yataqların birgə istismarına və hasilatın pay bölgüsünə dair yeni saziş imzalanıb. Bu saziş yataqların 2049-cu ilin sonunadək işlənməsini nəzərdə tutur.

Hesabat dövründə "Şahdəniz" yatağının işlənməsindən isə 416 milyon 174 min dollar gəlir əldə olunub. Bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 891,8 milyon dollar və ya 3,1 dəfə azdır. Cari ilin 11 ayında fonda daxil olan vəsaitlərin 115 milyon 409 milyon dolları kondensatın payına düşüb. Bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 208 milyon 987 min dollar və ya 2,8 dəfə azdır. Müqayisə üçün qeyd edək ki, ötən ilin yanvar-noyabr aylarında ARDNF-in "Şahdəniz" yatağı üzrə işlənmədən əldə etdiyi gəlir 1 milyard 308 milyon dollar təşkil edib. "Şahdəniz" yatağından çıxarılan kondensatın satışından isə 324 milyon 396 min dollar məbləğində qazanc əldə olunub.

Xatırladaq ki, "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş 1996-cı il iyunun 4-də imzalanıb. Bakıdan 70 kilometr cənub-şərqdə yerləşən yataq 1999-cu ildə kəşf olunub. 2013-cü il dekabrın 17-də Bakıda imzalanmış sənədlərə əsasən, "Şahdəniz" yatağının işlənməsi ilə bağlı hasilatın pay bölgüsü sazişinin müddəti 2036-cı ildən 2046-cı ilədək uzadılıb.

## Macar şirkətinin heyəti Səngəçal terminalında

**Macarıstanın "MVM Group" şirkəti bu il əldə edilən razılaşmaya əsasən, "Şahdəniz" qaz yatağında 5 faiz, ixraç boru kəməri sistemində isə Azərbaycan Qaz Təchizatı Şirkətinin 4 faiz səhminə malik olub. "MVM Group"un bu sövdələşməsi Macarıstanın qaz mənbələrinin şaxələndirilməsi və enerji təchizatçısından asılılığın azaldılması strategiyasına, eləcə də Avropa İttifaqının diversifikasiya səylərinə uyğun olaraq həyata keçirilib.**

"MVM Group"un rəhbərliyi imzalanan layihələrin həyata keçirilməsində mühüm rol oynayan Səngəçal terminalı ilə tanış olmaq üçün bu mühüm strateji obyektə səfər edib. Terminalın əməliyyatlar sahəsindəki infrastrukturla, texnoloji qurğularla tanışlıq zamanı bildirilib ki, terminalda Xəzər dənizindəki yataqlardan çıxarılan neft və qaz qəbul edilərək emal olunur və ixraca yönəldilir. "Şahdəniz" yatağından hasil edilən qaz, o cümlədən AÇG-dən çıxarılan neft də terminala nəql olunur və buradan Cənubi Qafqaz Boru Kəməri, Bakı–Tbilisi–Ceyhan və Bakı–Supsa xətləri ilə dünya bazarına ixrac edilir.



Qonaqlara Xəzərdən hasil olan karbohidrogenlərin ixrac boru kəmərləri ilə nəql etmək imkanları, ölçmələrdən tutmuş həcmlərin nəzarəti, boru kəməri sisteminin təhlükəsizliyinin təmin edilməsi barədə də ətraflı məlumat verilib. Sonda bp şirkəti adından qonaqlara simvolik məna daşıyan "Şahdəniz" suveniri hədiyyə edilib.

## Naxçıvanda dövlət–biznes dialoqu



**Naxçıvan şəhərində "Dövlət-biznes dialoq platforması və gələcək perspektivlər" mövzusunda konfrans keçirilib. Məclisdə Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişaf, biznes, investisiya mühiti, sahibkarlığın, özəl sektorun iqtisadi inkişafda rolu müzakirə edilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli Naxçıvan Sənaye Parkının yaradılması haqqında fərmanın imzalandığını xüsusi vurğulayaraq buna görə ölkə başçısı cənab İlham Əliyevə minnətdarlığını bildirib. S.Seyidəhmədli tədbirin dövlət-biznes dialoqunun gücləndirilməsi baxımından əhəmiyyətinə toxunaraq qeyd edib ki, bu sahədə aparılan islahatlar iqtisadiyyatın davamlı və dayanıqlı olmasını təmin edir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" da bu məqsədə xidmət edir.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov cari ilin 11 ayında Naxçıvan Muxtar Respublikasında faktiki vergi daxilolmaları ilk dəfə olaraq 200 milyon manatı keçdiyini bildirib. Bu göstərici müəyyən olunan proqnoz məbləğindən 44,4 milyon manat və ya 28 faiz çoxdur. Nazir müavini qeyd edib ki, 2024-cü ilin 11 ayında vergi daxilolmaları 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 52,4 milyon manat və ya 34,9 faiz, 2022-ci illə müqayisədə isə 86,5 milyon manat və ya 74,4 faiz artıb.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Siyasəti Baş İdarəsinin rəisi Nicat İmanovun sözlərinə görə, Naxçıvan Muxtar Respublikası üçün xüsusi vergi güzəştləri paketi hazırlanıb. Bu paket Muxtar Respublikada qeydiyyata alınan və orada fəaliyyət göstərən sahibkarlıq subyektlərinə şamil olunacaq.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Naxçıvan**

## Özbəkistanla standartlaşdırma əməkdaşlığı

**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutunun nümayəndə heyəti Daşkənd şəhərinə işgüzar səfər edib.**

İnstitutdan verilən məlumata görə, səfər çərçivəsində Özbəkistan Elmi–Sınaq və Keyfiyyətə Nəzarət Mərkəzinin (UzTest) nümayəndələri ilə görüş keçirilib. Görüşdə tütün məmulatlarının sınaqdan keçirilməsinə dair əməkdaşlıq layihələri ətrafında müzakirələr aparılıb, o cümlədən "Halal" sertifikatı üzrə təcrübə mübadiləsi barədə razılığa gəlinib.

Görüşün yekununda Standartlaşdırma İnstitutu ilə "UzTest" arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Səfər çərçivəsində, həmçinin mərkəzin sınaq laboratoriyalarına baxış keçirilib, onların fəaliyyət istiqamətləri, laboratoriyalarda istifadə edilən müasir cihaz və avadanlıqlar barədə məlumat verilib.

Səfərin sonunda Azərbaycan nümayəndə heyəti Daşkənd Dövlət Texniki Universitetinin nəzdində fəaliyyət göstərən "Metrologiya və standartlaşdırma" laboratoriyasında iş prosesi ilə tanış olub, laboratoriyaların akkreditasiyası sahəsində birgə əməkdaşlıq barədə müzakirələr aparıb.

## Kəlbəcərdə İdarələrarası mərkəzin işçi qrupunun növbəti iclası

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahı nəzdində fəaliyyət göstərən idarələrarası mərkəzin iqtisadi məsələlər üzrə işçi qrupunun Kəlbəcər şəhərində növbəti iclası keçirilib.**



İqtisadiyyat Nazirliyindən bildirilib ki, iclasda işçi qrupun rəhbəri, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev ölkə başçısının sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində işğaldan azad edilmiş ərazilərin inkişafı istiqamətində iqtisadi canlanmanın sürətləndirilməsi, investisiya cəlbediciliyinin artırılması məqsədilə əhatəli və məqsədyönlü infrastruktur layihələrinin icra olunduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, ərazilərdə iqtisadi fəallığın sürətləndirilməsi, tətbiq edilən güzəşt və azadolmalar barədə maraqlı tərəflər, o cümlədən sahibkarlıq subyektləri üzrə maarifləndirmə işlərinin aparılması, onların güzəşt və azadolmalardan faydalanması üçün rezident statusunun verilməsi və vergi uçotuna alınması istiqamətində işlər davam etdirilir.

Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Bəşir Hacıyev rayonda aparılan bərpa və quruculuq işlərindən danışıb. O, əhalinin öz yurdlarına geri qayıdışı, məşğulluğun təmin edilməsi məqsədilə Kəlbəcər rayonunda müxtəlif istiqamətlər üzrə sahibkarlıq fəaliyyəti üçün əlverişli imkanlar barədə məlumat verib, iş adamlarının burada biznes fürsətlərindən lazımınca yararlana biləcəyini vurğulayıb. Tədbirdə, həmçinin Dövlət Proqramının icrası çərçivəsində 2025-2026-cı illər üzrə nəzərdə tutulan tədbirlərlə bağlı müzakirələr aparılıb.

İclasdan sonra iqtisadi məsələlər üzrə işçi qrupun üzvləri Kəlbəcər şəhərində yaradılmış infrastrukturla və hazırda davam edən bərpa-quruculuq işləri ilə yerində tanış olublar.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

# Təhlükəsiz gələcəyin əlçatanlığını iqlim maliyyəsi diktə edəcək

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil Brukinq İnstitutunun Qlobal İqtisadiyyat və İnkişaf Proqramının onlayn konfransındakı çıxışında COP29-un Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirdiyini və iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə böyük töhfə verdiyini bildirib.**



O, Azərbaycan mediasına müsahibəsində isə COP29-un qlobal dünya əhəmiyyətli tədbir olduğunu bildirərək, iqlim dəyişmələrinin ətraf mühitə, iqtisadiyyata, insanların sağlamlığı və təhlükəsizliyinə ciddi təsir göstərdiyini də vurğulayıb: "COP29 ölkələrə bir araya gəlməyə, iqlim dəyişmələri problemlərini müzakirə etməyə, istixana qazlarının həcminin azaldılması üçün birgə hərəkətlər barədə tədbir və qərarları qiymətləndirməyə, yenilərini qəbul etməyə əlverişli şərait yaratdı. Bu isə onu deməyə əsas verir ki, COP29 Azərbaycan Sədrliyi əsas beynəlxalq ekoloji sazişlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının və Paris İqlim Sazişinin həyata keçirilməsi üzrə danışıqlar prosesində böyük uğura imza atdı".

Saymon Stilin sözlərinə görə, COP29 qlobal iqtisadiyyatın və milyardlarla insanın həyatının iqlim dəyişikliyinin fəlakətli təsirlərindən xilas edilməsində iqlim maliyyəsinin oynadığı aparıcı rolu qəbul edən konfrans kimi yadda qalacaq. Maliyyə bazarlarında özəl investisiyaların cəlb edilməsi və "yaşıl" investisiyalar üçün stimulun yaradılması mexanizmlərinin bundan sonra da nəzərdən keçirilməsi daim diqqətdə saxlanılacaq. Bütün bunlarla bərabər, sessiyada iqlim dəyişikliyinə uyğunlaşma tədbirlərinin maliyyələşdirilməsinin operativ surətdə artırılması və beynəlxalq karbon bazarlarının ümumi rifaha xidmət etməsini gerçəkləşdirmək istiqamətində hərtərəfli müzakirələr aparıldı.

İqlim maliyyəsinin iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynadığını vurğulayan COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev isə jurnalistlərə açıqlamasında 29-cu iqlim konfransında əsas prioritet olan iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi qəbul olunduğunu mühüm uğur kimi dəyərləndirib: "Sənədə əsasən, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ci ilədək, ən azı, 300 milyard ABŞ dollarına çatdırılması təmin ediləcək. Bu vəsait dövlət, özəl, habelə çoxtərəfli mənbələr daxil olmaqla bütün mümkün mənbələr hesabına təmin olunacaq. Sənəd inkişaf etməkdə olan ölkələri könüllülük prinsipi əsasında iqlim maliyyəsinə töhfə verməyə çağırır".

Yeri gəlmişkən, sammitin bağlanış plenar iclasında Azərbaycanın COP29 Sədrliyi inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsini təmin etmək üçün yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi razılaşmasını elan edib. BMT-nin İqlim Sammiti üçün COP29 Sədrliyinin əsas prioriteti üzrə əldə olunan bu uğur əvvəlki 100 milyard ABŞ dolları həcmində iqlim maliyyəsi hədəfindən əhəmiyyətli dərəcədə artım deməkdir və qlobal investisiyaların yeni dalğasına təkan verəcəkdir.

Bakı Maliyyə Məqsədi inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər hər il, ən azı, 300 milyard dollar vəsaitin səfərbər olunmasına liderlik etmək üçün inkişaf etmiş ölkələrin əsas hədəfini özündə ehtiva edir. Bu, COP29 Sədrliyi tərəfindən 48 saatlıq intensiv diplomatik fəaliyyətin nəticəsidir. Burada az inkişaf etmiş ölkələri və inkişaf etməkdə olan kiçik ada dövlətlərini dəstəkləməyə xüsusi diqqət yetirilir. Bu sənəddə əlçatanlıq və şəffaflıq haqqında müddəalar da əksini tapıb.

Bu irəliləyişlər çoxtərəfli iqlim fəaliyyətində ən mürəkkəb və mübahisəli vəzifələri yerinə yetirmək üçün Azərbaycan Sədrliyinin aylarla davam edən intensiv diplomatiyasının məntiqi nəticəsidir. Bu qərarlar 1,5C məqsədinə çatmaq üçün vasitələrin təmin edilməsində xüsusi əhəmiyyətə malik addımlardır. COP29-un prezidenti Muxtar Babayevin sözlərinə görə, bütün dünya Bakıya gələndə bir çox insanlar Azərbaycanın bütün bunlara nail ola biləcəyinə şübhə ilə yanaşırdılar. Onlar tərəflərin razılığa gələ biləcəklərinə inanmırdılar. Hər iki məsələdə yanılma isə artıq hər kəsə bəllidir.

# Ekoloji böhran: elm və innovasiya

**Dövlət Neft Şirkətinin vitse-prezidenti Ziba Mustafayeva "Dayanıqlı ətraf mühit: yaşıl enerjiyə keçid" mövzusunda keçirilən beynəlxalq elmi konfransda qeyd edib ki, Azərbaycan bu il iqlim dəyişikliyi ilə mübarizədə qlobal səviyyədə daha bir uğura imza ataraq BMT-nin 29-cu konfransına yüksək səviyyədə ev sahibliyi etdi. Bu sessiya Azərbaycanın ekoloji problemlərin həllində və bərpa olunan enerji mənbələrinə keçid sahəsindəki liderliyini bir daha dünyaya göstərdi. Eyni zamanda, iqlim dəyişikliyinə qarşı mübarizədə əsas vasitələrdən birinin elm və innovasiya olduğunu nümayiş etdirdi.**




Z.Mustafayeva bildirib ki, karbon emissiyalarının azaldılması və ekoloji problemlərin həllində yalnız yeni və kreativ tədqiqat yanaşmaları ilə uğur qazanmaq mümkündür: "Azərbaycan bu istiqamətdə təhsil və elmi tədqiqatların dəstəklənməsinə xüsusi diqqət yetirir. Məsələn, Bakı Ali Neft Məktəbinin İnnovasiya və Tədqiqat Mərkəzi bu mövzuda yeni yanaşmaların inkişafına ciddi töhfə verir. Eyni zamanda, Şuşa şəhərində həyata keçirilən ekoloji layihələr və digər regional tədbirlər bu sahədə mühüm addımlardandır".

Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımov beynəlxalq elmi konfransda qeyd edib ki, BMT-nin 29-cu iqlim sessiyası tarixi bir hadisə, Qafqazın, eləcə də dünyanın diqqətini çəkən ən böyük ekoloji forumlardan biri kimi tarixə yazıldı.

Rektor çıxışında ekoloji mədəniyyətin inkişafı üçün hər kəsin töhfə verməli olduğunu vurğulayıb: "Məsələn, ağacların kəsilməsinə qarşı mübarizə aparmaq təkcə bir məsuliyyət deyil, həm də sosial bir vəzifədir. BANM-də "YES" adında ekoloji mərkəz yaradılıb. Mərkəz ekoloji maarifləndirmənin artırılmasına yönəlib. Bu işin genişlənməsi üçün hər kəs öz töhfəsini verməlidir".

# KOBİA və AİB KOB-ları "yaşıl" keçidə təşviq edir



**"Bakı KOB evi"ndə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Asiya İnkişaf Bankı (AİB) arasında Azərbaycanda KOB-ların "yaşıl" keçidi və "yaşıl" inkişafına dair Anlaşma Memorandumu imzalanıb. Sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və AİB-in Azərbaycanda Rezident Missiyasının rəhbəri Sunniya Durrani-Camal imzalayıblar.**

KOBİA-dan redaksiyamıza bildirilib ki, memorandumda AİB-nin KOBİA-nın irəli sürdüyü "KOB-ların yaşıl keçidi üçün Bakı İqlim Koalisiyası Bəyannaməsi"nə dəstəyi ifadə edilməklə həmin sənəddə öz əksini tapmış məsələlər, o cümlədən KOB-ların "yaşıl" keçidinə yönəlmiş fəaliyyətin birgə həyata keçirilməsi nəzərdə tutulur.

Bu məqsədlə memorandumda KOB-ların "yaşıl" təşəbbüslərinin reallaşdırılması, bu sahədə bacarıqlarının artırılması və "yaşıl" maliyyəyə çıxışa birgə dəstəyin göstərilməsi, KOB-ların yaşıl keçidinə dəstək üçün normativ bazanın təhlili istiqamətində tədbirlərin görülməsi kimi istiqamətlərdə əməkdaşlıq öz əksini tapıb.

Görüşdə KOB-ların "yaşıl" keçidi, KOBİA və AİB arasında KOB sahəsində əməkdaşlıq imkanları, eləcə də memorandumdan irəli gələn məsələlər müzakirə edilib.

# "Yaşıl" gələcək – təmiz şəhər

## *Bakıda yanmış qazların 75 faizi avtomobillərin payına düşür*



**"Təmiz Şəhər" ASC-nin şöbə müdiri Mirzə Laçınov bildirib ki, Bakıda atmosferə atılan zəhərli qazların 75 faizi məhz nəqliyyat vasitələrinin payına düşür. Onun sözlərinə görə, yararsız və istismar müddəti bitmiş avtomobillərin tullantıya çevrilərək ətraf mühiti çirkləndirməsi hazırda bütün dünyada ciddi problem sayılır: "Əksər ölkələr bu cür nəqliyyat vasitələrinin zərərsizləşdirilməsi istiqamətində müxtəlif proqramlar tətbiq edir. Vəziyyətdən səmərəli çıxış yollarından biri də həmin avtomobillərin utilizasiyasıdır".**

Şöbə müdiri vurğulayıb ki, utilizasiya proqramlarının dövlət səviyyəsində həyata keçirilməsi ətraf mühitin qorunması baxımından mühüm önəm daşıyır. Bunu zəruri edən əsas səbəb köhnəlmiş və yararsız nəqliyyat vasitələrinin havanın, o cümlədən torpağın və su mənbələrinin çirklənməsində payının artması, onların zəruri ekoloji tələblərə əməl edilmədən pərakəndə utilizasiyası zamanı ətraf mühitə dəyən ziyandır.

Tədqiqatlar göstərir ki, ölkəmizdə nəqliyyat vasitələrindən atmosferə atılan təkcə karbon oksidlərinin miqdarı il ərzində 700 min tona yaxındır. Bu isə nəqliyyat vasitələrinin ekoloji normalara cavab verməsinin ciddi nəzarətdə saxlanmasını tələb edir.

M.Laçınov qeyd edib ki, köhnəlmiş nəqliyyat vasitələri hərəkətin təhlükəsizliyi baxımından da risklər yaradır: "Texniki təhlükəsizlik tələblərinə cavab verməyən nəqliyyat vasitələri yol-nəqliyyat hadisələrinin, o cümlədən bədbəxt hadisələrin sayının artmasına səbəb olur. Bu, nəzərə alınaraq onların utilizasiyasının dövlət səviyyəsində idarə edilməsi artıq müasir dövrün tələbidir. Hər il ölkəmizdə istismar olunan çox sayda nəqliyyat vasitəsi köhnəlir və yol-nəqliyyat hadisələri nəticəsində yararsız hala düşür".

Şöbə müdiri əlavə edib ki, hər il orta hesabla 1600-dən çox yol-nəqliyyat hadisəsi baş verir ki, bu da nəticədə yararsız nəqliyyat vasitələrinin sayının artmasına təsir göstərir. 2023-cü ilin statistik məlumatlarına əsasən, ölkəmizin nəqliyyat parkının yalnız 15 faizə qədərini istehsal-buraxılış ili 10 ilə qədər olan nəqliyyat vasitələri təşkil edir. Bu rəqəmin özü də nəqliyyat parkının yenilənməsi üçün tədbirlərin həyata keçirilməsini zərurətə çevirir.

M.Laçınovun sözlərinə görə, ölkə Prezidentinin 27 dekabr 2018-ci il tarixli sərəncamı ilə təsdiqlənən "Yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı"nda nəqliyyat vasitələrinin utilizasiyası proqramının hazırlanması və tətbiqi nəzərdə tutulub: "Dövlət Proqramının Tədbirlər Planının 7.3.7.1-ci bəndinə əsasən, sənədin tətbiqində 3 əsas istiqamət müəyyənləşdirilib. Bunlar yol hərəkətinin təhlükəsizlik səviyyəsini yüksəltmək, ekoloji vəziyyəti yaxşılaşdırmaq və yerli avtomobil istehsalını stimullaşdırmaqdır. Proqramın hazırlanmasında 15-ə qədər dövlət orqan və qurumu, o cümlədən xeyli sayda aidiyyəti mütəxəssis və ekspert iştirak edib, bir sıra ölkələrin təcrübələri araşdırılıb. Həmçinin proqramın tətbiqi ilə əlaqədar mövcud qanunvericiliyə yeni müddəalar əlavə edilib, ümumilikdə, 10-dan çox qanunvericlik aktına dəyişiklik və əlavələr olunub.

Proqramın əsas məqsədi köhnəlmiş, texniki-təhlükəsizlik baxımından və ekoloji cəhətdən yararsız nəqliyyat vasitələrinin dövriyyədən çıxarılmasını gerçəkləşdirməkdir. Bu baxımdan onun əsas predmeti ilkin istifadə xüsusiyyətlərini itirib, mənəvi və fiziki cəhətdən köhnələn, o cümlədən yol hərəkətində istifadəyə yararsız olmaqla tullantı kimi xarakterizə olunan nəqliyyat vasitələridir.

Bütün bunlar nəzərə alınaraq əsas aidiyyəti normativ–tənzimləyici müddəalar öz əksini "Tullantılar haqqında" qanunda tapıb. Bununla belə, nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi könüllülük prinsipi əsasında həyata keçirildiyindən tullantı xüsusiyyətlərinə uyğun gəlməyən, tam və ya qismən yararlı nəqliyyat vasitələri də onların sahibləri tərəfindən öz istəkləri əsasında utilizasiyaya verilə bilər.

Proqram birdəfəlik ödəniş və yerli istehsal olunmuş yeni nəqliyyat vasitələrinin satın alınmasında güzəşt kimi stimullaşdırıcı tədbirlərin tətbiqini də özündə ehtiva edir. Nəqliyyat vasitələrinin utilizasiyaya təqdim olunmasını asanlaşdırmaq məqsədilə www.nvu.gov.az elektron portalı hazırlanaraq ictimaiyyətə təqdim olunub.

# Enerji keçidinin meyarı

## *Süni sürətləndirilmə ətraf mühitə ciddi ziyan vura bilər*

**BP şirkətinin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli "Dayanıqlı ətraf mühit: yaşıl enerjiyə keçid" mövzusunda keçirilən beynəlxalq elmi konfransda enerji keçidinin süni şəkildə sürətləndirilməsinin ətraf mühitə ciddi ziyan vura biləcəyini deyib.**



Vitse-prezidentin sözlərinə görə, enerji keçidi ənənəvi enerji mənbələrindən bərpa olunan enerji mənbələrinə keçidi ifadə edir. Ənənəvi enerji mənbələri karbon tullantıları baxımından daha çox yüklüdür. Bununla yanaşı, bəşəriyyətin artan enerji tələbatını ödəmək üçün balansı günəş, külək və hidrogen kimi bərpa olunan enerji mənbələrinə yönəltmək zərurəti yaranır. Bu keçidin əsas məqsədi atmosferə tullantıları azaltmaqdır. Lakin burada vacib olan məsələ keçidin sürətidir.

Çox vaxt qlobal miqyasda ən çox yol verilən səhv enerji keçidinin bir anda, qısa müddətdə reallaşdırılmasının mümkünlüyü ilə bağlı iddialardır. Bu keçid tədricən həyata keçirilməlidir, çünki onu süni şəkildə sürətləndirmək ətraf mühitə daha çox zərər vura və nəticədə cəmiyyəti yenidən ənənəvi enerji mənbələrinə qayıtmağa məcbur edə bilər.

B.Aslanbəyli Avropa ölkələrinin bu sahədəki təcrübəsinə də toxunub: "Bir neçə il əvvəl Avropa ölkələrində vaxtından əvvəl və lazımi ehtiyaclar hesablanmadan kömür istehsalını və nüvə reaktorlarının fəaliyyətini dayandırdılar. Lakin istehlak artdıqda bərpa olunan enerji mənbələri tələbatı ödəyə bilmədi və nəticədə ənənəvi enerji istehsalını bərpa etmək məcburiyyəti yarandı".

# BMqT iqlim miqrasiyasının artmasından narahatdır

**Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) nümayəndə heyəti COP29-da iqlim maliyyələşməsinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi zamanı iqlim miqrasiyası probleminin müzakirəsində fəal iştirak edib. BMqT eksperti İleana Sinziana Puşkas bununla bağlı jurnalistlərə iqlim miqrasiyasının miqyasının getdikcə artması səbəbindən təmsil etdiyi qurumun məsələyə ciddi yanaşdığını bildirib.**



Mövzunun Bakıda BMT-nin Yaşıl İqlim Fondunun nümayəndələri ilə müzakirə olunduğunu deyən ekspert faciə və ağrı ilə nəzərə çarpan miqrasiyanın dövlətlərin həmrəyliyi və birgə uğurlu layihələri ilə aradan qaldırılmasının mümkünlüyünü vurğulayıb.

Ekspert əlavə edib ki," yaşıl" iqtisadiyyata ədalətli keçid üçün dövlətlərə yüksək ixtisaslı işçi qüvvəsi lazımdır və bu da maliyyə investisiyalarını tələb edir.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

Günün sualı

# Ət niyə bahalaşır?

*Səbəblər çox olsa da, çıxış yolları da az deyil*

**Ölkəmizdə ərzaq təhlükəsizliyinin mühüm istiqamətlərindən biri də daxili bazarda ət və ət məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi ilə bağlıdır. Bununla belə, gündəlik qida rasionumuzda mühüm yer tutan ətin qiymətində son zamanlar kəskin bahalaşma müşahidə olunur. Belə ki, hazırda daxili bazarda istehlakçılara quzu əti 18–20 manata, dana əti isə 15–16 manata təklif olunur. Bu da izafi xərclərə səbəb olduğundan istehlakçıların haqlı narazılığına gətirib çıxarır.**



Rəsmi statistikaya görə, ölkəmizdə adambaşına düşən illik ət və ət məhsullarının istehlakı 42 kiloqrama yaxındır. Bunun da 16 kiloqramı mal ətinin payına düşür. Bundan əlavə, qoyun və keçi əti istehlakı adambaşına 9 kiloqram, quş əti istehlakı isə 15,4 kiloqram təşkil edir. Bu isə dünyanın inkişaf etmiş ölkələri ilə müqayisədə aşağı göstərici hesab olunur. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan dünyanın bir çox inkişaf etmiş ölkələrindən ət istehlakına görə, təxminən, 40 faiz geri qalır.

Yeri gəlmişkən, Hesablama Palatası ət və ət məhsulları bazarında bir müddət əvvəl apardığı auditə əsaslanaraq mediada yaydığı məlumatda yerli istehsalın bazası olan damazlıq heyvandarlığın lazımi səviyyədə inkişaf etdirilməməsi ölkədaxili ət və ət məhsullarının qiymətlərinin optimallaşdırılmasına mane olan əsas amil kimi bildirilirdi. Vurğulanırdı ki, satış qiyməti idxal qiyməti ilə müqayisədə daha əlverişli yerli istehsal heyvan toxumlarının müvafiq standartlar üzrə kənar (müstəqil) sertifikatlaşdırılması mexanizminin tətbiq edilməməsi üzündən yerli toxumun keyfiyyətinə əminlik yaranmır. Bu səbəbdən də müvafiq fermer təsərrüfatları yerli istehsal olan heyvan toxumuna üstünlük vermir və həmin toxumların idxalını həyata keçirir. Beləliklə, yerli heyvan toxumu və ondan alınan damazlıq heyvanların, eləcə də heyvandarlıq məhsullarının ixracı perspektivləri məhdudlaşır.

Araşdırma nəticəsində məlum olub ki, ölkədəki mayalana biləcək iribuynuzlu heyvanların çox az bir hissəsi (14,6-15,8 faiz) süni mayalanmaya cəlb edilir, bu yolla doğulan buzovların sayının isə mayalana bilən müvafiq heyvanlara nisbəti hər 100 iribuynuzlu heyvana qarşı orta hesabla 8,8 faiz təşkil edir. Beləliklə, doğulan buzovların, təxminən, 50 faizi erkək olmaqla qısa müddətli bəslənmə dövründən sonra ət istehsalı üçün kəsimə verilir. Belə bir şəraitdə süni mayalanmanın faktiki əhatəliliyi ilə ölkə üzrə heyvandarlıqda cins tərkibin yaxşılaşdırılması (optimallaşdırılması) üçün 20 ildən çox müddət tələb edilir ki, bu da mövcud süni mayalanma mexanizminin bir o qədər də səmərəli və nəticəli olmadığını deməyə əsas verir. Eyni zamanda, bütün bunlar ölkədaxili tələbatın diri halda idxal edilən heyvanların kəsimi hesabına ödənilməsi səviyyəsinin nə qədər yüksək olduğunu göstərir.

Qeyd edək ki, son zamanlar ət idxalının həcmində artım müşahidə olunur. Bu da idxaldan asılılığın artmasına gətirib çıxarır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2024-cü ilin yanvar-oktyabr aylarında Azərbaycana 104 milyon 834 min ABŞ dolları dəyərində 48 min 241 ton ət idxal olunub. Dövlət Gömrük Komitəsinin məlumatına görə, idxal edilən ətin miqdarı ötən ilin müvafiq dövrü ilə müqayisədə 38,4 faiz, dəyəri isə 49,8 faiz və ya 34 milyon 839 min dollar artıb.

Son vaxtlar ölkədə bu məhsulun bahalaşmasının bir səbəbi də ət idxalına məhdudiyyət qoyulması nə ilə bağlıdır. Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının rəsmi məlumatına əsasən, Fələstin, Fransa, Almaniya, ABŞ və Əlcəzairin bəzi regionlarından ət məhsullarının Azərbaycana idxalına məhdudiyyət qoyulub. Bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi məlumat yayıb. Bildirilib ki, Fələstinin Ramallah və Əl-Bireh əyalətində dabaq, Fransanın Korsika regionunda, Almaniyanın Berlin şəhərində blutanq, Əlcəzairin Əlcəzair, Tipaza, El Tarf, Bürc-Bü-Ərriric, Setif, Tebessa, Skikda əyalətlərində nodulyar dermatit, ABŞ-nin İllinoys ştatında isə yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb.

Onu da deyək ki, Rusiya – Ukrayna müharibəsindən sonra Azərbaycanda quşçuluq məhsullarının idxalı da, demək olar ki, dayanıb. Bu da ölkədə ət məhsullarının qiymətinin bahalaşmasına öz təsirini göstərib. Paytaxt sakinlərinin sözlərinə görə, əvvəllər 17–18 manata aldıqları hind toyuğu ətinin qiyməti artıq 19–20 manata yüksəlib. Azərbaycan Quş Əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyasının İdarə Heyətinin sədri Mürvət Həsənli qiymət artımının müxtəlif səbəbləri olduğunu, xüsusən hind toyuğu, qaz, ördək kimi quş növlərinin kütləvi şəkildə istehsal olunmamasının bahalaşmaya təsir edən əsas amillər sırasında yer aldığını vurğulayıb.

Ekspertlər bütün bunlarla bərabər, ət idxalının artmasını digər səbəblərlə də, məsələn, örüş sahələrinin azalması, yem komponentlərinin bahalaşması ilə əlaqələndirərək bütün bunların heyvandarlığın inkişafına mənfi təsir göstərdiyini bildirirlər. Onlar, eyni zamanda, həm iri, həm də xırdabuynuzlu heyvanların saxlanılmasına çəkilən xərclərin 2-3 dəfəyə qədər artmasını isə bu sahə ilə məşğul olan sahibkarların profillərini dəyişmək məcburiyyətində qaldıqlarını qeyd edirlər.

Azərbaycanda əhali tərəfindən qoyun əti daha çox istehlak edildiyi üçün bu sahəyə də xüsusi diqqət yetirilir. Başqa sözlə, yetişdirilən qoyun cinslərinin ət, süd, pendir, dəri, piy və yunundan geniş istifadə edilir. Təəssüf ki, yüksək məhsuldarlığına və sadalanan digər müsbət keyfiyyətlərinə baxmayaraq, son illər ölkəmizdə qoyunçuluğun inkişaf dinamikasında da azalma müşahidə olunur.

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin bu barədə yaydığı məlumatda qeyd edilir: "BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ilə Azərbaycan arasındakı Tərəfdaşlıq Proqramı çərçivəsində reallaşdırılan "Qoyunçuluğun davamlı inkişafı və ərzaq məhsullarının istehsalı üzrə dəyər zəncirinin yaradılması və həyata keçirilməsi" layihəsi üzrə hazırlanan hesabatda respublikamızda qoyun populyasiyasının inkişaf dinamikasındakı azalmanın bir sıra səbəblərlə bağlı olduğu göstərilir. Belə ki, iqlim dəyişiklikləri və torpaqların deqradasiyası, eləcə də tələblə təklifin dəyişməsi fonunda tələbin yüksəldiyi, eyni zamanda, əhalinin damaq dadı və ət seçimində daha çox quzu ətinə üstünlük verildiyi, bununla da, qoyunçuluğun inkişafının zəiflədiyi bildirilir.

Məsələ ilə əlaqədar İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə ünvanladığımız sorğuya cavab olaraq bildirildi ki, bu ilin ötən dövründə ölkənin iri və xırdabuynuzlu heyvan əti bazarında rəqabət vəziyyətinə dair araşdırmalar aparılıb. Təhlillər nəticəsində bazarda inhisarçı meyillərin olmadığı və qiymətlərin tələb-təklif mexanizmi əsasında formalaşdığı müəyyən edilib.

Ətin qiymətində müşahidə olunan dəyişikliyə gəldikdə isə qurumun məlumatında qeyd olunur ki, tələbin və ya təklifin mövsümi amillər səbəbindən artması və ya azalması istehlak bazarında qiymətlərə təsir edə bilir. Məlumatda daha sonra bildirilir: "Bəzi mövsümlərdə müəyyən məhsulların istehsal edilməsi mümkün olmur və ya müəyyən dövrlərdə bəzi məhsullara olan tələbin həcmi kəskin dəyişir. Mövsümi faktorlardan biri kimi bayramlar ərəfəsində istehlak bazarında yaranan vəziyyəti nümunə gətirmək olar. Belə ki, bayramöncəsi, adətən, istehlakçıların iqtisadi davranışlarında müəyyən dəyişikliklər müşahidə edilir və müxtəlif sosial-iqtisadi səbəblərə görə bəzi məhsullara olan tələbin həcmi dəyişə bilir. Lakin müşahidələr göstərir ki, mövsümi faktorlar aradan qalxdıqdan sonra, adətən, istehlak bazarında qiymətlərdə azalma qeydə alınır".

Dövlət Xidmətinin məlumatında o da qeyd olunur ki, "Sahibkarlıq fəaliyyəti haqqında" Qanuna əsasən, sahibkarlar öz məhsulları (işləri, xidmətləri) üçün qiymətləri sərbəst müəyyən edirlər. İstehlak bazarında sahibkarlar tərəfindən istehlakçılara müxtəlif qiymət və şərtlərlə ət məhsulları təklif olunur, istehlakçıların onların arasından qiyməti və istehlak xassələri daha uyğun olan malı sərbəst seçmək hüququ var.

"İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti iqtisadi əsası olmadan məhsulların qiymətində dəyişiklik edilməsi hallarına yol verilməməsi üçün qanunamüvafiq tədbirlər həyata keçirir. Dövlət Xidməti əsassız qiymət dəyişikliyinin qarşısının alınması, qiymət formalaşması zamanı rəqabət qanunvericiliyinə riayət olunmasına nəzarət məqsədilə istehlak bazarında mütəmadi monitorinqlər aparır. Rəqabət qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edildiyi təqdirdə qanunamüvafiq tədbirlər görülür", – deyə məlumatda qeyd olunur.

**XQ-nin analitik qrupu**

## EKSPERT RƏYİ

**Elçin BAYRAMLI,**
**"Sağlam Cəmiyyət Hərəkatı"nın rəhbəri, sosioloq**



Kənd təsərrüfatının vacib sahələrindən sayılan heyvandarlığın problemləri bütün dünyada aktuallıq kəsb edir. Bu sahədə ən vacib məsələ mühüm növ heyvandarlıq məhsulu olan ət istehsalı və istehlakı ilə bağlıdır. Bir sıra qlobal qüvvələr heyvanların metan qazı buraxaraq ozon qatına zərər vurmaqla və qlobal istiləşməyə səbəb olmaqla atmosferdə ciddi problemlər yaratdığını düşünürlər. Onlar iddia edirlər ki, ət və süd istehsalının artırılması üçün heyvanların sayının iri fermalar şəklində süni surətdə çoxaldılması, təbii balansdan artıq mal-qara saxlanması iqlimə zərər vurur.

Bununla yanaşı, dünyada süni ət texnologiyasının hazırlanması prosesi də artıq başa çatdırılıb. Yəni süni hüceyrələrin laboratoriya şəraitində artırılması formasında, eyni zamanda, tərkibinə digər geni modifikasiya olunmuş soya və digər elementlər qatılaraq süni ət texnologiyasını bütün dünyada yaymağa çalışırlar. Yeri gəlmişkən, süni ətin 1 kiloqramının maya dəyəri əvvəllər 15 dollar civarında olsa da, son texnoloji yeniliklər sayəsində bu məbləğ 5 dollara endirilib. Göründüyü kimi, hazırda təbii ət və ət məhsullarının istehsalı ilə bağlı qlobal miqyasda məhdudlaşmalar gedir. Müxtəlif Avropa ölkələrində, ABŞ-da və digər dövlətlərdə heyvan saxlamaqla bağlı məhdudiyyətlər artır. Hətta bir çox hallarda insanlara öz şəxsi təsərrüfatlarında heyvan saxlamağa belə imkan verilmir, əlavə vergilər qoyulur, müxtəlif məhdudiyyətlər tətbiq olunur. Bu yolla da təbii əti sıradan çıxararaq süni ət texnologiyasını dünyada qəbul etdirməyə çalışılır. Beləliklə, qida sənayesində iri transkorporasiyaların tam hegemonluğunun təmin olunmasına səy göstərilir. Bu da müxtəlif ölkələrin ərzaq təminatının qlobal resurslardan, qlobal korporasiyalardan asılılığına gətirib çıxarır.

Eyni proses broyler sistemində də mövcuddur. Bir çox ölkələrdə təbii toxumları sıradan çıxarmağa səy göstərilir. Əvəzində geni modifikasiya olunmuş toxumlar təklif edilir. Genetik toxumlar isə reproduksiya vermədiyinə görə ölkələr hər il qlobal şirkətlərdən toxum almağa məcbur olur. Yəni bir sıra qlobal qüvvələr dünyanın qida sənayesini, qida zəncirini, qida istehsalını qlobal bir mərkəzdə formalaşdırmağa, prosesə nəzarəti öz əllərində saxlamağa çalışırlar. Bunun üçün müxtəlif texnologiyalar tətbiq olunur. Bu qüvvələr "karbon izi", "heyvandarlıq atmosferə zərər vurur", "filan bitkiləri əkmək olmaz" və s. məsələlər üzərindən manipulyasiyalar edərək dövlətləri təzyiq altında saxlayırlar.

Son illər ölkəmizdə ətin qiymətində davamlı şəkildə bahalaşma gedir. Bu da istehlakçıların gəlirlərinə uyğun deyil. Bir çox aztəminatlı ailələr ət və ət məhsullarından istifadədə çətinlik çəkirlər. Bu da, ilk növbədə, mühüm növ heyvandarlıq məhsullarından olan ət istehsalının azalması ilə bağlıdır. Yerli istehsal daxili tələbatı ödəmədiyindən idxaldan asılılıq artır. Ət istehsalında azalmanın əsas səbəblərindən biri son zamanlar bir çox örüş sahələrinin əkinə transformasiyası ilə bağlıdır. Bu da örüş yerlərinin azalmasına gətirib çıxarıb. Əhalini ciddi narahat edən bu problemi aradan qaldırmaq üçün, ilk növbədə, örüş sahələri ilə bağlı yaranmış çətinliklər öz həllini tapmalıdır. Eyni zamanda, son illər heyvandarlığın yem bazasının da zəifləməsi müşahidə olunur. Bunun da nəticəsində otun, presin qiyməti artır. Digər bir faktor taxıl məhsullarında müşahidə olunan qiymət artımı ilə bağlıdır. Sadaladığım bütün bu amillər heyvandarlığın xərclərinin artmasına və nəticədə, istehsalın azalmasına səbəb olur. İstehsalın azalması isə, özünü qiymət artımında büruzə verir.

Ölkədə heyvandarlığı inkişaf etdirmək üçün fermerlərə subsidiyalar və ya digər müxtəlif stimullaşdırıcı tədbirlər vasitəsilə lazımi dəstək göstərilməlidir. Bununla yanaşı, iri təsərrüfatlara müəyyən şərtlər daxilində güzəştlər edilməlidir ki, onlar özləri təsərrüfatlarını genişləndirə bilsinlər. Yaxud kəndlərdə təsərrüfat sahiblərinə özünüməşğulluq proqramı çərçivəsində kiçik həcmli kreditlər verilə bilər. Eyni zamanda, sözügedən proqram çərçivəsində insanlara iri və xırda buynuzlu heyvanlar verilməklə həm yerlərdə məşğulluğu artırmaq, həm də istehsalın genişləndirilməsinə nail olmaq olar. Bununla da, ölkədə məhsul bolluğu və ətin qiymətində ucuzluq yarana bilər. Özü də sadaladığım bu məsələlər xüsusi proqram şəklində həyata keçirilməlidir.

Heyvandarlığın inkişafı üçün mümkün olan bütün resurslardan istifadə etməliyik ki, ətin qiyməti qalxmasın və idxaldan asılı vəziyyətə düşməyək. Eyni zamanda, təbii ətdən məhrum olub, gələcəkdə xaricdən süni məhsul almaq məcburiyyətində qalmayaq. Bunun üçün ölkəmizin potensial imkanları kifayət qədərdir. Əksər rayonlarımızda heyvandarlığın inkişaf etdirilməsi üçün yaxşı imkanlar var. Məsələn, Ceyrançölün ərazisi çox böyük bir düzənlikdən ibarətdir. Yeri gəlmişkən, vaxtilə orada böyük heyvandarlıq təsərrüfatları olub. Bu potensial indi də var və onu bir qədər də artırmaq lazımdır. Bundan əlavə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində tarixən iri heyvandarlıq kompleksləri mövcud olub. Bu ərazidə heyvandarlığın inkişaf etdirilməsi üçün indi də çox böyük potensial var. Orada böyük və kiçik heyvandarlıq təsərrüfatları yaradılmalı, fermerlərə dövlət dəstəyi artırılmalı, subsidiyalar verilməlidir. Bundan əlavə, özünüməşğulluq proqramı çərçivəsində kiçik fermerlərə, kəndlilərə heyvanlar verilməli, onların baş sayının artırılması təmin olunmalıdır. Göründüyü kimi, ət və ət məhsullarına olan daxili tələbatı ödəmək üçün yaxşı imkanlarımız var. Bu imkanlardan yararlanmaqla idxaldan asılılığı azalda və özümüzü qlobal proseslərdən sığortalaya bilərik.

Yeri gəlmişkən, bəzi ölkələr müxtəlif heyvandarlıq məhsullarının idxal etməyə məcbur olsalar da, bizdə mənzərə tamamilə fərqlidir. Belə ki, Azərbaycanın ərazi, iqlim şəraiti, torpaq fondu, örüş sahələri imkan verir ki, biz heyvandarlığı yüksək səviyyədə, effektiv şəkildə inkişaf etdirək. Bu yolla daxili bazarın tələbatını ödəməklə idxaldan asılılığı azalda, hətta bu növ məhsulları ixrac da edə bilərik. Son nəticədə, ölkədə qiymətlər də münasib olar. Fikrimcə, buna nail olmaq üçün kənd təsərrüfatı mütəxəssislərindən ibarət komissiya yaradılmalı, xüsusi proqram işlənib hazırlanmalıdır. Eyni zamanda, Kənd Təsərrüfatı Nazirliyi ölkənin heyvandarlıq potensialını, perspektiv imkanları yenidən qiymətləndirməlidir.

Azərbaycan azsaylı ölkələrdəndir ki, aqrar sektorda xüsusi dövlət proqramları həyata keçirir, subsidiyalar, kreditlər ayırır, sektorun inkişafı üçün imkanlar yaradır. Ucqar ərazilərdə rahat yaşayışı təmin etmək, təsərrüfatların yaradılmasını asanlaşdırmaq üçün yollar çəkilir, infrastruktur qurulur. Bununla belə, effektiv idarəetmədə bəzi problemlərin həllinə ciddi ehtiyac duyulur. Bunların aradan qaldırılması ilə yanaşı, aqrar sahədə elmi-tədqiqat institutlarının bazaları genişləndirilməli, rayonlaşdırma məsələsinə xüsusi diqqət yetirilməlidir. Düşünürəm ki, məsələlərə planlı, elmi və sistemli şəkildə yanaşılsa, Azərbaycan özünün ərzaq təhlükəsizliyini tam təmin edə bilər. Çünki ölkəmizdə bu sahədə siyasi iradə mövcuddur. Cənab Prezident tərəfindən mühüm dövlət sənədləri imzalanıb. Dövlət tərəfindən böyük vəsaitlər ayrılır. Sadəcə olaraq, bunlar effektiv şəkildə idarə olunmalı, məsələyə daha düzgün, daha strateji yanaşılmalıdır.



Tanıyaq və tanıdaq

# Mir Cəlalın böyük qardaşı – Mir Xəlil

## O, Güneydə Milli Hökumətin qurucularından olub

**Şair Musa Ələkbərli və publisist Rauf Vəliyevin birlikdə ərsəyə gətirdikləri "Arazı adlayan məktublar" adlı kitabı "Elm və təhsil" nəşriyyatında çap olunub.**




Görkəmli ədib Mir Cəlal Paşayevin böyük qardaşı, Cənubi Azərbaycanda yaradılmış Milli Hökumətin qurucularından və Seyid Cəfər Pişəvərinin ən yaxın silahdaşlarından biri olan Mir Xəlil Mir Ələşrəf oğlu Xəlilinin ömür yolundan bəhs edən kitab əsasən xatirə üslubunda yazılsa da, əhatə dairəsi və fakt zənginliyi ilə diqqət çəkir. Ailəsini və uşaqlarını Arazın o tayında qoymaq məcburiyyətində qalan Mir Xəlil Mir Əli Ələşrəf oğlu Xəlilinin həsrət və intizar dolu məktublarının fotosurəti də kitaba daxil edilib.

Şair Musa Ələkbərlinin kitabda yer alan, Mir Xəlil Mir Ələşrəf oğlunun ağrılı həyatından bəhs edən "Ayrılığın sonu yoxmuş" lirik poeması "Arazı adlayan məktublar"a poetik ovqat gətirir.

Bu kitaba qədər Mir Xəlil ağanın işıqlı obrazı ilə oğlu – Musa Ələkbərlinin tələbəlik dostu Hacı Ələddin Xəlilinin "Bir axşam taksidən Təbrizə düşdüm" məqaləsi və Dəyanət Səlimxanlının tanınmış nəslin fəzilətindən bəhs edən "İlahi nur" poeması vasitəsilə ötəri tanış olmuşduq. Onun şücaətindən, xeyirxahlığından, kasıblara əl tutmasından, onları ərbabların zülmündən müdafiə etməsindən, Milli hökumət zamanı Culfadan üzü bəri Sofyan, Zəncan əyalətlərinin fərmandarı olmasından müəyyən qədər məlumatlı idik, amma "Arazı adlayan məktublar" kitabı, xüsusilə də Musa Ələkbərlinin poeması bilgilərimizi, unudulmaz şəxsiyyətlə bağlı duyğu və düşüncələrimizi daha da dolğunlaşdırdı.

Kitabı oxuya-oxuya öyrəndik ki, Cənubi Azərbaycanda Milli Hökumət (1945–1946) yaradılanda Stalinin iki Azərbaycanı birləşdirmək vədinə inananlardan biri də Mir Xəlil olub. Lakin Sovet qoşunları oradan çıxarılandan sonra, İrandakı şah üsul-idarəsi süqut edən Milli hökuməti öz qanında boğanda, fəalları dar ağaclarından asanda "Qara atlı" qəhrəman Mir Xəlil də doğma ocağını tərk edərək Arazı keçməli olub, bu tayda alim qardaşı Mir Cəlala sığınıb. Burada Hüseyn Ciddi, Seyidağa Onullahi, Əbülfəz Hüseyni, Qafar Kəndli ilə məslək yaxınlığını davam etdirib. Balaş Azəroğlu, Söhrab Tahir daim onun – Milli Hökumətin "bel sütunu" olmuş polkovnikin, fədailərin mənəvi atasının ehtiramını saxlayıblar.

Mir Xəlilin adının uca tutulmasının bir səbəbi də milli mücahidlik xidmətləri ilə bərabər, seyid övladı kimi sadə camaata sıx bağlılığı olub. Pak xilqəti, saf ürəyi həmişə onu haqqın, ədalətin yanına, doğruluğun, düzlüyün keşiyinə çəkib.

**Araza üz tutur Mir Xəlil ağa,**
**Araz səssiz-səssiz, Araz lal axır.**
**Fikri, düşüncəsi dirənir dağa,**
**Suların qoynunda bir xəyal axır...**

Poemada yer alan həsrət bayatıları da ürək sızladır:

**Araz, ara sərindi,**
**Yu, köynəyim sər indi.**
**Suyun çox dayaz axır,**
**Heyif, yaram dərindi...**

Dar günündə kiçik qardaşı Mİr Cəlal ona həyan olub, pasibanlıq edib. Poemada bu barədə belə yazılıb:

**Qardaş məhəbbəti, qardaş qayğısı**
**Ona taqət verdi çətin anında.**
**Dünyaya dəyərdi onun sayğısı,**
**Böyük Mir Cəlalı gördü yanında.**

Əsərin ən təsirli yerlərindən biri də qəhrəmanın Təbrizdə qalan zövcəsi Aliyənin Bakıdakı ömür-gün dostuna məktub yazmasıdır:

**Onunla birlikdə, onunla bahəm**
**Keçən xoş həyatı yazır Aliyə.**
**Mədinə ünvanlı hər məktubuna**
**"Miri amanatı" yazır Aliyə.**

Əsrdə Mir Xəlilin ömrünün quzey Azərbaycan səhifələri, oğlunun, qardaşı oğlanlarının nəslin adına layiq əməlləri, elmə, mədəniyyətə xidmətləri də oxunaqlı bir dillə qələmə alınıb.

**Ələddin gecəni-gündüzə qatdı,**
**Zəhmətlə qovuşdu alim adına.**
**Arif müəllim onda güvənc yaratdı**
**Özünə, sözünə, istedadına...**

Musa Ələkbərli böyük istedadla yazdığı poemanı bu misralarla bitirib:

**Mir Xəlil, Mir Cəlal... bu qoşa adda**
**Qədim bir şəcərə, ünvan yaşayır.**
**Onlar olmasa da bu gün həyatda,**
**Qardaşlıq, doğmalıq hər an yaşayır!**

Ümumi məlumatlar və kövrək xatirələrlə başlayan, sonra "Ayrılığın sonu yoxmuş" poeması verilən kitabı daha da bitkinləşdirən cəhət ardınca Mir Cəlal müəllim və onun dövrünün ədəbi cameəsi barədə qeydlərin, Hacı Ələddin Xəlilinin atası ilə bağlı özəl düşüncələrinin, onu tanıyanların ürək sözlərinin, xoş anımlı duyğularının burada yer almasıdır. Akademik Arif Paşayevin uğurlaması ilə "İlahi nur" və "Soy ağacı" kitablarının müəlliflərinin Güney Azərbaycana – Təbriz, Sofyan, Andabil, Tehran arası səyahətə getmələri də maraqla oxunan səhifələrdir.

"Arazı adlayan məktublar" bölümünü, orada çap olunan məktubları həyəcansız oxumaq mümkün deyil. Mir Xəlilin o tayda qalan Aliyəsi və övladları ilə yazışmaları, kitab mübadilələri kövrək, həzin duyğuların izharı kimi oxucu könlünü əsə alır.

İnanırıq ki, tanınmış bir nəslin yetirməsi olmuş Mir Xəlil Mir Ələşrəf oğlu Xəlilinin ömür yolundan bəhs edən sanballı kitab oxucuların böyük marağına səbəb olacaq.

*Əli NƏCƏFXANLI*
*XQ*

İlin yubileyləri: Qaçaq Nəbi – 170

# Dastanlaşmış qəhrəmanlıq

**Dünya tarixində ən böyük hünər və qəhrəmanlıqlar vətən naminə edilib. Vətən, torpaq, azadlıq uğrunda mübarizə aparanlar seçilmiş insanlardır. Onlardan biri də xalqın içindən çıxmış qəhrəman – Qaçaq Nəbi olub.**



Anadan olmasının 170 ili qeyd edilən Qaçaq Nəbi zamana qarşı sanki at oynadanlardan idi. O, həqiqi elcanlı adam kimi, ailəsini özündən, vətənini isə ailəsindən uca tutub. Ürəyində tüğyan edən millət sevgisi həyatının mənasına çevrilib. Təsadüfi deyil ki, kinolara mövzu, şeirlərə misra, musiqilərə not olub onun örnəyi.

Qaçaq Nəbi 1854-cü ildə Şərqi Zəngəzurda, indiki Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olub. İgidliyi ilə eldə, mahalda çox tanınıb. Nəbinin atası Alı kişi ailəsinin dolanacaq çətinliklərini nəzərə alaraq onu kənddəki bir varlıya muzdur verir. Yerli mülkədar kəndlilərin torpaqlarını tutmaq istəyəndə muzdur Nəbi buna dözməyib, haqsızlığa qarşı müqavimət göstərir. Bundan sonra qaçaq düşür. Özü kimi narazı kəndlilərdən dəstə düzəldir. Onun dəstəsi Naxçıvan və Zəngəzur qəzalarında qaçaqlıq edir, el-obanı zülmkarlardan qoruyurdu. Mülkədarların var-dövlətini alaraq kəndlilərə paylayırdı. Çar hökuməti 20 il Qaçaq Nəbini və dəstəsini məhv etməyə çalışmış, lakin məqsədinə nail ola bilməmişdi. Sonda – 1896-cı il martın 12-də satılmış iki xain qəflətən Nəbiyə hücum edərək onu öldürüblər. Azərbaycanın xalq qəhrəmanı Qaçaq Nəbi cəmi 42 il ömür sürüb.

Nəbi azadlıq aşiqi, haqq-ədalət tərəfdarı idi. Düzdür, o, Azərbaycanın azadlığa qovuşmasını görə bilməsə də, bir vətəndaş olaraq milli düşüncə formalaşdıra bilməsi ilə tarixə düşüb. O, Azərbaycanı müstəmləkə altında görmək istəmirdi. 22 yaşlı bir gəncin ruhunda yanan azadlıq eşqi onu dağlara, mahallara salmışdı. Özü kimi say-seçmə oğullarla bərabər məqsədinə çatmağa çalışırdı.



İgidin atı da sanki onun bir döyüşçüsü idi. El arasında indi də avazla oxunan bu mahnını kim bilmir ki...

**Bozat, məni bu davadan qurtarsan,**
**Qızıldan, gümüşdən səni nallaram.**
**Qoy mənə desinlər, ay Qaçaq Nəbi,**
**Həcəri özündən ay qoçaq Nəbi!**

Bəli, "divanı yerindən oynadan" Nəbinin ailəsi, xanımı Həcər də azadlıq amal uğrunda onunla bərabər çiyin-çiyinə şücaət, qəhrəmanlıq göstərirdi. "Aslanın erkəyi dişisi olmaz" – bu el məsəli Həcər xanımın taleyinə yazılmış bir seçim idi. O, Nəbinin dostu, silahdaşı idi. Həcər xanım qazamatda olan zaman dediyi şeir nəğməyə, dastana dönüb, dillər əzbərinə çevrilib:

**Mən gələndə şamamalar gül idi,**
**Dörd yanımı atlı düşmən bürüdü,**
**Yazıq canım qazamatda çürüdü,**
**Mənim bu günümdə gələsən, Nəbi,**
**Zalımlar əlindən alasan, Nəbi!**

Qaçaq Nəbinin haqqında yaranan el dastanı, Süleyman Rüstəmin "Qaçaq Nəbi" pyesi, Cəlal Bərgüşadın "Bozatın belində" romanı, çoxsaylı şeirlər əldən-ələ, dildən-dilə gəzir. Onun hqqında məlumatlar Tifls, Bakı və Naxçıvan dövlət arxivlərindən, "Kavkaz" qazetinin səhifələrindən əldə edilib və tarixi həqiqətlər faktiki sübut-dəlillərlə öyrənilib. Əbdül Mahmudovla Həsənağa Turabovun quruluşunda çəkilmiş "Atları yəhərləyin" və ya "Qanlı zəmi" filminin əsas motivlərini ssenarist Əhmədağa Muğanlı Süleyman Rüstəmin pyesindən götürüb. Burada xalq qisasçısı, əfsanəvi qəhrəman Qaçaq Nəbinin, onun dəstəsinin göstərdiyi igidliklərdən məhəbbətlə söhbət açılır. Əhliman Axundov, Bəhlul Behcət kimi yazıçı və şairlər əsərlərində Qaçaq Nəbini sevə-sevə tərənnüm ediblər.

Bəli, Nəbi bizim qəhrəmandır. O, azadlıq hərəkatının mübarizlərindəndir. Kasıbın dostu, haqqın gücü idi Nəbi. Onun azadlıq alovunu söndürmək mümkün deyildi. Çar canişinləri bunu gözəl anlayırdı. Və əlbəttə, ancaq xainliklə Nəbiyə qalib gəlmək olardı ki, elə də oldu. Namərd xəyanəti – "arxadan vurulan zərbə" Nəbinin vətən eşqiylə döyünən ürəyinə bıçaq kimi saplandı... Amma bu, Azərbaycan xalqının azadlıq eşqini söndürə, iradəsini sındıra bilmədi. Zaman Nəbinin "Aynalı" tüfənginin gücü ilə olmasa da, azadlığı bizə bəxş etdi. Cismən deyil, ruhən Nəbinin ürəyini, beynini özündə yaşadan oğullar sayəsində.

Qaçaq Nəbinin qəhrəmanlığı Azərbaycanın şöhrət tarixinə bir mirasdır. Bu mirasdan bəhrələnən yurdumun qəhrəman oğulları müstəqillik qazanıblar, 30 il işğalda qalan Qarabağı, Şərqi Zəngəzuru qanları, canları bahasına azad ediblər.

Ruhun şad olsun, xalq qəhrəmanım!

*Könül Absəttar qızı*

# 70 kitabda yaşayan söz dünyası

**Azərbaycan Yazıçılar Birliyində (AYB) görkəmli yazıçı İsmayıl Qarayevin yaradıcılığına həsr olunmuş xatirə gecəsi və kitablarının təqdimat mərasimi keçirilib.**



Xalq yazıçısı Çingiz Abdullayev "Ömürdən sonra…" adlanan məclisi açaraq bildirib ki, İsmayıl Qarayevin əsərləri həyatın müxtəlif aspektlərini, insanın daxili dünyasını təsvir edərək, oxuculara dərin düşüncə və yeni baxış bucağı təlqin edir.

AYB Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Əsəd Cahangir yazıçının həyatı barədə məlumat verib. O deyib ki, İsmayıl Qarayev 1927-ci il dekabrın 5-də Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində anadan olub. Gəncə Tibb Texnikumunu və Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Əmək fəaliyyətinə tibb işçisi kimi başlasa da, sonralar bir neçə qəzet və nəşriyyatda işləyib, həmçinin müxtəlif ədəbi-bədii verilişlərin ssenari müəllifi, aparıcısı və redaktoru olub.

Xatırlanıb ki, yazıçının ilk kitabı "O və mənim anam" 1964-cü ildə çapdan çıxıb. İsmayıl Qarayev 120-dən artıq roman, povest, poema, publisistik əsərin, onlarla kitabın müəllifi, bir çox məşhur yazıçıların əsərlərinin redaktoru, bir neçə xarici ölkə yazarlarının əsərlərinin tərcüməçisi kimi zəngin yaradıcılıq yolu keçib, əsərləri türk, rus və digər dillərə tərcümə edilərək nəşr olunub. Sağlığında "Aydınlıq", "Tərtərin mahnıları", "Dəniz və dənizçi zarafatları", "Ömür", "Əməyin bəhrəsi", "Gecə keçir", "Tülkü və canavar", "V.Şklovski.Marko Polo" (tərcümə) kitabları çap olunub. Vəfatından sonra yazıçının 70-dən artıq kitabı dəfələrlə nəşr edilib.

Tədbirdə Xalq şairi Nəriman Həsənzadə, Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov, AYB-nin katibi, yazıçı Elçin Hüseynbəyli, Azərbaycan Dövlət Nəşriyyatının baş redaktoru, Əməkdar jurnalist Əlövsət Ağalarov, YAP Həmkarlar İttifaqı Komitəsinin sədri Məhəmməd Məhərrəmov, "Apostrof-A" mətbəəsinin direktoru Akif Dənzizadə, AYB sədrinin müşaviri Rauf Aslanov, AYB-nin katibi, şair, tərcüməçi Səlim Babullaoğlu, Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev və digərləri İsmayıl Qarayevlə bağlı xatirələrini bölüşüblər.

Sonda yazıçının övladı, tanınmış yazıçı-publisist Vəsimə İsmayılqızı atası ilə bağlı xatirələrini bölüşüb. Qeyd edib ki, 2008-ci ildə yazıçının həyat və yaradıcılığından bəhs edən "Qələmə sarılmış ömür" adlı biblioqrafik göstərici kitabı nəşr olunub.

*XQ*

# "Cavabsız məktublar"ın təqdimatı

Cəlilabad rayonundakı Heydər Əliyev Mərkəzində Azərbaycan ədəbiyyatında öz dəsti-xətti olan mərhum şair Abbasağa Azərtürkün 90 illik yubileyi və şairin "Cavabsız məktublar" kitabının təqdimatı keçirilib.

Yeni toplu şairƏdalət Salmanın redaktorluğu ilə nəşr edilib. Filologiya elmləri doktoru Vaqif Yusifli kitaba yazdığı "Şair səfərdədir–axtarışdadır" adlı Ön sözdə qeyd edir ki, Abbasağa ömrünün sonuna qədər "Şair" şərəndəki andına, məramına sadiq qalıb:

**Qoşduğu nəğmələr düşər dillərə,**
**Diləklər bəsləyən ürəkdir şair.**
**Döyüş meydanında daim əllərə**
**İsti silah kimi gərəkdir şair!**

O, istedadlı şair idi – daxilində potensial yaradıcılıq enerjisi vardı. Digər müasirləri kimi məlum mövzularda yazıb-yaratsa da, heç kimi təkrar və təqlid etmirdi. Yeni toplusundakı "Zirehə dönmüşəm, gülləbatmazam", "Məni heyran edənə canlıca heykəl demişəm" kimi bölmələrdə ipə-sapa düzülən şeirlərində də onun necə təbli şair olduğu bir daha görünür. Şeirinə müraciətlə yazdığı misralar da bunu təsdiq edir:

**Sayəndə seçmişəm qaranı ağdan,**
**Dinmisən, sorağın min yerdən gəlib.**
**Məni çıxarmısan neçə sınaqdan,**
**Səsin döyüş günü səngərdən gəlib.**

Abbasağa ixtisasca müəllim idi. Amma o, təkcə məktəbdə dərs demirdi, həm də Cəlilabadda və ümumən Cənub bölgəsində ədəbi ağsaqqallardan biri, cavan şairlər üçün bir müəllim idi. Əlbəttə, Azərbaycanın hər bölgəsində ədəbi həyat davam edirdi, amma Abbasağanın timsalında onun yaşadığı Cəlilabadda bu ədəbi həyat daha gur keçirdi.

Cəlilabad Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, AYB Lənkəran bölməsinin və regional mədəniyyət idarəsinin dəstəyi ilə təşkil olunan məclisdə bölgədə yaşayan şair və yazıçılar, tanınmış ziyalılar, veteran müəllimlər və ictimaiyyət nümayəndələri iştirak ediblər. Şair-publisist Ədalət Salmanın mediatorluğu ilə keçən tədbirdə AYB Lənkəran bölməsinin sədri Qafar Cəfərli, Cəlilabad Rayon İcra Hakimiyyətinin məsul işçisi Varid Əsgərov, şair və yazıçılardan Əfrahim Abbas, Meyxoş Abdullah, Ağamir Cavad, Asif Həsənli, Səyavuş Süleymanlı, Gülbala Teymur, Ruhiyyə Abbaszadə, veteran müəllimlər Atamalı Əliyev, Ədalət Əsgərov, Elxan Əliyev, Adıgözəl Nuriyev, Adil Hüseynov, bədii qiraətçi Tarix Vüsallı və başqaları çıxış edərək yubileyi qeyd olunan Abbasağa Azərtürkün həyat və yaradıcılığı haqqında geniş danışıb, onunla bağlı xatirələrindən söz açıb, şairin şeirlərindən nümunələr söyləyiblər. Bədii qiraətçilərin ifa etdiyi şeirlər də maraqla qarşılanıb.




Sonda şairin oğlu Əli Hüseynov məclisin təşkilatçılarına və iştirakçılara öz minnətdarlığını bildirib və hər kəsə "Cavabsız məktublar" kitabı hədiyyə olunub.

*Ə.ƏLİYEV*
*XQ*

# "Mənim dostum Meir" Almaniyada

**Münxen şəhərində azərbaycanlı rejissor Rüfət Əsədovun "Mənim dostum Meir" sənədli filminin təqdimatı keçirilib.**

Avropa Yanuş Korçak Akademiyasının dəvəti ilə baş tutan tədbirdə Münxendə yaşayan Azərbaycan və yəhudi diasporlarının fəalları, mədəniyyət xadimləri iştirak ediblər.

Təqdimatdan əvvəl rejissor Rüfət Əsədov tamaşaçılarla görüşüb və filmdə ölkəmizdə yaşayan dağ yəhudilərinin doğulub boya-başa çatdıqları Azərbaycana sonsuz məhəbbətlərinin, Vətənə bağlılıqlarının tərənnüm olunduğunu vurğulayıb. O, həmçinin, ekran əsərinin dağ yəhudilərinin Azərbaycanda qorunub saxlanılan adət-ənənələrindən və milli-mənəvi dəyərlərindən bəhs etdiyini bildirib.

Qeyd olunub ki, film Azərbaycan ilə İsrail kinematoqrafçılarının birgə işidir.




Ekran əsəri böyük maraqla qarşılanıb.

*XQ*

Zəfər yolçuları

# Suqovuşandan başlayan əbədiyyət yolu

**Şəhidlik bir kitabdır, dərslikdir– vətəndaşlıq, Vətən sevgisi dərsliyi. Bu dərsliyin içi canlıdır, Vətən övladlarıdır – analarının boyuna güvəndiyi, ətrindən doymadığı, çiçəyi burnunda, adları Vətən daşına əbədi yazılan oğullar. Belə oğullardan biri Yevlax rayonunun Nərimanabad kəndində Cabbarov Akifin evində doğulub böyüyən Orucdur. Bütün şəhidlər kimi, onun da məzarındakı çiçəklər hər zaman təzədir. Nə zaman ziyarətinə getsən, üstündəki çiçəkləri tər görərsən, çünki bura ziyarətgaha çevrilib.**



Oruc Cabbarov 1999-cu il dekabrın 6-da, bir soyuq qış günündə doğulmuşdu. İki bacının– Gülsümlə Gülərin tək qardaşı idi. İndi müzəffər bir millətin and yeridir. Nərimanabad kənd tam orta məktəbini bitirdikdən sonra 2017-ci ildə hərbi xidmətə çağırılıb. Hərbi xidmətini ləyaqətlə başa vursa da, həyatını hərbi işə həsr edərək müddətdən artıq həqiqi hərbi xidmətini davam etdirir.

Sentyabrın 27-də düşmənin elan olunmamış müharibəsi neçə-neçə oğullarımızın arzularını ürəyində qoydu. Həmin gün Oruc hərbi hissədən Tərtər, Ağdərə istiqamətində gedən qızğın döyüşlərə qatılır. Atası Akif Birinci Qarabağ müharibəsində könüllülər batalyonunda döyüşmüşdü. Ata müharibənin nə demək olduğunu yaxşı bilirdi. Göydən ələnən güllə yağışına nə dayan, nə də dur demək olurdu. Ona görə də çox narahat olur, o anları bu dəfə daha ağır yaşayırdı. O güllənin altındakı canından çox sevdiyi övladı idi.

Dayısı Zeynal Zamanov da müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi, Orucla bir yerdə döyüşürdü. Oktyabrın 6-sı səhərə yaxın saat 04:00-da Oruc atası ilə danışır: "Ata, narahat olma, yuxarı çıxırıq. Hər şey yaxşı olacaq" –deyə ümid verir. Həmin gün əmr verilir ki, tabor döyüşə getməlidir. İgidlərimiz dərhal hazır vəziyyət alırlar. Oruc əvvəlki döyüşlərdə ayağından yaralansa da, döyüş yoldaşlarına qoşulur. Onlar Talış–Ağdərə–Suqovuşanın sol sahilindəki yüksəklikdə döyüşürlər. Həmin yüksəklik düşmənin nəzarətində olduğundan xətti yarmaq çətin idi, amma ağır döyüşlərlə yüksəklik azad edilir. Oktyabrın 10-da həmin ağır döyüşlərdə Oruc qəhrəmancasına şəhid olur.

Oruc babasının adını daşıyıb və babasıgillə bir yerdə yaşayıb. Çox sevərmiş Oruc babası adaşı olan nəvəsini. Oruc babanın rəhmətə getdiyinin 40-cı günü nəvə Oruc da şəhidlik zirvəsinə yüksəlib, Vətən torpağına əmanət edilib.

Oğul dünyaya gətirən ananın sevinci ilə, oğlu şəhid olan ananın kədəri heç nə ilə müqayisə edilmir. Orucun səsi hələ də anası Ülviyyə xanımın qulaqlarındadır və ömrünün sonunadək bu səslə yaşayacaq: "Telefonu anama verin bir səsini eşidim. Narahat olma, ana, mən əlayam, döyüş xəttindən çox uzaqdayam..." Ana deyir ki, elə bilirdi inanıram, çünki özümü inanırmış kimi aparırdım. Balamın səsindən, nəfəsindən ötrü çox darıxıram – deyib, yaşı qurumayan gözlərini bizdən çəkmir. Sonra da fikrinə davam edir: "Nə edək, balamız Vətənə lazım idi, o da borcunu qanı-canı ilə verdi. Təsəllimiz budur. Atası da, bacıları da, mən də bu adın işığında yaşayacağıq bundan sonra"– deyir və onlara göstərilən hərtərəfli diqqət və qayğıdan razılıqla danışır.

Ailənin od tutub alışan ürəyinə su səpən şəhidin döyüş dostları var, sağolsunlar, tez-tez ailəyə baş çəkir, qorxmaz və cəsarətli balamız haqqında qürurla danışırlar. Çox böyük ruh yüksəkliyi vardı Orucda, tez bir zamanda düşməni məhv edəcəyik, – deyirmiş. 44 günlük müharibə bir çox ana-atanı övlad həsrətli qoysa da, yurd həsrətimizə son qoydu.

Özümdə güc toplayıb şəhid ailəsi ilə hal-əhval etdik, acı günləri xatırladıq, amma içimizdə qürur vardı. Öyrəndim ki, Orucun böyük bacısı Gülsüm ailəlidir, Alxan və Asiman adlı iki oğul böyüdür. Oruc şəhid olanda 6-cı sinifdə oxuyan kiçik bacısı Gülər indi kollecdə təhsil alır. Atası Akif kişi ilə anası Ülviyyə xanım Nərimanabad kəndində yaşayır, el-obadan, rayon rəhbərliyindən və camaatdan razılıq edirlər. Hamının onlara hörmətlə yanaşdığından ürəkdolusu danışırlar.

Cabbarov Oruc Akif oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Orucun uğrunda canından keçdiyi Qarabağ Azərbaycandır!

*Əminə YUSİFQIZI,*
*Əməkdar jurnalist*

Beynəlxalq həyat

# Suriyada hadisələr günbəgün qəlizləşir

(əvvəli 1-ci səhifədə)

Dünən səhər silahlı müxalifət Rastan şəhərinə də nəzarəti də ələ keçirib. Rastan Homs əyalətinin üçüncü ən böyük şəhəridir. Son məlumatlara görə, üsyançılar artıq Homs şəhərinin 3 kilometrliyinə qədər yaxınlaşıblar.



Əsəd qüvvələrinin Homs uğrunda döyüşlərdə ciddi müqavimət göstərəcəyi gözlənilir. İqtidarı dəstəkləyən ələvi əhalisi kompakt şəkildə əsasən bu ərazidə məskunlaşıb. Əsəd ailəsi ələvidir. Rejimin elit dəstələri məhz onlardan təşkil olunub.

Görünən budur ki, üsyançılar nəyin bahasına olursa-olsun, mövcud hakimiyyəti diz çökdürmək əzmindədir. "Təhrir-əl-Şam" təşkilatının rəhbəri Əbu Məhəmməd Əl-Cövlani bildirib ki, hücumların məqsədi Əsəd hökumətini devirməkdir. O vurğulayıb ki, bu hədəfə çatmaq naminə bütün səylərini ortaya qoyacaqlar.

Türkiyə rəsmiləri Suriyada baş verənlərə münasibət bildiriblər. Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, "müxalifət İdlib, Həmanı aldı, Homs uğrunda döyüşlər gedir. Hədəf, təbii ki, Dəməşqdir. Müxalifətin yürüşü davam edir və ümid edirik ki, bu, insidentsiz və problemsiz davam edəcək. Əsədə çağırış etmişdik. Gəlin Suriyanın gələcəyini birlikdə müəyyən edək demişdik. Ancaq müsbət cavab ala bilmədik".



Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuat Oktay Bakıda jurnalistlərə açıqlamasında vurğulayıb ki, Ankara PKK-nın hansısa bir qolunun Suriyada terror dövləti qurmasına icazə verməyəcək. Qeyd edib ki, Türkiyənin prioriteti sülhün əldə olunması, terrora son qoyulmasıdır.

Dünən Türkiyənin xarici işlər naziri Hakan Fidan ilə ABŞ-nin dövlət katibi Antoni Blinken arasında telefon bağlantısı olub. Türkiyəli diplomat bildirib ki, Suriyadakı xaosdan istifadə edərək terrorçu PKK və onun uzantılarının faydalanmasına imkan verməli olmaz. Fidan, həmçinin hesab edir ki, Əsəd rejimi reallığı nəzərə alaraq təcili surətdə müxalifətlə dialoqa getməlidir.

"The New York Times" qəzeti bildirir ki, İranın bəzi diplomatik işçiləri və onların ailə üzvləri, eləcə də adi vətəndaşları Suriyanı tərk edirlər. İnsanların bir hissəsi təyyarələrlə Tehrana, digər hissəsi isə yerüstü nəqliyyat ilə Livan, İraq və Suriyanın Latakiya limanına göndərilib. Rəsmi Tehran bu məlumatı inkar edib.

Çin isə rəsmi olaraq vətəndaşlarını silahlı münaqişənin genişlənməsi fonunda Suriyanı tərk etməyə çağırıb. Misir və İordaniya rəsmiləri isə Əsədi ölkəni tərk etməyə və sürgündə hökumət qurmağa çağırıblar. Bu barədə cümə günü "The Wall Street Journal" qəzeti mənbələrə istinadən məlumat yayıb.

Nəşr, həmçinin bildirir ki, "cümə günü Əsəd Suriyada qalırdı" və keçən həftə onun həyat yoldaşı və uşaqları "Rusiyaya gedib". Qəzetin məlumatına görə, Əsəd Türkiyədən "üsyançıları dayandırmaq üçün müdaxilə etməsini" xahiş edib, həmçinin Misir, İordaniya, İraq və Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) silah və kəşfiyyat dəstəyi istəsə də, rədd cavabı alıb.

Bəli, Suriyada olduqca dramatik hadisələr cərəyan edir. Üsyançılar bu dəfə mövcud rejimi aradan götürə biləcəklərmi? Rusiya və İran Suriyanın hökumət qüvvələrinə nə qədər dəstək verə bilər? Bu və digər sualların cavabını isə zaman göstərəcək.

*M. HACIXANLI*
*XQ*

# Boşanma və erkən nikah cəmiyyətə daxildən zərbədir

## *Sağlam ailə modeli bu bəlanın qarşısına sədd çəkməlidir*

**Son illər Azərbaycanda boşanma hallarının artması və erkən nikahların mənfi təsirləri cəmiyyətin diqqət mərkəzindədir. Bu mövzu həm sosial, həm də psixoloji aspektlərdən araşdırılmalı və mümkün həll yolları təklif olunmalıdır.**

Müsahibimiz Ailə və Uşaqlara Sosial Dəstək İctimai Birliyinin sədri Elnura Abuşova ilə boşanmaların əsas səbəblərindən danışdıq.

**Elnura xanım, illər keçsə də ailədaxili zorakılıq və hörmətsizlik boşanmaların əsas səbəbi olaraq qalır. Siz necə düşünürsünüz?**

– 2024-cü ilin yanvar–sentyabr ayları ərzində qeydə alınan nikah və boşanmaların sayına nəzər salaq. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə nikahların sayı azalaraq 5,1-dən 4,8-ə düşüb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (2,1) qalıb.

Ailədaxili zorakılıq, istər fiziki, istərsə də psixoloji formada, boşanmanın başlıca səbəblərindəndir. Tərəflər arasında düzgün ünsiyyətin olmaması münasibətləri zəiflədir. Ona görə maliyyə və digər problemlər də bəzən ailələrin formalaşmasında öz sözünü deyir. Ailə büdcəsinin düzgün idarə edilməməsi, maliyyə çatışmazlığı və ya xərcləmə ilə bağlı mübahisələr də tez-tez münasibətləri pozur.

**– Ailədaxili zorakılığın qarşısını necə almaq olar?**

– Bu sahədə hüquqi müdafiə mexanizmlərinin gücləndirilməsi və sosial dəstək proqramlarının genişləndirilməsi vacibdir. Təəssüf ki, bu məsələlərlə məşğul olmalı qurumlar müasir dövrün tələblərinə inteqrasiya ola bilmir, köhnə mexanizmlə fəaliyyət göstərir. Müasir ailələrin dağılmasında, yaxud faciə ilə sonlanmasında sosial şəbəkələr də az rol oynamır. Evlilikdə tərəflərdən birinin xəyanəti və ya davamlı etibarsızlıq mühiti boşanma üçün əsas səbəb kimi ortaya çıxır.

**– XXI əsrdə yaşasaq da, təəssüf ki, ölkəmizdə erkən nikah problemi hələ də qalmaqdadır.**

– Cari il ərzində Dövlət Komitəsinə erkən evliliklərlə bağlı 16 müraciət daxil olub. Ümumilikdə 16 müraciətdən 11-nin qarşısı alınıb, 1- nin əsassız olduğu müəyyən edilib.

Erkən nikahı müasir cəmiyyətimiz üçün bəla hesab edirəm. Cənub regionumuzdan bircə kəndi misal çəkəcəyəm. Yardımlının Köryədi kəndində 2 azyaşlı qız nişanlandı. Bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə məlumat verildi. Qurum işi Yardımlı Rayon Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyasına yönəltdi. İcradan zəng edib ünvan istədilər. Halbuki kiçik ərazidir. O kənddə hamı bir-birini yaxşı tanıyır və məlumatdan da xəbərdardırlar. Guya nəzarətə götürdülər. Həmin qızlar sonra da başqa oğlanlara (ikisi də işsiz gənclər idi) qoşulub qaçdılar. Polis qızları ailələrinə geri qaytardı. Hər ikisi artıq ləkəli hesab olunurdu. Sizcə ucqar dağ rayonunda ailələri o qızları qəbul edər?





**– Onların taleyi necə oldu?**

– Bu taleyi yaşayan minlərcə azyaşlı qızlar kimi. Birini Sumqayıtda sığınacaqa yerləşdirdilər. O birini də Salyanda ana nənəsinə verdilər. Məlumata görə, ordan da gəlib şəhərdə, hansısa mağazada işləyir. Maraqlı da budur ki, o uşaqların bütün qız sinif sinif yoldaşları nişanlıdır. Özü də yaşca 10-14 yaş böyük oğlanlara. Həmin kənddə tanıdığım bir ailənin oğlunun 32 yaşı var, 15 yaşlı qızla nişanlanıb. Bu, təkcə bir kənddən olan neqativ hallardır. Belə kəndlər ölkəmizdə bilirsiniz nə qədərdir? 15-16 yaşlı qızlar ərə gedir. Onların taleyi ilə sonra maraqlanan olurmu?

**– Erkən yaşda nikahlar tərəflərin ailə həyatına yetərincə hazır olmaması səbəbindən dağılma və faciələrlə nəticələnir...**

– Erkən evliliklərdə həyat yoldaşlarının bir-birini tanımadan və ya məcburiyyət altında ailə qurması, hadisələri düzgün qiymətləndirə bilməməsi münasibətləri dayanıqsız edir. Gənc yaşda nikahlar xüsusilə qızların təhsil və psixoloji inkişafına mənfi təsir göstərir. Yeniyetmə yaşda evlənmək onların həyat perspektivlərini məhdudlaşdırır. Digər tərəfdən erkən nikahlar səbəbindən qadınların işsizlik səviyyəsi artır, bu da cəmiyyətdə sosial bərabərsizliyə səbəb olur. Bu cür nikahdan doğulan uşaqlar da problemlərdən kənar qalmır. Belə ailələrdə doğulan uşaqlar adətən, daha az resurs və qayğı görür, bu da onların inkişafına mənfi təsir edir.

**– Bəs ailələrin qorunması, eləcə də erkən nikahların olmaması üçün nə etmək olar?**

– Boşanma ərəfəsində olan ailələr üçün psixoloji yardım və ailə məsləhət mərkəzlərinin təşkil olunması problemin həllinə kömək edə bilər. Təhsilin və hüquqi maarifləndirmənin artırılması, xüsusilə də regionlarda erkən nikahların qarşısını ala bilər. Bəzən vəziyyət o qədər ağır olur ki, qızların, qadınların, ümumiyyətlə ailələrin üzləşdiyi problem sosial şəbəkələrdə qabardılır, buna reaksiya da verilir. Amma bu da çox vaxt formal xarakter daşıyır, göstərişlər verilir, amma nəticə ilə maraqlanan olmur. Sosial şəbəkəyə çıxmayan digər məsələlərlə bağlı vəziyyətin monitorinqi üçün şərait yaradılmır. Hazırda məlumatlara görə, Zaqatala-Balakən zonasında da bu sahədə vəziyyət acınacaqlıdır.

**– Ölkədə kifayət qədər qadın problemləri var ki, onların qanunvericilikdə həlli ilə bağlı çətinlik var.**

– Elədir. Məişət zorakılığı haqqında qanun 2010-cu ildə qəbul edilib, kifayət qədər zaman keçib, amma hələ dəyişiklik, təkmilləşdirmə yoxdur. Təkliflər toplayırlar, onu da təsdiq etdirməkdə çətinlik çəkirlər. Aidiyyatı qurumların fəaliyyətini izlədikdə aydın görmək olur ki, media və QHT ilə əməkdaşlığı son zamanlar ümumiyyətlə zəifləyib.

Bəzi dövlət qurumları qadın QHT sədrləri ilə əməkdaşlıqdan uzaqdırlar. Hansısa bir məsələdə yalnız məktub göndərərək cavab alırsan. Göndərilən məktubun davamı, müdafiəsi, hadisələrdə iştirak yoxdur. Başa düşürük ki onlar əsasən qanunvericilik siyasətinin müəyyən edilməsinə cavabdehdirlər, amma bu istiqamətdə QHT ilə birgə iş görmək və onların fəaliyyətinə dəstək verərək bərabər çalışmaq cəhdləri də görünmür.

Ailə dəyərləri xalqımız üçün müqəddəsdir. Azərbaycan cəmiyyətinin sağlam inkişafı üçün ailə institutunun gücləndirilməsi, erkən nikahların və boşanma hallarının azalması istiqamətində ciddi tədbirlər görülməlidir. Bu mənada əlaqədar qurumların üzərinə böyük iş düşür. Onlar fəaliyyətlərini müasir dövrün tələblərinə uyğunlaşdırmaqla bu məsələlərin müsbət həllinə nail ola bilərlər.

*Leyla QURBANOVA*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 271 (30675) 8 dekabr 2024-cü il, bazar

## “Sərhədçi” Azərbaycan çempionu oldu



**Atçılıq Federasiyasının təşkilatçılığı ilə keçirilən Peşəkar Çövkən Liqasının qalibi müəyyənləşib.**

Binə Atçılıq Mərkəzinin qapalı manejində son turun oyunları, 3-cü yer və çempionluğu müəyyən edəcək həlledici qarşılaşmalar keçirilib.

Günün ilk görüşündə “Elit” komandası “Şirvan”ı 5-0 hesabı ilə məğlub edib. Növbəti qarşılaşmalarda “Omar” “Qarabağ”ı 7, “Zəfər” “Ağstafa Dilbaz”ı 5, “Polad” “Köhlən”i 12 cavabsız qolla üstələyib.

Günün son, mövsümün isə final matçında “Sərhədçi” “Embavud” üzərində 13-0 hesablı qələbə qazanaraq çempionluq tituluna yiyələnib.

18 tur ərzində keçirilmiş, ümumilikdə, 90 oyunda əldə edilən nəticələrə əsasən, Peşəkar Çövkən Liqasını “Sərhədçi” birinci, “Polad” ikinci, “Zəfər” isə üçüncü pillədə başa vurub.

## Bədii gimnastika üzrə hakimlərimizin uğuru




**Azərbaycanın bədii gimnastika üzrə hakimləri tarixdə ilk dəfə 1-ci kateqoriyaya layiq görülüblər.**

Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətinin məlumatına görə ədalət təmsilçiləri İsveçrənin Lozanna şəhərində Beynəlxalq Gimnastika Federasiyası tərəfindən keçirilən 2025-2028-ci illər olimpiya dövrünü əhatə edən qitələrarası hakimlik kurslarında yüksək nəticə göstəriblər.

Nigar Abdusalimova fərdi proqramda 1, qrup hərəkətlərində 2-ci kateqoriyaya yiyələnib. Yevgeniya Vilyayeva qrup hərəkətlərində 1, fərdi proqramda 2-ci kateqoriyaya sahib çıxıb.

Bundan əlavə, Səbinə Hacıyeva (fərdi proqram üzrə) 2-ci, Vəfa Bəkərova (qrup hərəkətləri üzrə) 3-cü kateqoriyanı əldə ediblər.

*L.QURBANOVA*
*XQ*


## OXUCULARIN NƏZƏRİNƏ!

### “Xalq qəzeti”

### *2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Naxçıvanda hamı üçün idman



**Naxçıvan şəhərində 8 yerdə açıq hava idman qurğuları quraşdırılır.**

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, artıq quraşdırma işi tamamlanan 5 idman meydançası əhalinin istifadəsinə verilib.

Bu münasibətlə dekabrın 7-si təqdimat tədbiri keçirilib. Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərinin icraçısı, nazir müavini Məcid Seyidov dövlət proqramı çərçivəsində həyata keçirilən sosial layihənin əhəmiyyəti barədə danışıb, qurğuların quraşdırılması ilə bağlı məlumatları diqqətə çatdırıb.

Qeyd edək ki, yeni idman meydançaları Heydər Əliyev prospekti, Əliabad qəsəbəsi, Əziz Əliyev küçəsi (2 yer) və Əlincə məhəlləsində yerləşir. Şəhərin daha 3 ərazisində quraşdırma işləri yekun mərhələdədir və qarşıdakı günlərdə istifadəyə verilməsi nəzərdə tutulub.

*XQ*

**Dünənin gizlinləri**

# Beriya niyə Nazim Hikmətin ölümünü sifariş etmişdi?

**Nazim Hikmət haqda indiyədək çox kitablar oxudum. Amma ən gözəli “Romantik kommunist” kitabı oldu. Bu kitab Nazimin bioqrafiyasını bütünlüklə əhatə edən ən mükəmməl kitabdır. Burda gözdən, nəzərdən qaçan bir nüans belə tapa bilməzsən. Əksinə, indiyədək Nazim haqda bilmədiyimiz, onun haqqında yazılmış kitabların heç birində rastlaşmadığımız ilginc faktlarla rastlaşırsan və heyrətlənirsən.**



O, məğlubiyyətini qələbəyə çevirməyi bacardı... Əvvəl məhbəs, sonra isə qürbət həyatı yaşadı, amma sona qədər inamlı və romantik kommunist olaraq qaldı...

Xatırlayıram, illər öncə İstanbulun nəfəs kəsən istisində, sərin otel odasında oturub Nazim Hikmətin bioqrafiyasını oxuyurdum. Gülhanə parkının səs boğan sıxlığında, möhtəşəm və qulaqbatıran sükut içində Nazimin ayaq izlərini axtarırdım. İri ölçülü ayaqqabıları ilə bu parkdan keçib gedən “mavi gözlü dev”in ayaq izləri Moskvaya, oradan yenidən İstanbula, yenə Moskvaya doğru uzanır...

Əslində, bu yaza bilmədiyim yazını heç də belə başlamaq istəmirdim, ürəyimdəkiləri qabağıma çıxan ilk türkə, tanıyıb-tanımamağımdan asılı olmayaraq, hamımızın başa düşə biləcəyi ortaq bir dildə danışmağı arzulayırdım. Nazimin ağrılarından danışmaq istəyirdim...Amma bu boyda şəhərdə o arzuladığım insan qarşıma çıxmadı və mən uzanan zaman məsafəsinin getdikcə uzaqlaşan toranlığında “Kərəm kimi” şeirini xatırladım. Bu şeiri oxuyanda çox balacaydım və şeir bir dilim alov kimi içimi qarsalayıb keçdi. O vaxt heç bu şeirin mahiyyətini də anlamamışdım, amma mən o misraları anlamaya-anlamaya necə rahatlıqla həzm etdim görəsən?!

O şeir Nazim Hikmətin yaradıcı taleyini, həm də bir insan olaraq yaşamını deklarizə edirdi. Çox sonralar Nazim haqda yazılar yazdım və hər dəfə yazmağa başlayanda o şeirin uşaq yaddaşımdakı havası həzin-həzin içimi bürüyürdü. İndi də o havanın ovqatı içindəyəm...

Rus şairi Yevgeni Yevtuşenko kitaba yazdığı ön sözdə olduqca maraqlı bir əhvalat nəql edir. O yazır ki, 1955-ci ildə Nazim Hikmət kinoaktyor Yuri Vasilyevlə məni bir neçə günlüyə Peredelkinoya dəvət etdi. Şair orada qeyri-adi bir hadisənin şahidi olur. Kənardan onları izləyən bir adam Nazimə yaxınlaşır və qarşısında diz çökür:

“Tanrı eşqinə, məni bağışla, Nazim, məni günahımın yükündən qurtar...Sənə deyəcək sözlərim var”. Nazim həmin adamı qollarından tutub qaldırdı. “Ayağa qalx, qardaşım. Heç nə demək lazım deyil”. “Olmaz, mütləq deməliyəm. İllərdir ki, içimdə bu sirri saxlayıram, daha dözə bilmirəm”. Dəvətsiz qonaq uzun müddət ona əzab verən gizli hadisənin üstünü dili dolaşa-dolaşa açıb-tökməyə başladı.

1951-ci ildə Nazim Moskvaya dönərkən onun üçün şəxsi maşın və sürücü ayrılmışdı. İndi qarşımızda dayanan həmin sürücü idi. Bu adam Nazimin sürücüsü olarkən bir gün onu Lubyankaya çağırırlar. Onu Beriyanın yanına aparırlar, bu adamı görcək sürücünün qorxudan dili tutulur.

-Kimə sürücülük etdiyini bilirsənmi? – deyə Beriya ondan soruşur.

“Sülh Mükafatının sahibi...bir türk kommunisti...Böyük şair...Sovetlər Birliyinin dostu...” - deyə çaşqın sürücü cavab verir.

“O, Sovetlər Birliyinin dostu deyil, düşmənidir”, – deyə Beriya səsini qaldırır. “Nazim inqilabçı maskası taxmış təcrübəli bir düşməndir. Yoldaş Stalini öldürmək istəyir. Amma onu həbs edə bilmərik. Onun şöhrəti buna imkan vermir. Ondan xilas olmağımız üçün bizə yardım etməlisən! Onu qəzaya salmaq lazımdır. Bu da sənin əlindədir. Beləliklə, başımızdan bir casus əskik olacaq”.

“İnana bilmirəm. Nazim mənim üçün ata əvəzidir” –deyir sürücü.

Beriya isə qaşlarını çataraq “hamımızın bir atası var” söyləyir (Stalini nəzərdə tuturmuş).

Ertəsi gün sürücü yenidən Lubyankaya çağırılmış, ona Nazimi qəzaya salmaq tapşırılmışdır. Sürücü bu dəfə də bu dəhşətli təklifi rədd etmiş və nəticədə vəhşicəsinə döyülmüşdür. Hətta onun arvadını da evdən gedib götürürlər, razılaşmazsa, qadını kişi məhbusların əlinə verəcəkləri ilə hədələyiblər. “Bunlar neçə ildir qadın görməyiblər” deyə mənalı-mənalı gülüşüblər. Son anda sürücü naəlac qalıb Beriyanın əmrinə boyun əyib”.

Xoşbəxtlikdən az sonra Stalin öldü, Beriya isə həbs edildi. Beləcə, Nazim ölümdən, sürücü isə qatil olmaqdan xilas olur.

Yevtuşenko yazır ki, qanımı donduran bu hadisəni dinləyərkən sürücüdən çox Nazimə baxırdım. Nazimin tükü belə tərpənmirdi. Yoxsa nəyisə təxmin etmişdi? Sürücü Nazimə yalvarırdı: “Ruhumu bu günahdan təmizlə!”

Nazim sakitcə “heç bir günahın-zadın yoxdur” dedi. “Hadi, vodka içelim! Doktorlar yasaq etdi. Amma sanıram ki, sənin kimi doğru adamla az bir şey içə bilərəm”.

Bu hadisədən 6 il əvvəl, 1946-cı ildə inqilabçı-demokrat S. C. Pişəvəri müəmmalı şəkildə avtomobil qəzasında həlak olmuşdu. Nazimi də eyni aqibət gözləyirmiş.

Stalinin ölümü Nazimin ömrünü 11 il də uzatdı və o, öz əcəliylə dünyasını dəyişdi.

*Kənan HACI,*
*yazıçı-publisist*

# Şirvanda 144 yaşlı park “cavan”laşdırılır



**Şirvan şəhərinin “Köhnə şəhər” hissəsində, Kür çayının sahilində yerləşən İsmət Qayıbov adına parkda genişmiqyaslı yenidənqurma və əsaslı təmir işlərinə başlanılıb. İşlər “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində həyata keçirilir.**

Parkın ərazisi 2,5 hektardır. Parkın mövcud vəziyyəti və şəhər əhalisinin çoxsaylı müraciətləri nəzərə alınaraq yenidənqurma layihəsi hazırlanıb. Park ərazisində 5 ədəd idman qurğusu, 1 ədəd turnik kompleksi, 3 ədəd yelləncək, 1 ədəd kompleks uşaq əyləncə qurğusu yer alacaq.

Hazırda parkda işlər davam etdirilir. Parkın yaxın zamanda şəhər sakinlərinin və qonaqların istifadəsinə verilməsi planlaşdırılır.

Qeyd edək ki, mədəniyyət və istirahət parkının tarixi mənbələrdə 1880-ci ildə bağ kimi salındığı qeyd olunur, 1991-ci ildən isə İsmət Qayıbov adına park adlandırılıb. Parkın ərazisində Sovet İttifaqı Qəhrəmanı Şirin Şükürovun büstü ucaldılıb. Park Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli Qərarı ilə ölkə əhəmiyyətli bağ, park, monumental və xatirə abidəsi kimi qeydiyyata alınıb.

*FİDAN*
*XQ*




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 8-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 7-9°, gündüz 9-11° isti olacaq. Atmosfer təzyiqi 774 mm civə sütunundan 769 mm civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 2-7°, gündüz 7-12° isti, dağlarda gecə 6-11° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q. QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2798
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00